III. Bəs problemlərin səbəbləri, kökü nədədir?

- Dilin normativ bazasının zəif tətbiqi;
- Peşəkar dil təliminin çatışmazlığı;
- Terminoloji komissiyaların işinin qeyri-effektivliyi;
- Rəqəmsal kommunikasiya mədəniyyətinin aşağı səviyyədə olması.

IV. Problemlərin həlli yolları nədədir?

- Akademik və işgüzar kommunikasiya üzrə nümunəvi mətn bazalarının yaradılması;
- Müəyyən sahələr üzrə terminoloji lüğətlərin hazırlanması və yayılması;
- Universitetlərdə və dövlət qurumlarında peşəkar yazı təlimlərinin təşkili;
- Milli Elmlər Akademiyasının və Dilçilik İnstitutunun bu sahədə rolu artırılmalıdır və s.

**Tədqiqat**

Akademik və işgüzar kommunikasiya sayəsində problemlərin həlli yollarının araşdırılması müasir dilçiliyin qarşısında duran əsas problemlərdəndir. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya sahəsindəki problemlərin aradan qaldırılması üçün sistemli yanaşma tələb olunur. Həll yolları həm dil siyasəti, həm təhsil sistemi, həm də peşəkar fəaliyyət sahəsində həyata keçirilən addımlarla bağlıdır. Bunun üçün ciddi addımların atılması lazımdır. Məsələn:

1.Terminoloji sistemin yenilənməsi və vahid baza yaradılması. Əgər kommunikasiya sahəsində terminoloji qeyri-dəqiqlik və qarışıqlıq varsa, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Terminologiya Komissiyası və Dövlət Dil Komissiyası tərəfindən sahələr üzrə vahid, rəsmi termin bazalarının hazırlanması vacibdir. Terminlər yalnız tərcümə yox, elmi əsaslandırma ilə müəyyən olunmalıdır (Məmmədli, 2018). İnteraktiv terminoloji platformalar (məsələn, elektron lüğətlər) hazırlanmalı və genişləndirilməlidir.

2.Peşəkar yazı bacarıqlarının tədrisi və təkmilləşdirilməsi sahəsində əsas problemlərdən biri kimi elmi və işgüzar üslubda yazı bacarığının zəifliyini qeyd etmək olar. Bu problemi həll etmək üçün ali məktəblərdə “Akademik yazı”, “İşgüzar ünsiyyət və sənədləşmə” adlı fənlər tədris edilməlidir

(Əliyeva, 2020; Əfəndiyeva, 2010). Eyni zamanda, dövlət və özəl sektorda çalışanlar üçün sertifikatlaşdırılmış dil təlimlərinin təşkil olunması yaxşı nəticələr verə bilər.

Bundan başqa, rəsmi sənəd nümunələrinin model formaları (müəllim müraciəti, protokol, hesabat və s.) ictimailəşdirilməlidir, bəzi sənədlərin şablon formalarının hazırlanması da yazı qaydalarının pozulmasının qarşısını ala bilər.

3. İstinad və elmi etikaya dair maarifləndirmə sahəsində də problemlərin həlli yolları vardır. Yəni istinadsız yazılar, plagiat, qeyri-akademik ifadələrin işlənməsi buna nümunə ola bilər. Bu problemlərin həlli istiqamətində tələbələr və gənc tədqiqatçılar üçün APA, MLA, Chicago kimi istinad formatları üzrə təlimlər təşkil edilməli, təlimatlar və dərsliklər hazırlanmalıdır. Plagiat əleyhinə proqramlardan (Turnitin, Plagscan) istifadənin yayılması təşviq olunmalıdır. Elmi rəhbərlər və redaksiya heyətləri istinad mədəniyyətinə ciddi yanaşmalıdır (Rzayeva, 2021).

4.Elektron kommunikasiya etikası və standartları sahəsində də problemlər vardır. Məsələn: elektron yazışmalarda qeyri-rəsmi dildən, qarışıq stildən istifadə edilməsi də problem məsələlərdəndir. Həmin məsələlərin həlli üçün rəsmi e-mail, gmail, e/müraciət, elan və bildiriş nümunələri bələdçi şəklində hazırlanıb müəssisələrdə yayılmalıdır. Dövlət qurumları üçün dil və stil üzrə normativ sənədlər, dərsliklər, vəsaitlər hazırlanmalıdır. Məsələn, "İşgüzar yazışma qaydaları".

5.Azərbaycan dilində elmi mətnlərin artırılması və tərcümə siyasəti sahəsində rast gəldiyimiz problemlərə akademik mənbələrin azlığı, tərcümə asılılığı problemini aid etmək mümkündür. Bu problemi də həll etmək üçün əcnəbi müəlliflərin elmi əsərlərinin keyfiyyətli tərcüməsi və yerli müəlliflərin əsərlərinin Azərbaycan dilində nəşri dəstəklənməlidir. Dövlət sifarişi ilə humanitar sahələr üzrə Azərbaycan dilində monoqrafiyalar hazırlanmalı və yayılmalıdır. "Elmi məqalə necə yazılmalıdır?" tipli metodik vəsaitlərin hazırlanması da bu sahədə problemlərin həllinə kömək edə bilər.

6.Normativ-lüğəvi nəzarətin gücləndirilməsi sahəsində dil normalarının pozulması, üslub qarışıqlığı problem ola bilər. Bu problemlərin həlli üçün də AMEA-nın nəzdində fəaliyyət göstərən Monitorinq Mərkəzinin işləri daha da aktivləşdirilməlidir. Televiziya, radio və kütləvi informasiya vasitələrində işgüzar və akademik nitqə dil redaktorlarının nəzarəti təmin olunmalıdır. Təhsildə dil mədəniyyəti fənninə yenidən önəm verilməlidir (Abdullayev, 1968; Abdullayev, 2013; Əliyev, 1985; Əsgərov, 1975; Sadıqova, 2024).

7.Rəqəmsal texnologiya vasitəsilə dəstəyin göstərilməsi sahəsində problemləri həll etmək üçün Azərbaycan dilində akademik yazı korpusu yaradılmalı və açıq istifadə üçün təqdim olunmalıdır. AI dəstəyi ilə işləyən dil yoxlayıcı proqramlar (spell check, grammar check) hazırlanmalıdır. Mobil və veb tətbiqlərlə işgüzar yazı şablonları istifadəyə verilməlidir.

## Nəticə

Azərbaycan dilində işgüzar və akademik kommunikasiya sahəsində mövcud olan problemlər təkcə dilin deyil, ümumilikdə cəmiyyətin funksional kommunikasiya qabiliyyətinin inkişafına mane olur. Bu sahədə normallaşdırma, təlim və təcrübə mübadiləsi vasitəsilə peşəkar yanaşmalar formalaşdırılmalıdır. Azərbaycan dilinin dövlət dili kimi funksionallığının qorunması üçün bu istiqamətlərdə ardıcıl addımlar atılmalıdır.

Azərbaycan dilinin işgüzar və akademik sahələrdə funksionallığının artırılması üçün təkcə dil bilikləri deyil, institusional dəstək, təhsil islahatları və rəqəmsal texnologiyaların tətbiqi vacibdir. Bu istiqamətdə planlı addımlar dilin istifadəsini standartlaşdıracaq, effektiv kommunikasiya təmin edəcək və Azərbaycan dilini rəqabətədavamlı elmi və işgüzar dilə çevirəcəkdir.

## Ədəbiyyat

1. Abdullayev, A. (1968). *Nitq mədəniyyəti və natiqlik məharəti haqqında*. ADPU nəşriyyatı.
2. Abdullayev, N. (2013).*Nitq mədəniyyətinin əsasları*. ADPU nəşriyyatı.
3. Ağayeva, İ. (1988). *Bədii və elmi üslub*.
4. Əliyeva, S. (2020). Akademik yazının tədrisi və problemləri. *ADPU, Elmi xəbərlər*, (1).
5. Əliyeva, S. (2020). Akademik yazı mədəniyyəti və Azərbaycan dilinin funksionallığı. *Dil və Ədəbiyyat*, (2).
6. Əliyev, K. (1985). *Nitq mədəniyyəti məsələləri*.
7. Əfəndiyeva, Ə. (2010). *Düzgün yazı təliminin elmi əsasları*.
8. Əsgərov, M. (1975). *Natiqlik sənətinin əsasları*.
9. Hüseynov, M. (2019). *Terminologiya problemləri və müasir yanaşmalar*. Elm və Təhsil.
10. Quliyev, E. (2021). *Azərbaycan dilində rəsmi sənədlərin dili*. ADPU nəşriyyatı.
11. Məmmədli, R. (2018). Terminologiya məsələləri və normativ yanaşma. *Filologiya məsələləri*, (3).
12. Rzayeva, A. (2021). *Azərbaycan dilində elmi üslubun inkişafı və istinad problemləri*. Təhsil.
13. Sadıqova, S. (2024). *Azərbaycan dilində işgüzar və akademik kommunikasiya*. AİI.

Daxil oldu: 04.08.2025
Qəbul edildi: 13.11.2025

DOI: https://doi.org/10.36719/2789-6919/52/20-25

**Hörmət Cavadova**
Bakı Dövlət Universiteti
fəlsəfə üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0003-0279-3577
cavadova22@mail.ru

# Siyasi fəallığın demokratik vətəndaş cəmiyyətinin formalaşmasında rolu

## Xülasə

Məqalədə siyasi fəallıq demokratik rejimlər kontekstində müasir siyasi proseslərin tərkib hissəsi kimi araşdırılır. Onun fərqli xüsusiyyətləri, vətəndaşlar üçün yaratdığı siyasi imkanlar, bəzən vətəndaşlarla hökümət arasında yaranan fikir ayrılığı və bu fikir ayrılığından yarana biləcək mənfi nəticələr təsvir edilir. Qloballaşan dünyada inkişaf etmiş dövlətlərin demokratik prinsiplərə əsaslanan tendensiyasını nəzərə alaraq müasir cəmiyyətlərdə vətəndaşların öz fikirlərini ifadə etmək imkanının əhəmiyyəti müəyyən edilir. Vətəndaş cəmiyyəti, iştirakı, hesabatlılığı və sosial ədaləti təşviq etməklə demokratik idarəetmənin formalaşmasında mühüm rol oynayır. Məqalədə vətəndaş cəmiyyətinin demokratik proseslərdə iştirakının müxtəlif ölçüləri, o cümlədən siyasətin formalaşdırılmasına, ictimai müdafiəyə və vətəndaşların səfərbər olunmasına təsiri araşdırılır.

Vətəndaş cəmiyyəti ilə demokratik idarəetmə arasındakı münasibət mürəkkəb və çoxşaxəlidir. Bir tərəfdən, vətəndaş cəmiyyəti vətəndaşların iştirakını və ictimai müzakirələri təşviq etməklə demokratikləşmə prosesinə töhfə verir. Digər tərəfdən, o, avtoritar rejimlərin repressiyaları, maliyyələşdirmə məhdudiyyətləri və sektor daxilində parçalanma da daxil olmaqla, ciddi çətinliklərlə üzləşə bilər. Bu məqalənin məqsədi siyasi fəallığın demokratk vətəndaş cəmiyyətinin formalaşmasındakı rolunu araşdırmaq, onun töhfələrini, çətinliklərini və effektivliyini artıra biləcək strategiyaları vurğulamaqdır.

***Açar sözlər:*** *demokratiya, vətəndaş iştirakı, fəallıq, siyasi fəallıq, vətəndaş cəmiyyəti*

**Hormet Javadova**
Baku State University
PhD in Philosophy
https://orcid.org/0009-0003-0279-3577
cavadova22@mail.ru

# The Role of Political Activism in the Formation of a Democratic Civil Society

## Abstract

The article examines political activism as an integral part of modern political processes in the context of democratic regimes. Its distinctive features, the political opportunities it creates for citizens, the disagreements that sometimes arise between citizens and the government, and the negative consequences that can arise from this disagreement are described. Given the tendency of developed states in a globalized world to base their opinions on democratic principles, the importance of the opportunity for citizens to express their opinions in modern societies is determined. Civil society plays an important role in the formation of democratic governance by promoting participation, accountability, and social justice. The article also examines the various dimensions of civil society participation in democratic processes, including its impact on policymaking, public advocacy, and citizen mobilization.


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

The relationship between civil society and democratic governance is complex and multifaceted. On the one hand, civil society contributes to the democratization process by promoting citizen participation and public debate. On the other hand, it can also face serious challenges, including repression by authoritarian regimes, funding constraints, and fragmentation within the sector. The purpose of this article is to examine the role of political activism in the formation of democratic civil society, highlighting its contributions, challenges, and strategies that can enhance its effectiveness.
***Keywords:*** *democracy, civic participation, activism, political activism, civil society*

## Giriş

Hər bir dövlətin daxili və xarici siyasətinin əsas istiqamətləri onun rəhbərliyi tərəfindən müəyyən edilir. Dövlət bunu ən optimal şəkildə etməyə çalışır ki, bu da cəmiyyətin bütün üzvlərinin ümumi maraqlarına, onların funksiya və rollarına əsaslanaraq davranış qaydalarının işlənib hazırlanmasını, ictimai həyatın müxtəlif sahələrində qarşılıqlı əlaqə və münasibətlərin əsasını təşkil edən müxtəlif məlumatların mübadiləsi və saxlanmasının metodlarının yaradılmasını nəzərdə tutur. Siyasi rəhbərliyin bu fəaliyyəti o halda uğurlu olur ki, hökumətin bütün bu təşəbbüsləri vətəndaşlar tərəfindən qəbul edilsin.

Legitim hakimiyyət, yəni idarə olunan fərdlər tərəfindən tanınan hakimiyyət haqqında M.Veberin təlimində bu anlayışın çox mühüm rolu vardır. Sosiologiyanın klassik dövrünün nümayəndələrindən biri olan M.Veber hakimiyyət anlayışına belə tərif verir: *"Hökmranlıq – müəyyən bir əmrə itaətin təmin olunması ehtimalıdır."* Veberə görə, hökmranlıq qarşılıqlı gözləntilərə əsaslanır. Bu münasibətdə əmr verən tərəf öz göstərişlərinin yerinə yetiriləcəyini əvvəlcədən qəbul edir. Digər tərəfdən, əmrə tabe olanlar isə həmin əmrin onların mövcud sosial normalarına, dəyərlərinə və qəbul etdikləri legitimlik çərçivəsinə uyğun olacağını gözləyirlər (Osipov, 2010, s. 272; Dahl, 1989). Beləliklə, hökmranlıq dövrün yalnız gücün tətbiqi ilə deyil, həm də tərəflər arasında formalaşmış qarşılıqlı etimad və legitimlik əsasında mövcud olur. Əks halda, hökumət onun təklif etdiyi innovativ ideyalara, qanunlara və qaydalara qarsı əhalinin ciddi müqaviməti ilə üzləşmək riski ilə qarşılaşa bilər. Bu baxımdan, demokratiya elə xüsusiyyətlərə malikdir ki, dövlətin hazırkı inkişaf mərhələsində həm xarici, həm də daxili siyasətini formalaşdırmaq üçün ən təsirli vasitə hesab olunur.

**Tədqiqat**

Elmi ədəbiyyatda klassik demokratiya nəzəriyyələrində demokratiyanın üç əsas xüsusiyyəti vurğulanır: a) insanlar siyasi məsələlərdə qəti və rasional seçim etmək qabiliyyətinə malikdirlər ki, rasional qərarlar qəbul edə bilsinlər; b) fərdi rasional üstünlüklərin məcmusu xalqın ümumi iradəsini təşkil edir ki, bu da öz növbəsində ümumi iradə yaradır; c) insanların siyasi məsələlərdə rasional qərarlar qəbul etdiyi demokratik sistem və buraya ümumi iradəni həyata keçirmək üçün nümayəndələr seçən qurumlar daxildir (Almond & Verba, 1963). Bu anlayışda hökumət və ümumilikdə rəhbərlik xalqın iradəsini həyata keçirmək üçün məsuliyyət daşıyır. Seçilmiş nümayəndələr yalnız xalqın tam hüquqlu nümayəndələridir.

Bu illər ərzində bir çox nəzəriyyəçilər klassik demokratik nəzəriyyənin reallıqla uyğun olduğunu araşdırıb tapdılar. Empirik tədqiqatlar ziddiyyətli nəticələr verdiyi üçün, getdikcə daha aydın olur ki, demokratik cəmiyyət üçün geniş iştirak əsas məsələ deyil. Antidemokratik, oliqarx strukturlrar meydana çıxdıqdan sonra bu tənqidlər daha da artdı. Bundan əlavə, bir çox nəzəriyyəçilər klassik demokratiya nəzəriyyəsini empirik reallığa əsaslanan nəzəriyyə kimi şərh edir və onun tamamlanmasının vacibliyini vurğulayırdılar.

Klassik demokratlar xalqın siyasi proseslərdə bərabər və maksimum iştirakını dəstəkləyirlər və bunda israrlıdırlar. Onlar hesab edirlər ki, xalqın siyasi proseslərdə bərabər və maksimum iştirakı cəmiyyətin inkişafı üçün zəruri şərtdir və bunlar xoşbəxtliyi təmin edən, eyni zamanda insanın nüfuzunu, hörmətini və dəyərini qoruyan bir sistem üçün vacibdir. Demokratiya həm də cəmiyyətdə qoruyucu bir vasitə kimi çıxış edir. Deməli, demokratiya təkcə rejim deyil, həm də sistemdir. Demokratik sistem xalqın psixoloji vəziyyəti ilə də bağlıdır. İnsanın psixoloji durumu ailə münasibətlərindən başlayaraq siyasi fəaliyyətinə qədər bütün sosial həyatının gedişatına təsir edir. Siyasi fəallığın və səriştəliliyin dərəcəsində təhsil həlledici rol oynayır. İnsan hərtərəfi təhsil prosesi

vasitəsilə öz varlığını dərk edə bilir. Vətəndaşların siyasi fəallığı müəyyən dərəcədə onların cinsindən və yaşından da asılıdır. Məlumdur ki, gənclər yaşlı insanlara nisbətən daha az fəaldırlar, ahıl yaşlı insanlar isə səsvermə vaxtı 30-40 yaşlı vətəndaşlardan fəal deyillər. Siyasi iştirak 50-60 yaşlı nəsildə maksimaldır. Qadınlar əksər hallarda, kişilərdən daha az fəaldırlar (Həsənov, 2010, s. 121).

Demokratik cəmiyyətdə fərd intellektual cəhətdən inkişaf edir, öz potensialını tam reallaşdırır. Klassik demokratlar üçün demokratik iştirakın bu funksiyası sistemin siyasi faydaları qədər vacibdir. Demokratiya anlayışının azadlıq, bərabərlik, sosial ədalət və insan ləyaqəti kimi mənaları vardır. Amma daha önəmlisi budur ki, o, həyat fəlsəfəsidir.

Vətəndaşın, ilk növbədə, dövlət hakimiyyətinin özünü, onun bütün təşəbbüslərini, qanun layihələrini, həyata keçirdiyi islahatları qəbul etməsi həm ayrı-ayrı vətəndaşlar, həm də bütövlükdə cəmiyyət üçün kifayət qədər yüksək siyasi və hüquqi mədəniyyətə əsaslanır. Sadəcə olaraq, qüvvəyə minmiş qanunu qəbul etmək və ya ölkə konstitusiyasına düzəlişlər təklif etmək kifayət deyil. Əhali onların mahiyyətini, təklif olunan dəyişikliklərin əhəmiyyətini və bunun onların müəyyən bir cəmiyyətdə davamlı mövcudluğuna və fəaliyyətinə necə təsir edəcəyini başa düşməlidir. Bu, o zaman mümkündür ki, vətəndaşlar dövlətdə baş verən bir çox siyasi-hüquqi proses və hadisələr barədə əhəmiyyətli dərəcədə məlumatlandırılsınlar, onları qəbul etsinlər və həyata keçirilməsində hökumətə kömək etsinlər. Bu vəziyyət özünü ilk növbədə demokratik rejimlərdə büruzə verir, çünki demokratiyanın verdiyi çoxsaylı azadlıqlar və imkanlar hakimiyyətin daha açıq şəkildə həyata keçirilməsinə imkan verir, ölkə əhalisinə cəmiyyətdə baş verən bir çox proses və hadisələr haqqında geniş məlumat əldə etməyə imkan verir. Vətəndaşlar hökumətin irəli sürdüyü qanunlarla, ölkə daxilində həyata keçirilən islahatlarla, xaricdə həyata keçirilən tədbirlərlə və s. tanış olmaqla yanaşı, həm də ölkə rəhbərliyinin fəaliyyətinə öz münasibətini bildirə bilər.

Müasir cəmiyyətlərdəki demokratik siyasi rejimlər milli idarəetmənin effektivliyi baxımından ən əhəmiyyətli və uğurlu hesab olunur. Belə rejimlər həm hökumətə, həm də əhaliyə geniş imkanlar açır. Xüsusilə, insan hüquqlarının – onların təkcə qanunvericilikdə təsbit olunması deyil, həm də praktiki şəkildə həyata keçirilməsinin təmin edilməsinə, qanunun aliliyinin qorunmasına, hakimiyyət bölgüsünün səmərəli fəaliyyətinə, ictimai həyatın bütün sahələrinin fəaliyyəti üçün möhkəm konstitusion əsasların mövcudluğuna, eləcə də söz və etiqad azadlığının təminatına xüsusi diqqət yetirilir.

Demokratiya müəyyən mənada siyasi prosesə vətəndaşların fəal müdaxiləsinin nəticəsidir. Amerika alimləri "hökümət personalının formalaşmasına və dövlətin həyata keçirdiyi fəaliyyətə təsir göstərməyə çalışan vətəndaşların hərəkətlərinin məcmusunu nəzərdə tuturdular". Cəmiyyətdə baş verən sosial dəyişikliklər fəal sosial qrupların və təşkilatların siyasi fəallığına təsir göstərir. Bunu SSRİ-də, o cümlədən ölkəmizdə 1980-ci illərin sonlarındakı dövrün tarixi əyani surətdə nümayiş etdirdi. SSRİ-də baş verən böyük dəyişikliklər əhalinin geniş təbəqələrinin hərəkatına gətirib çıxardı ki, bu da nəticədə SSRİ-nin dağılmasına və yeni müstəqil dövlətlərin yaranmasına səbəb oldu (Siyasi sosiologiya, 2021).

Bu gün bir çox ölkələrdə əhalinin öz fikirlərini azad şəkildə ifadə etmək bacarığı demokratik dövlətlərdə vətəndaşlarla hökumət arasında müasir münasibətlərin mühüm tərkib hissəsi kimi çıxış edir və tərəflər arasında səmərəli dialoqun mümkünlüyünü şərtləndirir. Belə münasibətlər cəmiyyətdə dövlətdaxili qarşıdurmaların qarşısının alınmasına xidmət edərək, hər iki tərəf arasında "düzgün" qüvvələr, mövqelər və fəaliyyətlər balansının formalaşmasına töhfə verir. Əhalinin bu imkana malik olması müəyyən ölkədə demokratik mədəniyyət səviyyəsinin göstəricisi kimi qiymətləndirilə bilər. Başqa sözlə, bu, demokratik dövlətin əsas prinsiplərinin həyata keçirilmə dərəcəsini ifadə edir: həmin prinsiplər Konstitusiyada hüquqi şəkildə təsbit olunmalı və eyni zamanda, vətəndaşlar tərəfindən qəbul olunaraq siyasi praktikada real şəkildə tətbiq edilməlidir.

İstər hakimiyyətin fəaliyyətini dəstəkləmək, istərsə də onu tənqid etmək məqsədilə ictimai rəy müxtəlif formalarda ifadə oluna bilər. Sadə vətəndaşların, vətəndaş cəmiyyəti institutlarının və ya ayrı-ayrı ictimaiyyət nümayəndələrinin çıxışları ölkə rəhbərliyinin irəli sürdüyü təşəbbüs və təkliflərin əhali tərəfindən necə qəbul edildiyini əyani şəkildə göstərir. Siyasi iştirakın bu kimi formaları müasir cəmiyyətlərdə mühüm rol oynayır və çox vaxt əhali siyasi məsələlərin həllinə cəlb olunmaq üçün müxtəlif vasitələrdən istifadə edir. Bu proses "siyasi (vətəndaş) fəallıq"ı adlanır və

"vətəndaşların öz təşəbbüsləri ilə, hökumət strukturlarından asılı olmayaraq, ölkənin sosial, siyasi, iqtisadi və digər sahələrində dəyişikliklərə nail olmağa yönəlmiş fəaliyyətlər məcmusu" kimi xarakterizə olunur (Kukarseva, 2017, s. 43; Siyasi sosiologiya, 2021, s. 48).

Vətəndaş fəallığı ilə siyasi fəallıq anlayışları arasında müəyyən fərqlər mövcuddur. Xüsusilə, ictimai proseslərdə iştirak edən vətəndaşlarda dövlət siyasətində öz yerini dərk etmək istəyi, siyasi mənzərədə və cəmiyyətdəki münasibətlər sistemində öz mövqelərini dəyişdirməyin zəruriliyinə və mümkünlüyünə inam formalaşdıqda, adi vətəndaş fəallığından fərqli olaraq, siyasi özünüdərk meydana çıxır və bu zaman siyasi fəallıq təzahür etməyə başlayır. Bununla belə, vətəndaş fəallığı hər zaman siyasi dəyərlər, özünüdərk və ya ambisiyalarla bağlı olmaya bilər. Lakin bu hal onun siyasət sahəsindəki əhəmiyyətini heç də azaltmır (Nevskaya, 2020, s. 19; Panferova & Selçovskiy, 2010, s. 18).

Siyasi fəallıq çoxşaxəli məzmun daşıyan anlayış olub, müxtəlif xüsusiyyət və izahlarla səciyyələnir. Müxtəlif yanaşmalara baxmayaraq, tədqiqatçılar siyasi fəallığın insanın siyasi davranışı (iştirakı) çərçivəsində formalaşdığı fikrində yekdildirlər. Bununla belə, həyata keçirilən bütün siyasi aksiyaları siyasi fəallıq kimi qiymətləndirmək mümkün deyil. Siyasi fəallıq, ilk növbədə, cəmiyyətin siyasi həyatında iştirakla xarakterizə olunur. Bu iştirak könüllülük prinsipi əsasında həyata keçirilməli, yəni vətəndaşlar siyasi proseslərə şüurlu şəkildə qoşulmalıdırlar. Eyni zamanda, siyasi fəallığın qanunauyğun olması, ardıcıllıq nümayiş etdirməsi və geniş ictimai təbəqələr üçün əlçatanlığı mühüm şərtdir. Bu, cəmiyyət üzvlərinə müxtəlif siyasi proseslərdə iştirak etmək, ümumi məqsədlərə yönəlmiş təşəbbüslərə qoşulmaq və siyasi qərarların qəbuluna təsir göstərmək imkanı yaradır. Yuxarıda sadalananları nəzərə alaraq, siyasi fəallığı ideyalara sadiqlik əsasında müntəzəm və davamlı şəkildə həyata keçirilən, siyasi hakimiyyətə təsir göstərməklə ümumi mənafelərin təmininə və siyasi məqsədlərə nail olmağa yönəlmiş, həmçinin cəmiyyətin hər bir üzvü üçün əlçatan olan könüllü siyasi iştirak forması kimi xarakterizə etmək mümkündür (Kukarseva, 2017, s. 45).

Müasir kontekstdə vətəndaşların siyasi fəallığı müxtəlif formalarda özünü göstərir. Bu formalar məsələlərin həlli üçün dövlət orqanlarına birbaşa müraciət etmək, ölkədə qeydiyyatdan keçmiş siyasi partiyaların fəaliyyətində iştirak etmək, könüllülük hərəkatlarına və ictimai-siyasi təşkilatlara dəstək göstərmək, müxtəlif yardımlar etmək, eləcə də müəyyən yaşa çatdıqdan sonra hakimiyyətin müxtəlif səviyyələrində – qanunvericilik məclislərində və prezidentliyə namizəd kimi seçkilərdə iştirak etmək imkanı verilə bilər.

Bu gün siyasi fəaliyyətin mühüm və ən geniş yayılmış forması vətəndaşların müxtəlif mitinqlərdə, yürüşlərdə, piketlərdə iştirakı, petisiyaların (o cümlədən onlayn rejimdə) imzalanmasıdır. Lakin bu fəallıq insanların ölkədə baş verən hadisələrə münasibətini bilavasitə ifadə etmək üçün geniş imkanlar yaratsa da, təəssüf ki, siyasi konfliktin və tərəflər arasında (çox vaxt hökumətlə vətəndaşlar arasında) ciddi qarşıdurmanın inkişafı, bəzən hətta silahlı toqquşmalara səbəb ola biləcək potensial riski də daşıyır. Vətəndaşların iradəsinin bu birbaşa ifadəsi əhalinin müəyyən vaxtda ölkədə yaranan vəziyyəti necə dərk etdiyini, onların öz hüquqlarını və onların həyata keçirilməsinin effektivliyini necə dərk etdiyini nümayiş etdirir, həmçinin, hökumətin münaqişə zamanı yaranan vəziyyəti yaxşılaşdırmaq və əhali ilə qarşılıqlı münasibətləri normallaşdırmaq üçün hərəkətə keçmək qabiliyyətini (yaxud acizliyini) əks etdirir. Bir sıra müasir dövlətlərin təcrübəsi göstərir ki, demokratiyanın əsas prinsiplərindən biri olan vətəndaşların öz iradələrini ifadə etmək bacarığının məhdudlaşdırılması ölkə daxilində siyasi vəziyyətə, vətəndaşlarla hökumət arasında qarşılıqlı münasibətlərə, həmçinin, dövlətin beynəlxalq imicinə mənfi təsir göstərə bilər.

London və Parisdə, eləcə də Böyük Britaniya və Fransanın digər şəhərlərində baş verən kütləvi etirazlar bunu təsdiq edir. Bu etirazlar əhalinin mövcud sosial-iqtisadi proseslərdən narazılığının – xüsusilə, Böyük Britaniyada qiymət artımı və Fransada təqaüd yaşının artırılması ilə bağlı narazılığın – açıq şəkildə ifadəsidir.

Mövcud vəziyyət göstərir ki, hökumət orqanları əhali ilə konstruktiv dialoqdan yayınaraq öz siyasi kursunu davam etdirdikdə, bu, narazılıqların daha da dərinləşməsinə və etiraz aksiyalarının miqyasının genişlənməsinə səbəb olur. Belə şəraitdə vətəndaşlar öz siyasi iradələrini müdafiə etmək, həmçinin, narazılıqlarını birbaşa dövlət rəhbərliyinə çatdırmaq üçün daha fəal fəaliyyət göstərməyə

başlayırlar. Nəticə etibarilə, cəmiyyət və dövlət arasında sosial-siyasi məsafə artır, qarşılıqlı etimad səviyyəsi zəifləyir və ictimai-siyasi sabitlik üçün risklər yüksəlir.

Bir sıra inkişaf etmiş dövlətlərin təcrübəsi göstərir ki, demokratiyanın əsas prinsiplərindən biri olan vətəndaşların öz iradəsini sərbəst ifadə etmək imkanı həm ölkənin daxili vəziyyətinə, həm vətəndaş-hökumət münasibətlərinə, həm də dövlətin qlobal miqyasda formalaşan imicinə ciddi təsir göstərə bilər. Bu prinsipin pozulması və ya məhdudlaşdırılması isə qeyd olunan sahələrdə mənfi nəticələrə səbəb ola bilər. Hökumət əhali ilə dialoq qurmağa cəhd etmədən öz siyasətini davam etdirir ki, bu da yalnız tətillərin və mitinqlərin daha uzun sürməsinə, eləcə də hakimiyyətə qarşı etirazçıların sayının artmasına səbəb olur. Nəticə etibarı ilə vətəndaşların öz iradələrini ifadə etmək hüquqlarını müdafiə etməyə, yaranmış vəziyyətdən narazılıqlarını, xüsusilə, Fransa prezidentinə çatdırmağa cəhd etdiklərini görə bilərik ki, bu da son nəticədə yalnız əhali ilə cəmiyyət və dövlət arasında uçurumların genişlənməsinə gətirib çıxarır. Bununla belə, mitinqlər, tətillər və etiraz aksiyaları ilə bağlı mövcud vəziyyət göstərir ki, müasir dövlətlərin əhalisi konstitusiyada təsbit edilmiş ifadə azadlığı hüququndan istifadə etməyə çalışır.

Oxşar etiraz formalarına dünyanın müxtəlif ölkələrində rast gəlinir; məsələn, ABŞ-da "Black Lives Matter" ("Qaradərililərin həyatı əhəmiyyətlidir") hərəkatı, Almaniyada və digər Avropa ölkələrində Ukraynaya silah tədarükünə qarşı təşkil edilən aksiyalar və s. Müasir konstitusiyalarda vətəndaşların hökumət siyasəti ilə razılaşmadıqları hallarda öz mövqelərini açıq şəkildə bildirmək hüququ təsbit olunmuşdur. Dövlətlərin əsas qanunlarına görə, hökumətin qərarları və ya idarəetmə praktikası cəmiyyətin gözləntiləri ilə ziddiyyət təşkil etdikdə vətəndaşlar bu məsələlərə dair fikirlərini sərbəst şəkildə ifadə etmək imkanı əldə edirlər.

Bu cür fikir ifadəsi hökumətin əhali tərəfindən atdığı addımların legitimliyini təmin edir və tərəflər arasında qarşılıqlı hörmətə əsaslanan münasibətlərin formalaşmasına kömək edir ki, bu da ictimai razılıq və etimadın mövcudluğu ilə mümkün olur. Xalqın iradəsinin ifadəsi siyasi münaqişə və ya qarşıdurma formasını aldığı hallarda, demokratik rejim mövcud qanunların cəmiyyət tərəfindən qəbul edildiyi və hakimiyyətin fəaliyyətinin vətəndaşların ehtiyaclarına uyğun olduğu təqdirdə bu ziddiyyətləri ən təhlükəsiz şəkildə həll etmək potensialına malikdir.

Demokratiya müasir cəmiyyətlərin əsas prinsiplərinə söykənərək hökumət və əhali arasında səmərəli qarşılıqlı əlaqə sistemini təmin edir və yaranan münaqişələrin konstruktiv həllini mümkün edir. Ölkədə səmərəli qanunvericiliyin mövcudluğu, həmin qanunların vətəndaşlar tərəfindən başa düşülərək qəbul olunması, Konstitusiya və digər normativ aktlarda təsbit edilmiş müddəaların ictimai həyatda real tətbiqi demokratik inkişafın və ümumilikdə demokratik siyasi mədəniyyətin yüksək səviyyədə olmasından xəbər verir.

## Nəticə

Demokratik dəyərlərin təhlükə altında olduğu cəmiyyətlərdə vətəndaş sektoru tənqidi ictimai rəyin formalaşdırılması, cəmiyyətin səfərbər edilməsi və qanunun aliliyinin müdafiəsi baxımından əsas rol oynayır. Vətəndaş cəmiyyəti institutlarının və demokratik idarəetmə mexanizmlərinin möhkəmləndirilməsi istiqamətində birgə səylər göstərilmədən azadlıq, ədalət və bərabərlik kimi fundamental dəyərlərin qorunub saxlanması və inkişaf etdirilməsi mümkün deyil. Güclü və müstəqil vətəndaş sektoru olmadan inkişaf etmiş demokratik cəmiyyətin formalaşması necə mümkündürsə, eləcə də demokratiyanın mövcudluğu və davamlılığı vətəndaş cəmiyyətinin varlığına və fəaliyyətinə bilavasitə bağlıdır.

## Ədəbiyyat

1. Almond, G. A., & Verba, S. (1963). *The Civic Culture: Political Attitudes and Democracy in Five Nations*. Princeton University Press.
2. Dahl, R. A. (1989). *Democracy and Its Critics*. Yale University Press.
3. Həsənov, R. (2010). *Siyasi sosiologiya*. Bakı Az.TU-nun mətbəəsi
4. Hacızadə, H. (tərtibçi). (2002). *Demokratiya: gediləsi uzun bir yol*. Elm.
5. Kravchenko, A. (2005). *Sosiologiya*. Prospekt.
6. Kukarseva, M.A. (2017). Politicheski aktivizm. Osobennosti strategiy sovremennoy politicheskoy mobilizatsii. *Obozrevatl– Observer*, (5), 43–54.
7. Nevskaya, T.A. (2020). *Qrajdanskiy aktivizm kak resurs politicheskoqo administrirovania: rossiyskiy i mejdunarodnıy opıt. Sotsiodinamika*, (9), 18–29.
8. Osipov, Q.V. (2010). *Qərbi Avropada və ABŞ-da sosiologiya tarixi.* Turan nəşrlər evi.
9. Qolenkova, Z.T., Akuliç, M.M, Kuznetsov, V.N. (2007). *Ümumi sosiologiya*. Diplomat.
10. Panferova, V.V., Selchovskiy, P.A. (2010). *Kultura demokratii kak ustanovlenie dialoqa vlasti i obshestva. Sotsiologia-qumanitarnie znaniya*, (4), 17–33.
11. *Siyasi sosiologiya* (2021). Fyüzat.
12. Sedova, H.H. (2014). *Qrajdanskiy aktivizm v sovremennoy Rossii: formatı, faktorı, sotsialniya baza. Sotsilogicheskiy jurnal*, (2), 48–71.

Daxil oldu: 10.08.2025
Qəbul edildi: 14.11.2025

DOI: https://doi.org/10.36719/2789-6919/52/26-29

**Yeganə Məmmədova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-8319-8849
yeganememmedova.doc@gmail.com

# Məktəbəqədər təhsil müəssisələrində kitab guşəsinin tərbiyəvi əhəmiyyəti

## Xülasə

Kitab guşəsi məktəbəqədər təhsil müəssisələrində uşaqların təhsil və tərbiyəsinin ayrılmaz hissəsi kimi böyük əhəmiyyət kəsb edir. Kiçik yaşlardan uşaqlarda kitab sevgisini formalaşdırmaq, onları oxumağa maraqlandırmaq və nitq, düşüncə bacarıqlarını inkişaf etdirmək bağçalarda təşkil edilmiş məqsədli mühitin əsas tərkib hissəsidir. Müasir pedaqoji yanaşmalara əsasən, kitab guşəsinin dizaynı yalnız vizual cəhətdən cəlbedici olmamalı, həm də uşaqların fiziki və əqli inkişafını dəstəkləməli, sərbəst kitab seçimi, baxış və müsahibə fəaliyyətlərinə şərait yaratmalıdır. Məktəbəqədər təhsil müəssisələrində kitab guşəsi uşaqların nitq, təfəkkür, yaddaş və təxəyyül inkişafı üçün vacib vasitədir. Onun düzgün təşkili və tərtibatı uşaqların oxu mədəniyyətini, marağını və müstəqil fəaliyyət bacarıqlarını artırır. Kitab guşəsi uşaqların gələcək savadlılıq səviyyəsinə, sosial bacarıqlarına və yaradıcı düşüncəsinə təsir göstərən əsas elementlərdən biridir. Bu səbəbdən məktəbəqədər təhsil müəssisələrində kitab guşəsinin yaradılması və davamlı şəkildə təkmilləşdirilməsi pedaqoji prosesin əhəmiyyətli tərkib hissəsi hesab olunur.

***Açar sözlər:*** *məktəbəqədər təhsil, kitab guşəsi, tərbiyəçinin rəhbərliyi, təhsil, tərbiyə*

**Yegana Mammadova**
Azerbaijan State Pedagogical University
PhD in Pedagogy
https://orcid.org/0000-0001-8319-8849
yeganememmedova.doc@gmail.com

# The Educational Importance of the Book Corner in Preschool Educational Institutions

## Abstract

The book corner holds great importance in preschool education institutions as an integral part of children's learning and upbringing. From an early age, fostering a love for books in children, sparking their interest in reading, and developing their speech and thinking skills are essential components of the purposeful environment created in kindergartens. According to modern pedagogical approaches, the design of the book corner should not only be visually appealing but also support children's physical and mental development, providing opportunities for free book selection, exploration, and discussion activities. In preschool institutions, the book corner serves as an important tool for developing children's speech, thinking, memory, and imagination. Proper organization and arrangement of the book corner enhances children's reading culture, curiosity, and independent activity skills. The book corner is one of the key elements influencing children's future literacy level, social abilities, and creative thinking. Therefore, the creation and continuous improvement of book corners in preschool education institutions are considered significant components of the pedagogical process.

***Keywords:*** *preschool education, book corner, teacher's guidance, education, upbringing*


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

## Giriş

Kitab guşəsi məktəbəqədər təhsil müəssisələrində uşaqların təhsil və tərbiyəsinin ayrılmaz hissəsi kimi böyük əhəmiyyət kəsb edir. Kiçik yaşlardan uşaqlarda kitab sevgisini formalaşdırmaq, onları oxumağa maraqlandırmaq və nitq, düşüncə bacarıqlarını inkişaf etdirmək bağçalarda təşkil edilmiş məqsədli mühitin əsas tərkib hissəsidir. Müasir pedaqoji yanaşmalara əsasən, kitab guşəsinin dizaynı yalnız vizual cəhətdən cəlbedici olmamalı, həm də uşaqların fiziki və əqli inkişafını dəstəkləməli, sərbəst kitab seçimi, baxış və müsahibə fəaliyyətlərinə şərait yaratmalıdır. Bu guşədə yerləşdirilən kitablar müxtəlif mövzuları əhatə etməli, rəngarəng, yaşa uyğun olmalı, həmçinin, uşaqların müstəqil fəaliyyətini təşviq etməlidir (Həsənov, 2000; Cəfərova, 2006). Belə bir mühit uşaqlara kitabla düzgün ünsiyyət qurmağı öyrədir: kitabı ehtiyatla saxlamaq, səhifələrinə hörmətlə yanaşmaq və oxuduqlarını başqalarına danışmaq. Bundan əlavə, kitab guşəsi uşaqlarda ümumiləşdirmə bacarığını, nitq mədəniyyətini, diqqət və yaddaşını inkişaf etdirmək üçün ideal platforma yaradır.

Məktəbəqədər təhsil dövrü uşağın ümumi inkişafında, xüsusilə nitq, düşüncə, təxəyyül və sosial bacarıqlarının formalaşmasında mühüm rol oynayır. Bu dövrdə uşaqlar üçün müxtəlif fəaliyyət formaları təşkil olunur ki, onların psixoloji, fiziki və əqli inkişafına dəstək verilsin. Bunlardan biri də *kitab guşəsidir*. Kitab guşəsi uşaqların oxu mədəniyyətinin, estetikasının, maraq və biliklərinin inkişafında əsas vasitələrdən biridir. Kitab guşəsi uşaqlara yalnız oxumağı öyrətmək deyil, həm də onların təxəyyülünü, nitqini, diqqətini və əqli fəaliyyətini inkişaf etdirmək məqsədini daşıyır. Müasir pedaqoji tədqiqatlar göstərir ki, məktəbəqədər dövrdə uşaqların kitablarla tanışlığı onların gələcək təhsil nailiyyətlərinə, savadlı olma səviyyəsinə və kommunikativ bacarıqlarına birbaşa təsir edir. Uşaqlarda *insan ağlının ən böyük nailiyyəti olan kitaba məhəbbətin* formalaşdırılması məktəbəqədər tərbiyənin vacib istiqamətlərindən biridir. Uşaqlar kitabı böyük hörmətlə əlinə alıb oxuyan, ona ehtiyatla yanaşan tərbiyəçini gördükcə, kiçik yaşlarından kitab sevgisini qavramağa başlayırlar. Gələcəyin kiçik oxucusu yaşlıları yamsılamaq yolu ilə davranış qaydalarını öyrənir. Məsələn, tərbiyəçinin kitab oxumazdan əvvəl əllərini yuması, səhifələri qatlamaması, arasına əşya qoymaması və kitabı ehtiyatla çevirməsi uşaqların da kitabla eyni şəkildə davranmasına təkan verir. Onlar əzilmiş, cırılmış kitab gördükdə narazı qalır və tərbiyəçinin nümunəsini təqlid etməyə çalışırlar.

Uşaq hələ oxumağı bacarmadığı dövrdə ona *rəngli, maraqlı və əlçatan kitablar* təqdim edilməlidir ki, o, kitabla müstəqil tanış olmağı öyrənsin. Kiçik yaşlardan uşaq kitabı özünə *dost kimi qəbul etməlidir*, onu sevməyi və qorumağı öyrənməlidir (Kərimov, 2002; Əliyeva, 2023; Əliyeva, 2010; İlyasov, 2013; Həsənov, 2011). Körpəlik dövründə evdə və uşaq bağçasında *səliqəli kitab rəfləri və guşələri* uşaqlara kitabların düzgün saxlanmasını göstərir. Uşaqlar tədricən evdəki kitab rəfindən və bağçadakı kitab guşəsindən kitab götürüb, ehtiyatla baxmaq və yerinə qoymaq vərdişini qazanırlar. Bu müddətdə yaşlılarla ünsiyyət nəticəsində uşaqların nitqinə *kitab, cild, səhifə, şeir, oxumaq* və s. kimi sözlər daxil olur.

**Tədqiqat**

Uşaq bağçasında təşkil edilmiş kitab guşəsində kitablar mütəmadi olaraq *dəyişdirilir və yenilənir*, yeni kitabların əlavə olunması ilə uşaqların məlumat dünyası zənginləşir. Uşaqlara kitabxananın nə olduğu, kitabları necə almaq və qaytarmaq, onlara necə diqqətlə yanaşmaq lazım olduğu öyrədilir. Bunun üçün bağçanın kitab guşəsində *növbətçilik sistemi* təşkil etmək məqsədəuyğundur. Kitab guşəsindən götürülmüş və zədələnmiş kitablar, tərbiyəçinin rəhbərliyi ilə, böyük qrupun uşaqları tərəfindən təmir olunmalıdır ki, uşaqlar həm məsuliyyət hissi qazanmış, həm də kitabın dəyərini anlamış olsunlar. Uşaqların *ümumiləşdirmə bacarıqlarını inkişaf etdirmək* üçün vaxtaşırı *tematik kitab sərgiləri* təşkil olunmalıdır. Məsələn, “Doğma Azərbaycan haqqında kitablarımız”, “Heyvanlar aləmi haqqında kitablarımız”, “Abdulla Şaiqin nağılları” və s. kimi sərgilər uşaqların marağını artırır və onların öyrənmə prosesini əyləncəli edir. Bu zaman müəllim uşaqlara kitabların müəllifi və mövzusu barədə sadə, qısa məlumatlar verməlidir (Əliyeva, 2020; Rüstəmov & Mursaqulova, 2012; Məmmədova, 2007; Kərimov, 1997). Məsələn, Nizami, Füzuli, M.Ə.Sabir, A.Səhhət, M.Seyidzadə və T.Elçin kimi yazıçılar haqqında məlumatlar şəkillərlə birgə təqdim edilə bilər ki, uşaqlar həm vizual, həm də məlumat baxımından öyrənsinlər. Kiçik və orta qruplarda uşaqlar tərbiyəçinin oxuduğu hekayələr, şeirlər, lətifələr və nağıllar ətrafında *sual-cavab şəklində* məzmunu danışmağa

başlayır. Böyük qruplarda isə uşaqlar artıq *oxunmuş kitablar üzrə müsahibəyə* qoşula bilirlər. Müsahibənin effektiv keçirilməsi üçün tərbiyəçi aşağıdakı prinsipləri tətbiq etməlidir:

1. *Fərdi yanaşma* – məşğələ zamanı hər bir uşağın fikrinə hörmətlə yanaşmaq, onların mühakimələrini dəyərləndirmək motivasiya yaradır.
2. *Fəallığın tədrici artırılması* – utancaq və geri çəkilən uşaqları tədricən müsahibəyə qoşmaq, əvvəllər yalnız baş hərəkətləri ilə cavab verən uşaqları bir-iki sözlə fikirlərini ifadə etməyə təşviq etmək.
3. *Maraq və həyat nümunələrinə uyğunluq* – sualları uşaqların gündəlik təcrübəsi ilə əlaqələndirmək, onların diqqətini və marağını artırır.
4. *Emosional zənginlik* – tərbiyəçi sözləri elə seçməlidir ki, uşaqlarda emosional düşüncə oyansın. V.A.Suxomlinski qeyd edir: "Sözə və onun çalarlarına həssaslıq tərbiyə etmək şəxsiyyətin ahəngdar inkişafının şərtlərindən biridir".
5. *Problemli situasiyalar yaratmaq* – uşaqları kiçik "problemli vəziyyətlər"ə qoyaraq onların əxlaqi və yaradıcı düşüncəsini formalaşdırmaq.
6. *Vizual dəstək* – uşaqların əyani-obrazlı təfəkkürünü nəzərə alaraq, müsahibə zamanı şəkillər və tematik materiallardan istifadə etmək tövsiyə olunur.

Beləliklə, uşaqlarda *kitaba sevgi və hörmət* kiçik yaşlardan təşviq edilməli, müstəqil baxış və düzgün vərdişlər formalaşdırılmalıdır (Cəfərova, Əhmədova & Rəhimova, 2011; Cəfərov, 2006). Kitab guşəsi və müsahibə məşğələləri vasitəsilə uşaqlar həm oxumağa maraq göstərir, həm də nitq, düşüncə və emosional inkişaf sahəsində önəmli bacarıqlar əldə edirlər. Bu yanaşma uşaqları gələcək savadlı, mədəni və yaradıcı fərdlər kimi formalaşdırmağa xidmət edir.

## Nəticə

Məktəbəqədər dövrdə kitab guşəsinin əhəmiyyətini aşağıdakı kimi qeyd etmək olar:

➢ *Uşaqların oxu mədəniyyətinin inkişafı:* Kitab guşəsi uşaqlara oxumağı öyrətməklə yanaşı, onların oxu mədəniyyətini də formalaşdırır. Uşaqlar burada kitablardan düzgün istifadə etməyi, səhifələri çevirməyi, şəkillərə diqqət yetirməyi və məlumatı qavramağı öyrənirlər. Bu vərdişlər onların məktəbə hazırlığı üçün əvəzsizdir.

➢ *Nitq və leksik inkişaf:* Kitab guşəsində uşaqlar müxtəlif mövzularda hekayələr, nağıllar və şeirlər oxuyur və danışırlar. Bu proses onların söz ehtiyatını artırır, qrammatik quruluşunu möhkəmləndirir, danışıq nitqini zənginləşdirir. Müəllim və ya tərbiyəçi ilə aparılan dialoq, hekayə müzakirəsi uşaqların fikir yürütmə və izah etmə qabiliyyətini gücləndirir.

➢ *Təxəyyül və fantaziya inkişafı:* Nağıl və hekayələr vasitəsilə uşaqlar obrazlı düşünməyi, hadisələr arasında əlaqə qurmağı və ətraf mühitlə təsəvvürlər yaratmağı öyrənirlər. Bu, onların təxəyyül və yaradıcılıq bacarıqlarının inkişafına töhfə verir. Kitab guşəsi uşaqlara sərbəst oxuma və təsəvvür etmə mühiti yaradır.

➢ *Əqli və sosial inkişaf:* Kitab güşəsi uşaqların diqqətini, yaddaşını, müqayisə etmə və ümumiləşdirmə bacarıqlarını inkişaf etdirir. Həmçinin, uşaqlar burada bir-biri ilə əməkdaşlıq edir, oxuduqlarını paylaşır və sosial bacarıqlarını təkmilləşdirirlər. Müxtəlif yaş qruplarındakı uşaqların bir araya gəldiyi kitab guşəsi sosial davranışın öyrənilməsi üçün əlverişli mühitdir.

➢ *Marağın formalaşdırılması və müstəqil fəaliyyət:* Uşaqlar kitab guşəsində sərbəst fəaliyyət göstərərək maraq dairələrini genişləndirir. Onlar kitab seçməyi, şəkilləri araşdırmağı, qısa hekayələr qurmağı öyrənir. Bu, onların müstəqil öyrənmə bacarıqlarını inkişaf etdirir və gələcək təhsil uğurları üçün əsas yaradır.

Bu dövrdə kitab guşəsinin təşkilinə verilən tələblər uşaqların inkişaf xüsusiyyətləri nəzərə alınaraq müəyyən standartlara uyğun təşkil edilməlidir. Aşağıdakı prinsiplər nəzərə alınmalıdır:

1. *Məkan və yerləşdirmə:*

- Kitab guşəsi uşaqlar üçün əlçatan olmalı, onlara yaxın məsafədə yerləşdirilməlidir;
- Geniş və işıqlı yer seçilməli, uşaqlar üçün rahat oturub oxuya biləcək şərait yaradılmalıdır;
- Kitab rəfləri uşaqların boyuna uyğun olmalı, hər hansı əlavə vasitələr olmadan kitablara çatmaq mümkün olmalıdır.

2. *Kitabların seçimi və müxtəlifliyi:*

- Kitab guşəsində müxtəlif janr və mövzularda materiallar təqdim edilməlidir: hekayə, nağıl, şeir, bilik kitabları, təbiət və heyvanlar haqqında kitablar;
- Kitablar uşaqların yaş səviyyəsinə uyğun olmalı, rəngli şəkillərlə zənginləşdirilmiş olmalıdır;
- Uşaqların maraq dairəsinə uyğun kitabların yerləşdirilməsi onların oxumağa marağını artırır.

3. *Vizual və funksional tərtibat:*

- Rəngarəng dekorasiya və vizual işarələr uşaqların diqqətini cəlb etməlidir;
- Kitab guşəsi oxumağı əyləncəli və maraqlı göstərən elementlərlə zənginləşdirilməlidir: divar şəkilləri, tematik lövhələr, oyuncaqlar və kuklalar vasitəsilə hekayə canlandırmaları;
- Məkanın təhlükəsizliyi, təmizliyi və əlçatanlığı təmin olunmalıdır.

Məktəbəqədər təhsil müəssisələrində kitab guşəsi uşaqların nitq, təfəkkür, yaddaş və təxəyyül inkişafı üçün vacib vasitədir. Onun düzgün təşkili və tərtibatı uşaqların oxu mədəniyyətini, marağını və müstəqil fəaliyyət bacarıqlarını artırır. Kitab guşəsi uşaqların gələcək savadlılıq səviyyəsinə, sosial bacarıqlarına və yaradıcı düşüncəsinə təsir göstərən əsas elementlərdən biridir. Bu səbəbdən məktəbəqədər təhsil müəssisələrində kitab guşəsinin yaradılması və davamlı şəkildə təkmilləşdirilməsi pedaqoji prosesin əhəmiyyətli tərkib hissəsi hesab olunur.

## Ədəbiyyat

1. Cəfərova, L., Əhmədova, A. & Rəhimova, S. (2011). *Müasir uşaq bağçalarında təlimin təşkili.* Elm və Təhsil.
2. Cəfərova, L. (2006). *Uşaqların ictimai həyat hadisələri ilə tanış edilməsi üzrə işin sisitemi.* Elm.
3. Əliyeva, Ş.Q. (2010). *Məktəbəqədər təhsilin aktual problemləri.* ADPU.
4. Əliyeva, Ş.Q. (2010). *Məktəbəqədər pedaqogika.* Dərs vəsaiti. ADPU.
5. Əliyeva, S.Q. (2023). *Məktəbəqədər yaşlı uşaqların əqli tərbiyəsi və idraki inkişafı*. ADPU.
6. Həsənov, A.M. (2000). *Məktəbəqədər pedaqogika*. Nasir.
7. Həsənov, A.M. (2011). *Pedaqogika*. Nasir.
8. İlyasov, M.İ. (2013). *Müəllimin pedaqoji ustalığı.* ADPU.
9. Kərimov, Y.Ş. (2002). *Uşaq məktəbə gedir.* Maarif.
10. Kərimov, Y.Ş. (1997). *Məktəbəqədər yaşlı uşaqların nitq inkişafının metodikası.* Maarif.
11. Məmmədova, A.M. (2007). *Uşaq bağçasında beşyaşlıların məktəbə hazırlanması.* ADPU.
12. Rüstəmov, N. & Mursaqulova, R. (2012). *Məktəbəqədər pedaqogika.* Elm və Təhsil.

Daxil oldu: 02.08.2025
Qəbul edildi: 11.11.2025

DOI: https://doi.org/10.36719/2789-6919/52/30-36

**Məmməd Əliyev**
Naxçıvan Dövlət Universiteti
tarix üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0004-4738-1258
eliyevmemmed78@gmail.com
**Zenfira Seyidova**
Naxçıvan Dövlət Universiteti
https://orcid.org/0009-0005-0135-5035
turalmemmedov521@gmail.com
**Sevda Səfərova**
Naxçıvan Dövlət Universiteti
https://orcid.org/0009-0007-6141-9656
sevdaocagguliyeva@gmail.com

# Muzeylərin sosial funksiyası və ziyarətçi cəlbetmə strategiyaları

## Xülasə

Məqalədə muzeylərin müasir cəmiyyətdə sosial institut kimi rolu və ziyarətçi cəlbetmə strategiyaları təhlil olunur. Müəlliflər qeyd edirlər ki, muzeylər artıq yalnız eksponatların qorunduğu məkan deyil, həm də maarifləndirmə, mədəni irsin təbliği, sosial inteqrasiya və turizmin inkişafına xidmət edən ictimai platformalardır. Onların təhsil, elmi-tədqiqat, rekreasiya və iqtisadi funksiyaları geniş sosial təsir yaradır. Ziyarətçi cəlbetmə istiqamətində isə rəqəmsal marketinq, sosial media, interaktiv ekspozisiyalar, tematik sərgilər, “Muzey gecəsi” kimi tədbirlər və brendinq strategiyalarının əhəmiyyəti vurğulanır. Müəlliflər Azərbaycanın Xalça Muzeyi nümunəsində uğurlu təcrübələri göstərərək, muzeylərin cəmiyyətlə dialoq, inklüzivlik və innovativ texnologiyalara əsaslanan fəaliyyətinin vacibliyini də qeyd edirlər. Nəticədə, muzeylərin sosial funksiyası ilə ziyarətçi cəlbetmə siyasəti qarşılıqlı əlaqədə olub, cəmiyyətin mədəni inkişafına və davamlı sosial tərəqqiyə töhfə verir.

***Açar sözlər:*** *muzey, sosial funksiya, ziyarətçi, inklüzivlik, maarifləndirmə, rəqəmsal strategiya*

**Mammad Aliyev**
Nakhchivan State University
PhD in History
https://orcid.org/0009-0004-4738-1258
eliyevmemmed78@gmail.com
**Zenfira Seyidova**
Nakhchivan State University
https://orcid.org/0009-0005-0135-5035
turalmemmedov521@gmail.com
**Sevda Safarova**
Nakhchivan State University
https://orcid.org/0009-0007-6141-9656
sevdaocagguliyeva@gmail.com

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

# The Social Function of Museums and Visitor Attraction Strategies

## Abstract

The article analyzes the role of museums as social institutions in modern society and their visitor attraction strategies. The authors note that museums are no longer merely places where exhibits are preserved, but also public platforms that serve education, the promotion of cultural heritage, social integration, and tourism development. Their educational, research, recreational, and economic functions create a broad social impact. In terms of visitor attraction, the importance of digital marketing, social media, interactive exhibitions, thematic displays, events such as "Museum Night," and branding strategies is emphasized. The authors also highlight the successful experience of the Azerbaijan Carpet Museum, underlining the significance of museum activities based on social dialogue, inclusivity, and innovative technologies. Consequently, the social function of museums and visitor attraction policy are interrelated, contributing to cultural development and sustainable social progress.

***Keywords:*** *museum, social function, visitor, inclusivity, education, digital strategy*

## Giriş

Muzeylər tarixi və mədəni irsin qorunması ilə yanaşı, cəmiyyətin inkişafına xidmət edən sosial institutlardır. Ənənəvi olaraq muzeylər maddi və mədəni sərvətləri toplamaq, mühafizə etmək, tədqiq etmək və nümayiş etdirməklə məşğul olmuşdur. Lakin müasir dövrdə muzeylərin rolu bu ənənəvi çərçivəni aşaraq daha geniş sosial funksiyaları əhatə edir. Beynəlxalq Muzeylər Şurasının tərifinə əsasən, muzey *"cəmiyyətin fəaliyyətinə və onun inkişafına xidmət edən qeyri-kommersiya müəssisəsidir"* və geniş auditoriya üçün açıq olub təhsil, tədqiqat, mənəvi tələbatların ödənilməsi kimi məqsədlərə xidmət edir (Babayeva, 2024, s. 45). Bu tərif muzeylərin təkcə eksponat sərgiləyən məkan deyil, ictimaiyyəti maarifləndirən, ünsiyyət quran və sosial inkişafa töhfə verən qurum olduğunu vurğulayır (International Council of Museums, 2017).

Son onilliklərdə "yeni muzeyşünaslıq" anlayışı muzeylərin sosial məsuliyyətini ön plana çıxarmışdır. Muzeylər ictimai yaddaş institutları kimi cəmiyyətin tarixi, mədəni və təbii inkişafını əks etdirən bilik və dəyərləri gələcək nəsillərə ötürməyi hədəfləyir (Babayeva, 2024, s. 45). İnkişaf etmiş ölkələrin təcrübəsində muzeylər məktəblərlə əməkdaşlıq edərək tədris proqramlarını dəstəkləyən təlim mərkəzləri kimi fəaliyyət göstərir; məsələn, Qərb ölkələrində məktəblilər üçün muzey səfərləri dərslərin davamı kimi planlı şəkildə təşkil olunur və muzeylər müxtəlif yaş qrupları üçün xüsusi təhsil proqramları həyata keçirir (Mercin, 2015, s. 157). Bu cür nümunələr göstərir ki, müasir muzey cəmiyyətin hər təbəqəsi üçün açıq, inklüziv və cəmiyyətlə qarşılıqlı əlaqədə olan bir quruma çevrilməkdədir. 2022-ci ildə qəbul edilmiş yeni muzey tərifi də məhz bunu əks etdirir: muzeylər *"ictimaiyyətə açıq, əlçatan və inklüzivdir, müxtəlifliyi və dayanıqlılığı təşviq edir, ictimaiyyətin iştirakını təmin etməklə təhsil, zövq alma, düşüncə və bilik mübadiləsi üçün müxtəlif təcrübələr təklif edir"* (International Council of Museums, 2017, pp. 182-186). Beləliklə, qlobal miqyasda muzeylərə münasibətdə yeni yanaşma formalaşır: muzey yalnız eksponat saxlayan yer deyil, eyni zamanda sosial inkişafın fəal iştirakçısıdır.

Bu məqalədə muzeylərin sosial funksiyaları və ziyarətçi cəlbetmə strategiyaları geniş şəkildə təhlil ediləcək. İlk növbədə, muzeylərin cəmiyyətə fayda verən funksiyalarına nəzər salınacaq, ardından isə həm Azərbaycanda, həm də xaricdə muzeylərin auditoriyanı cəlb etmək üçün tətbiq etdiyi strategiyalar araşdırılacaq. Ümumi yanaşma əsasında aparılan təhlil göstərir ki, muzeylər öz missiyalarını yerinə yetirmək üçün ictimaiyyətlə daha fəal işləməli və ziyarətçilərlə davamlı ünsiyyət qurmalıdır. Bununla da, muzeylər cəmiyyətin müxtəlif təbəqələrini mədəni irs ətrafında bir araya gətirib maarifləndirici, əyləncəli və cəlbedici təcrübələr təqdim edə bilər.

**Tədqiqat**

*Muzeylərin sosial funksiyası*. Muzeylərin sosial funksiyası dedikdə, onların cəmiyyətdə oynadığı çoxşaxəli rollar nəzərdə tutulur. Birinci mühüm funksiyası mədəni irsin qorunması və təbliğidir.

Muzeylər keçmiş nəsillərin yaratdığı maddi və qeyri-maddi mədəni irsi toplamaq və mühafizə etməklə, tarix və mədəniyyət haqqında bilikləri gələcəyə daşıyırlar. Bu mənada muzeylər *"sosial yaddaş institutu"* kimi çıxış edir, yəni cəmiyyətin kollektiv yaddaşını formalaşdırır və saxlayır. Məsələn, Azərbaycan muzeylərində tarixi əşyalar, incəsənət nümunələri və arxeoloji tapıntılar qorunub saxlanılaraq ictimaiyyətə təqdim edilir. Hal-hazırda ölkəmizdə müxtəlif profilli 250-dən çox muzey fəaliyyət göstərir və bu muzeylər həm yerli, həm də xarici auditoriyaya xidmət edən əsas mədəniyyət mərkəzlərinə çevrilməkdədir. Bu, muzeylərin milli kimliyin və mədəni dəyərlərin qorunmasında oynadığı rolu göstərir.

İkinci əsas sosial funksiyası təhsil və maarifləndirmədir. Muzeylər geniş ictimaiyyət üçün öyrədici məkandır. Onlar eksponatlar vasitəsilə tarixi, elmi və bədii bilikləri kütləyə çatdırır, toplumun mədəni səviyyəsinin yüksəlməsinə xidmət edirlər. Müasir muzeylər təkcə sərgi salonları ilə yox, həm də tədris proqramları, seminarlar, mühazirələr və interaktiv fəaliyyətlər vasitəsilə müxtəlif yaş qrupları üçün öyrənmə imkanları yaradır. Məsələn, bir çox muzeylərdə uşaqlar üçün xüsusi təhsil guşələri, ustad dərsləri və oyunlar təşkil olunur ki, bu da erkən yaşdan mədəni irsə maraq oyadır. İnkişaf etmiş ölkələrdə muzeylərin məktəblərlə inteqrasiyası nəticəsində şagirdlər muzey ziyarətlərini dərslərin praktiki davamı kimi qəbul edirlər (Mercin, 2015, s. 157). Bu praktikalar muzeylərin formal təhsilə dəstək verən vacib ictimai təhsil institutları olduğunu təsdiqləyir.

Bundan əlavə, muzeylərin elmi-tədqiqat funksiyası da sosial əhəmiyyət daşıyır. Muzeylər kolleksiyalarını yalnız nümayiş etdirmir, eyni zamanda, onlarla bağlı elmi araşdırmalar aparırlar. Tarix, etnoqrafiya, incəsənət tarixi, təbiət tarixi və s. sahələrdə muzeylərdə aparılan tədqiqatlar yeni biliklərin əldə olunmasına və elmin inkişafına töhfə verir. Məsələn, muzey fondlarında saxlanılan eksponatların ekspertizası, konservasiyası və kataloqlaşdırılması üzrə elmi işlər aparılır ki, nəticədə həm həmin obyektlərin daha yaxşı qorunması təmin olunur, həm də onlar haqqında elmi məlumat bazası zənginləşir. Beləliklə, muzeylər yalnız mövcud bilikləri təqdim etmir, həm də yeni biliklərin yaradılmasında rol oynayır (Bautista, 2013).

Muzeylərin əyləncə və rekreasiya funksiyası da son dövrlərdə vurğulanmağa başlamışdır. İnsanlar muzeylərə təkcə məlumat almaq üçün deyil, həm də mədəni istirahət etmək, estetik zövq almaq üçün üz tuturlar. Müasir muzeylər ziyarətçilərə xoş vaxt keçirtmək üçün rahat və cəlbedici mühit yaradır, interaktiv və immersiv sərgilər təşkil edir. V.E. Qordinin qeyd etdiyi kimi, muzeylər öz tarixi-mədəni potensialları sayəsində ziyarətçiyə həm *"emosional təsir"* bəxş edir, həm *"əyləncə-istirahət effekti"* yaradır, həm də müxtəlif festivallar, yarmarkalar, tamaşalar vasitəsilə kütləvi cəlbedici tədbirlər keçirir. Məsələn, bir çox ölkələrdə hər il keçirilən "Muzey Gecəsi" festivalları muzeyləri dinamik, canlı mədəniyyət məkanlarına çevirir və geniş kütlələri özünə cəlb edir. Muzeylərin sosial funksiyaları arasında cəmiyyətin müxtəlif təbəqələrini bir araya gətirmək və sosial inteqrasiya da xüsusi yer tutur. Müasir dövrdə muzeylər inklüzivlik prinsipinə əsaslanaraq, müxtəlif yaş qruplarından, etnik və sosial mənşədən olan insanlara açıq olmağa çalışırlar. Muzey ekspozisiyalarında əvvəllər diqqətdən kənarda qalmış mövzulara yer verilir, azlıq qruplarının tarixi və mədəniyyəti işıqlandırılır. Bu, cəmiyyətdə mədəni müxtəlifliyə hörmət aşılamaqla yanaşı, müxtəlif icmalar arasında dialoqu təşviq edir. Məsələn, bəzi Avropa ölkələrində muzeylər immiqrant icmaların irsinə dair xüsusi sərgilər hazırlayaraq həmin icmaları muzeyə cəlb etməyə nail olmuşlar. Muzeylər bu yolla ictimai həmrəyliyə töhfə verir, mədəniyyətlərarası anlaşmanı gücləndirirlər (Simon, 2010).

Nəhayət, muzeylərin iqtisadi və turistik funksiyası da dolayısı ilə sosial əhəmiyyət daşıyır. Muzeylər mədəni turizmin əsas obyektlərindən biri kimi regionların sosial-iqtisadi inkişafına təsir göstərə bilir. Turistləri cəlb edən məşhur muzeylər yerləşdiyi şəhərin iqtisadi aktivliyini artırır, yerli icma üçün gəlir və məşğulluq imkanları yaradır. Azərbaycanda da son illərdə muzeylər turizm sektorunun vacib tərkib hissəsinə çevrilməkdədir. Ölkəmizin Milli İncəsənət Muzeyi, Tarix Muzeyi, Xalça Muzeyi kimi aparıcı muzeyləri təkcə mədəniyyətin təbliği yox, həm də turist axını baxımından əhəmiyyətli məkanlardır. Məsələn, Azərbaycan Xalça Muzeyi 2018-ci ildə 100 minə yaxın ziyarətçi qəbul etmiş və Avropanın ən yaxşı muzeyi nominasiyasında innovativ ictimaiyyətlə işinə görə mükafata layiq görülmüşdür (Azərbaycan Dövlət İnformasiya Agentliyi, 2018). Bu fakt göstərir ki, muzeylərin hazırkı başlıca məqsədi ictimaiyyətlə fəal iş aparmaqdır və müxtəlif təbəqələri muzey

fəaliyyətinə cəlb etməklə həm mədəni, həm də iqtisadi fayda əldə olunur. Beləliklə, muzeylərin sosial funksiyaları kompleks xarakter daşıyır – maarifləndirmə, mədəni irsin qorunması, elmi tədqiqat, estetik zövq vermə, sosial inteqrasiya və iqtisadi inkişafa dəstək kimi çoxsaylı vəzifələri özündə birləşdirir. Uğurla inkişaf edən muzeylər bu funksiyaları balanslı şəkildə icra etməklə cəmiyyətin spesifik tələbatlarını təmin edirlər. Sosioloji yanaşmaya görə, muzey *"ictimai funksiyaları yerinə yetirən sosial institut, cəmiyyətin və şəxsiyyətin spesifik tələbatlarının təmin edilməsi mexanizmidir"*. Bu o deməkdir ki, muzeylər kolleksiyaları nümayiş etdirməklə kifayətlənməyib, geniş mənada cəmiyyət üçün faydalı olmalıdırlar. Bu funksiyaların effektiv həyata keçirilməsi isə birbaşa muzeylərin ziyarətçilərlə qurduğu münasibətdən asılıdır. Növbəti bölmədə muzeylərin məhz bu məqsədlə – daha çox ziyarətçi cəlb edərək öz sosial missiyalarını gerçəkləşdirmək üçün – tətbiq etdiyi strategiyalara nəzər salınır.

*Ziyarətçi cəlbetmə strategiyaları.* Muzeylərin sosial funksiyalarını reallaşdırması, böyük ölçüdə, ziyarətçilərin aktiv iştirakı ilə mümkündür. Boş qalan və ya cəmiyyətin diqqətindən kənarda qalan muzey, öz missiyasını tam yerinə yetirə bilməz. Müasir dövrdə muzeylər zəngin kolleksiyalara malik olmaqla yanaşı, həmin kolleksiyaları auditoriyaya effektiv çatdırmağın yollarını tapmalıdırlar. Bu səbəbdən, son illərdə muzey sahəsində "ziyarətçi gözləyən deyil, ziyarətçi cəlb edən müəssisə" konsepsiyası ön plana çıxmışdır (Mercin, 2015, s. 239-240). Yəni muzeylər passiv şəkildə ziyarətçi axınını gözləməkdənsə, fəal marketinq və menecment yanaşmaları ilə auditoriyanı özünə cəlb etməlidirlər.

Ziyarətçi cəlbetmə strategiyalarının əsasında muzeylərin auditoriya ilə kommunikasiya qurması dayanır. Uğurlu muzeylər ənənəvi təkistiqamətli ünsiyyətdən (yəni yalnız məlumat ötürən sərgilərdən) imtina edərək, ikiistiqamətli, interaktiv kommunikasiya modelinə keçirlər (Kotler, 2008, pp. 1919-1924). Bu o deməkdir ki, muzey ziyarətçini sadəcə məlumat alıcısı kimi görmür, onu dialoqun bir tərəfi hesab edir. Məsələn, muzey ekspozisiyasında ziyarətçilərə rəy bildirmək, sual vermək imkanı yaradılır, bələdçi turları müzakirə xarakterli təşkil olunur. N.Kotlerin muzey marketinqi haqqında fikirinə görə, muzeyin kommunikasiya strategiyasının düzgün idarə olunması onun uzunmüddətli uğurunun əsas şərtidir – yəni muzey öz nüfuzunu artırmaq və auditoriya ilə daimi əlaqəni qorumaq üçün bütün daxili və xarici kommunikasiyalarını vahid strategiya üzrə həyata keçirməlidir. Bu strategiya çərçivəsində muzeylər müxtəlif hədəf qrupları – məktəblilər, tələbələr, turistlər, ailələr, tədqiqatçılar və s. – üçün fərqli yanaşmalar işləyib hazırlayırlar. Hər auditoriya seqmentinin maraq və ehtiyaclarını araşdırmaq, onlara uyğun proqramlar təklif etmək ziyarətçi cəlb etməyin vacib üsuludur.

Muzeylərin istifadə etdiyi əsas ziyarətçi cəlbetmə strategiyalarından biri effektiv marketinq və PR fəaliyyətidir. Ənənəvi reklam metodları (afişalar, broşürlər və s.) ilə yanaşı, rəqəmsal marketinq alətləri xüsusi önəm qazanmışdır. Son on ildə sosial media platformaları muzeylər üçün geniş auditoriyaya çıxış imkanı yaratmışdır. Avropa muzeyləri üzərində aparılmış tədqiqatlar göstərir ki, Facebook kimi sosial şəbəkələr muzeylərin görünürlüyünü və əlçatanlığını artıraraq ziyarətçi sayının artmasında mühüm rol oynayır (Kotler, 2008, pp. 8-15). Məsələn, bir çox muzeylər Facebook, Instagram və Twitter üzərindən kolleksiyalarından yüksək keyfiyyətli fotolar, sərgi anonsları, "pərdəarxası" görüntülər paylaşaraq ictimai maraq oyadırlar. Nəticədə, rəqəmsal auditoriya muzeyə gəlməyə təşviq olunur. Xüsusilə gənc nəsil sosial media vasitəsilə muzey xəbərlərini izləyir və beləliklə, muzey brendi onlarda yaxınlıq hissi yaradır. Məşhur nümunələrdən biri Niderlanddakı Reyksmuzeyin 2023-cü il Vermeer sərgisinin sosial şəbəkələrdə geniş kampaniya nəticəsində qısa müddətdə tam sold-out olmasıdır; həmçinin, İtaliyadakı Uffizi Qalereyası Instagram-da klassik rəsmlərə müasir zarafatlı şərhlər yazmaqla gənc izləyicilərin diqqətini cəlb etmişdir (Hickley, 2017, pp. 69-72). Bu kimi kreativ rəqəmsal kampaniyalar az büdcə ilə böyük kütləvi təsir yarada bilir. Lakin eyni zamanda, sosial media kontentinin davamlı şəkildə maraqlı və peşəkar şəkildə idarə olunmasını tələb etdiyini də qeyd etmək lazımdır – resursları məhdud olan kiçik muzeylər üçün bu, çətinlik törədə bilər (Hickley, 2017).

Xüsusi tədbir və layihələrin təşkili ziyarətçi çəkməyin başqa bir səmərəli üsuludur. Dünyanın bir çox yerlərində muzeylər kütlənin diqqətini cəlb etmək üçün fərqli konseptli tədbirlər keçirirlər.

Məsələn, *"Muzey gecələri"* festivalı çərçivəsində muzeylər adi çalışma saatlarından kənar, gecə vaxtı açıq olur, canlı musiqi, performanslar, seminarlar təşkil edilir. Bu tədbirlər muzeyləri bir növ sosial məkana çevirir, xüsusən gənclər və ailələr üçün muzeyə gəlmək cəlbedici bir əyləncə alternativi kimi təqdim olunur (Kotler, Kotler, & Kotler, 2008). Həmçinin, muzeylərdə müvəqqəti tematik sərgilər, məşhur sənətkarların retrospektivləri, uşaqlar üçün kvest oyunları, ailə günləri, incəsənət yarmarkaları kimi layihələr keçirilir. Belə müxtəlif tədbir və sərgilər mediada geniş işıqlandırılır, sosial şəbəkələrdə paylaşılır və nəticədə yeni ziyarətçi kütlələri muzeyə cəlb edir. Məsələn, Londonun V&A Muzeyi son illərdə moda, pop musiqi ikonları, video oyun dizaynı kimi müasir mövzulu sərgilər təşkil etməklə gənc və fərqli auditoriyaları muzeyə çəkə bilmişdir (Hickley, 2017). Bu tip aktual mövzulara toxunan proqramlar muzeyin "dəbdən geri qalmayan" imicini formalaşdırır və "zamanla ayaqlaşan cəlbedici proqram" imicini gücləndirir.

Ziyarətçi cəlb etmək üçün muzey ekspozisiyalarının modernləşdirilməsi və interaktivliyin artırılması da mühüm strateji istiqamətdir. Əgər ziyarətçi muzeydə maraqlı və yaddaqalan təcrübə əldə edərsə, o həm özü yenidən gəlmək istəyəcək, həm də başqalarını təşviq edəcəkdir. Buna görə muzeylər son dövrdə statik vitrinlərdən daha çox interaktiv ekranlar, multimedia təqdimatlar, səs və işıq effektləri, toxunma mümkün olan reproduksiyalar və digər yenilikçi təqdimat texnikalarından istifadə edirlər. Texnologiyanın tətbiqi nəticəsində ziyarətçi eksponatla *"qarşılıqlı əlaqə"* qura bilir ki, bu da öyrənmə prosesini əyləncəli hala gətirir. Məsələn, bəzi muzeylərdə rəqəmsal "ağıllı bələdçilər" ziyarətçinin dilinə və maraq dairəsinə uyğun məlumat təqdim edir, yaxud artırılmış reallıq vasitəsilə eksponatın orijinal mühitini virtual olaraq canlandırır. Bu kimi yeniliklər xüsusən gənc nəsil üçün muzey ziyarətini daha cəzbedici edir və *"köhnə, darıxdırıcı muzey"* stereotipini aradan qaldırır. Lakin burada balans da vacibdir – tənqidçilər bəzi hallarda muzeylərin həddən artıq "əyləndirici" olmağa çalışaraq əsas elmi-mədəni missiyasını kölgədə qoya biləcəyini qeyd edirlər (buna "muzeylərin Disneyləşməsi" deyilir). Uğurlu strategiya texnologiya və interaktivliyi maarifləndirici məzmunu dəstəkləyən vasitə kimi istifadə etmək, muzeyin əsas məramını ikinci plana atmamaqdır (Al Khalifa, 2025, p. 150).

Muzeylərin auditoriyanı artırmaq yönündə digər bir taktikası ictimaiyyətlə əlaqələr və imic quruculuğudur. Muzey brendinin cəlbedici imici olmalıdır ki, insanlar oraya getməyi dəyərli bir təcrübə hesab etsinlər. Bu məqsədlə bir çox muzeylər müasir brendinq elementləri tətbiq edir, loqo, suvenir, muzey mağazası və kafe kimi əlavə xidmətlərlə ziyarətçi təcrübəsini zənginləşdirirlər. Məsələn, muzeydə görülən maraqlı bir installyasiya və ya interyer dizaynı ziyarətçilərin foto çəkib sosial şəbəkələrdə paylaşdığı *"instagram-lıq"* məqamlara çevrilir ki, bu da pulsuz reklam effekti yaradır (Hickley, 2017). Muzeylər şəhər turizm marşrutlarına inteqrasiya olunmağa da çalışır – digər turizm obyektləri və turizm təşkilatları ilə əməkdaşlıq edərək, şəhər müzekartları, kombinə edilmiş bilet paketləri kimi təşəbbüslərdə iştirak edirlər. Məsələn, Paris, London, Madrid kimi şəhərlərdə muzeylər "city pass" kartlarına daxildir, bu yolla xarici turistlər üçün muzey ziyarəti ümumi marşrutun bir parçasına çevrilir. Bu cür əməkdaşlıq və promo-aksiyalar muzeylərin geniş kütləyə tanıdılmasında əhəmiyyətlidir.

Muzey rəhbərliyi auditoriya tədqiqatları və rəy toplanması strategiyalarına da önəm verir. Ziyarətçilərin sayını artırmaq üçün əvvəlcə mövcud və potensial ziyarətçilərin ehtiyac və gözləntilərini öyrənmək lazımdır. Bir çox muzeylər çıxışda ziyarətçi anketləri, rəylər kitabı, onlayn sorğular vasitəsilə ziyarətçi məmnuniyyətini ölçür, təklif və tənqidləri analiz edirlər. Bu məlumatlar əsasında xidmət keyfiyyəti yüksəldilir, ekspozisiyada dəyişikliklər edilir, yeni sərgi mövzuları seçilir. Məsələn, ziyarətçilərin müəyyən mövzuya xüsusi maraq göstərdiyi aşkar olunarsa, muzey həmin mövzuda tematik sərgi planlaya bilər. Eyni zamanda, əlillər üçün fiziki əlçatanlıq, müxtəlif dillərdə məlumat təminatı, uşaq arabaları üçün şərait, yaşlılar üçün oturacaq yerləri kimi amillər də ziyarətçi dostu mühitini yaratmaq üçün nəzərə alınır. Bu tip auditoriya yönümlü menecment muzeyə daha çox və müxtəlif insan cəlb etməyə imkan yaradır.

Azərbaycanda da muzeylər ziyarətçi cəlb etmək sahəsində bir sıra addımlar atırlar. Məsələn, Azərbaycan Xalça Muzeyinin direktoru Şirin Məlikova muzeyin ictimaiyyətlə iş istiqamətini genişləndirdiklərini vurğulayır: muzeydə mütəmadi "Art-şənbə" uşaq proqramları, ustad dərsləri,

kolleksiyalara həsr olunmuş mühazirələr keçirilir, könüllülər proqramı vasitəsilə gənclər muzey fəaliyyətinə cəlb olunur (Azərbaycan Dövlət İnformasiya Agentliyi, 2018). Muzey bunun nəticəsində yerli icmanı muzeyə yalnız ziyarətçi kimi deyil, fəal iştirakçı kimi cəlb etməyi hədəfləyir. Bu kimi təşəbbüslər göstərir ki, ölkəmizdə də muzeylər sosial funksiyalarını gücləndirmək üçün auditoriya ilə yeni ünsiyyət formalarından yararlanmağa başlamışlar. Bundan başqa, son illərdə Azərbaycanda muzey eksponatlarının rəqəmsal kataloqunun yaradılması, virtual sərgilərin təşkili, xarici muzeylərlə birgə sərgi mübadilələri kimi addımlar atılır ki, bunlar da həm yerli, həm xarici ziyarətçilərin marağını artırmağa xidmət edir.

Ümumilikdə, muzeylərin ziyarətçi cəlbetmə strategiyaları müasir marketinq, kommunikasiya və menecment alətlərinin muzey sahəsinə tətbiqindən ibarətdir. Uğurlu nümunələr göstərir ki, muzey öz auditoriyasını nə qədər yaxşı tanıyıb onunla interaktiv əlaqə qura bilirsə, ziyarətçi sayı da bir o qədər artar. Hermann Parzingerin qeyd etdiyi kimi, bugünkü rəqabətli mühitdə *"muzeylər çoxsaylı digər istirahət alternativləri ilə yarışır, ona görə də dövrün nəbzini tutan cəlbedici proqramlara malik olmaq son dərəcə vacibdir"* (Bautista, 2013, pp. 69-72). Yəni zamanın tələbinə uyğun yenilikçi yanaşmalar muzeylərin yaşayışı üçün həlledici əhəmiyyət daşıyır. Növbəti bölmədə əldə olunmuş nəticələr ümumiləşdirilir və muzeylərin sosial funksiyalarını gücləndirmək üçün tövsiyələr irəli sürülür.

## Nəticə

Aparılan araşdırma göstərir ki, müasir dünyada muzeylər yalnız eksponat saxlayan müəssisələr deyil, cəmiyyətin inkişaf prosesinin fəal iştirakçılarıdır. Muzeylərin sosial funksiyalarını – təhsil, maarifləndirmə, mədəni irsin qorunması, ictimai dialoq, sosial inteqrasiya və s. – uğurla həyata keçirməsi birbaşa auditoriya ilə qurulan əlaqədən asılıdır. Buna görə də muzeylər öz fəaliyyətlərində ziyarətçi yönümlü yanaşmanı prioritet etməlidirlər. Həm Azərbaycan, həm də xarici təcrübə göstərir ki, muzey nə qədər açıq, interaktiv və cəlbedici olarsa, onun cəmiyyətə təsiri bir o qədər güclü olar.

Muzeylərin sosial rolunu gücləndirmək üçün ilk növbədə dövlət səviyyəsində dəstək və strategiya vacibdir. Mədəniyyət siyasətində muzeylərin ictimai funksiyalarını inkişaf etdirməyə yönəlik proqramlar hazırlanmalı, muzeylər modern texnologiyalarla, ixtisaslı kadrlarla təmin edilməlidir. Xüsusilə region muzeylərinin cəlbediciliyini artırmaq üçün əlavə resurslar ayrılmalı, onların turizm marşrutlarına daxil edilməsi təşviq olunmalıdır. Belə ki, dünyanın aparıcı muzeylərinin illik milyonlarla ziyarətçi cəlb etməsi təsadüfi deyil – arxasında sistemli idarəetmə və marketinq dayanır. Yerli muzeylərimizin də bu səviyyəyə yaxınlaşması üçün maddi və təşkilati dəstək vacibdir.

İkinci olaraq, muzeylər auditoriya siyasətini gücləndirməlidirlər. Hər bir muzey özünə sual verməlidir: Mən kimlər üçün faydalıyam və necə daha çox insana fayda verə bilərəm? Bu sualın cavabına uyğun olaraq, muzeylər hədəf qrupları müəyyənləşdirməli (uşaqlar, gənclər, turistlər, alimlər, əlillər və s.) və hər biri üçün uyğun cəlbetmə mexanizmləri işləməlidir. Məsələn, uşaqlar üçün daha oyunlaşdırılmış, əyləncəli öyrənmə mühiti yaradılmalı, gənclər üçün müasir incəsənət və texnologiya mövzularında tədbirlər keçirilməli, yaşlı nəsil üçün nostalji sərgilər və rahat infrastruktur təmin edilməlidir. Eyni zamanda, cəmiyyətin həssas qrupları – fiziki məhdudiyyətli şəxslər, azlıq icmaları – üçün muzeylərdə xüsusi inklüziv layihələr icra olunmalıdır ki, heç bir təbəqə mədəni həyatdan kənarda qalmasın (Taheri, Jafari, & O'Gorman, 2014, p. 325).

Üçüncüsü, rəqəmsal transformasiya muzey strategiyasının əsas elementinə çevrilməlidir. COVID-19 pandemiyası dövrü göstərdi ki, onlayn platformalar muzeylərin auditoriya ilə əlaqəsini saxlamaq üçün əvəzedilməz vasitədir. Virtual turlar, onlayn sərgilər, rəqəmsal kolleksiya bazaları muzeyləri məkan məhdudiyyətindən azad edərək qlobal auditoriyaya çıxış imkanı verir. Buna görə tövsiyə olunur ki, muzeylər rəqəmsal kontentlərini artırmağa davam etsin, sosial mediada aktiv olsun və yeni texnologiyaların (məsələn, VR/AR tətbiqləri) verdiyi imkanlardan yararlansın. Lakin rəqəmsal fəaliyyəti fiziki ziyarəti əvəz etməməli, əksinə onu tamamlamağa xidmət etməlidir. Yəni virtual təcrübə insanlarda canlı muzeyə gəlməyə maraq yaratmalı, "evdən baxdım, artıq getməyə ehtiyac yoxdur" düşüncəsi yaratmamalıdır.

Dördüncüsü, muzeylər üçün kadr hazırlığı və menecment bacarıqları sahəsində investisiya tələb olunur. Bu gün muzey işçisi təkcə saxlanılan eksponatın mühafizəçisi deyil, eyni zamanda menecer, təbliğatçı, təhsilçi rolunda çıxış etməlidir. Muzeylərimizdə marketinq, ictimaiyyətlə əlaqələr, təhsil proqramları üzrə mütəxəssislərin sayını artırmaq tövsiyə edilir. İşçi heyətinin davamlı təlimi, xaricdəki qabaqcıl təcrübələrin öyrənilməsi vacibdir. Məsələn, bir muzey kuratoru necə maraqlı sərgi konsepti hazırlamağı, auditoriya ilə hekayə danışma üsullarını mənimsəməlidir; ekskursiya bələdçisi tək faktları sadalamaqla kifayətlənməyib ziyarətçilərlə interaktiv dialoq aparmağı bacarmalıdır. Yeni nəsil muzey menecerləri həm mədəni irsi sevməli, həm də müasir texnologiya və marketinq alətlərinə bələd olmalıdırlar (Babayeva, 2024, s. 46-47). Bu bacarıqların formalaşdırılması üçün muzey işçilərinin mütəmadi ixtisasartırma kurslarına cəlb edilməsi səmərəli olardı.

Nəticə etibarilə, muzeylərin sosial funksiyası və ziyarətçi cəlbetmə strategiyaları biri-birini tamamlayan anlayışlardır. Muzey cəmiyyət üçün nə qədər faydalı olarsa, cəmiyyət də muzeyə o qədər maraq göstərəcəkdir. Bu qarşılıqlı əlaqəni möhkəmləndirməyin yolu isə yenilikçi yanaşmanı ənənəvi dəyərlərlə uzlaşdırmaqdan keçir. Muzeylər həm maddi və mədəni irsimizin keşiyində durmalı, həm də cəmiyyətdə bugünkü ehtiyac və maraqlara cavab verməlidirlər. İnteraktiv, inklüziv, maarifləndirici və əyləncəli muzey mühiti yaradaraq, onlar gələcək nəsillərin də muzeyləri sevməsini təmin edəcək, beləliklə öz mövcudluqlarını davamlı surətdə təmin etmiş olacaqlar.

## Ədəbiyyat

1. Al Khalifa, H. E. (2025). Visitors' Interactions with the Exhibits in Museums: Analysis and Comparison. *Buildings*, 15(2), 145–158. https://doi.org/10.3390/buildings15020145
2. Babayeva, S. (2024). *Azərbaycanın milli muzeyləri və mədəni turizm potensialı.* Mütərcim.
3. Bautista, S.S. (2013). *Museums in the Digital Age: Changing Meanings of Place, Community, and Culture*. AltaMira Press.
4. Hickley, C. (2017.15.12). *German museums report 2.5 million drop in visitor numbers in 2016*. The Art Newspaper.
5. International Council of Museums (ICOM). (2022.24.08). *Museum Definition.* icom.museum
6. International Council of Museums (ICOM). (2017). The role of museums in a changing society. *Museum International*, 69(1–2), 1–12. https://doi.org/10.1111/muse.12147
7. Kotler, N., Kotler, P., & Kotler, W. (2008). *Museum Marketing and Strategy: Designing Missions, Building Audiences, Generating Revenue and Resources.* 2-ci nəşr, Jossey-Bass.
8. Kotler, N., Kotler, P., & Kotler, W. (2008). *Museum Marketing and Strategy: Designing Missions, Building Audiences, Generating Revenue and Resources* (2nd ed.). Jossey-Bass.
9. Məlikova, Ş. (2018.07.12). *Xalça Muzeyinin fondunda 10 mindən artıq eksponat qorunub saxlanılır*. AZƏRTAC.Azərbaycan Dövlət İnformasiya Agentliyi, onlayn müsahibə.
10. Mercin, L. (2015). *Müzeler ve Toplum.* Atatürk Kültür Mərkəzi.
11. Simon, N. (2010). *The Participatory Museum*. Museum 2.0. https://www.participatorymuseum.org/
12. Taheri, B., Jafari, A., & O'Gorman, K. (2014). Keeping your audience: Presenting a visitor engagement scale. *Tourism Management*, (42), 321–329. https://doi.org/10.1016/j.tourman.2013.12.011

Daxil oldu: 07.08.2025
Qəbul edildi: 09.11.2025

DOI: https://doi.org/10.36719/2789-6919/52/37-42

**Хадиджа Юсифова**
Бакинский Славянский университет
доктор философии по филологии
https://orcid.org/0009-0005-2676-5946
xadijayusifova@gmail.com

# Жанровые трансформации в современной русской прозе (на примере притчи В.Астафьева «Ельчик-бельчик»)

**Резюме**

В статье рассматривается проблема жанровой трансформации в русской прозе на рубеже XX–XXI веков. В процессе жанровых преобразований происходит возникновение новых модификаций. Процесс жанровых трансформаций связан с формированием новых художественных форм и структур. Подобные модификации выступают как развитие традиционных жанров, в основе которых сохраняются отдельные элементы прежней модели, однако происходят изменения за счёт переосмысления или утраты ключевых признаков. На материале притчи В.Астафьева «Ельчик-бельчик» прослеживается обновление жанровой природы произведения в литературе конца XX – начала XXI века. В исследовании анализируются различные приёмы – прямая ориентация на устную речь, диалог с характерологической речью персонажей, не собственно-прямая и внутренняя речь и т.д. Эти приемы являются субъективацией авторского повествования и в том числе делают более определенным образ автора-повествователя. Названные особенности притчи В.Астафьева ярко демонстрируют отход от традиционных жанровых норм и канонов.

***Ключевые слова:*** *жанры, трансформации, проза, образы, персонажи*

**Xədicə Yusifova**
Bakı Slavyan Universiteti
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0005-2676-5946
xadijayusifova@gmail.com

# Müasir rus nəsrində janr transformasiyaları (V.Astafyevin “Yelçik-belçik” məsəlinin nümunəsi əsasında)

**Xülasə**

Məqalədə XX-XXI əsrlərin qovşağında rus nəsrində janr transformasiyası problemi araşdırılır. Janr çevrilmələri prosesində yeni modifikasiyaların yaranması baş verir. Janr transformasiyası prosesi yeni bədii formaların və strukturların formalaşması ilə bağlıdır. Belə modifikasiyalar ənənəvi janrların inkişafı kimi çıxış edir; onların əsasında əvvəlki modelin müəyyən elementləri qorunub saxlanılsa da, əsas əlamətlərin yenidən dərk edilməsi və ya itirilməsi hesabına dəyişikliklər baş verir. V.Astafyevin “Yelçik-belçik” məsəlinin materialı əsasında XX əsrin sonu – XXI əsrin əvvəlləri ədəbiyyatında əsərin janr təbiətinin yenilənməsi izlənilir. Tədqiqatda müxtəlif üsullar təhlil olunur – danışıq dilinə birbaşa yönəlmə, personajların xarakterik nitqi ilə dialoq, qeyri-müstəqim və daxili nitq və s. Bu üsullar müəllif nəqlinin subyektivləşməsi olmaqla yanaşı, müəllif-nəqlçinin obrazını daha aydın edir. V.Astafyevin məsəlinin qeyd olunan xüsusiyyətləri ənənəvi janr normalarından və kanonlardan uzaqlaşmanı aydın şəkildə nümayiş etdirir.

***Açar sözlər:*** *janrlar, çevrilmələr, nəsr, obrazlar, personajlar*

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

**Khadija Yusifova**
Baku Slavic University
PhD in Philology
https://orcid.org/0009-0005-2676-5946
xadijayusifova@gmail.com

# Genre Transformations in Modern Russian Prose (using the example of V. Astafiev's parable "Elchik-belchik")

## Abstract

The article examines the issue of genre transformation in Russian prose at the turn of the XX–XXI centuries. In the process of genre transformations, new modifications emerge. The process of genre transformation is associated with the formation of new artistic forms and structures. Such modifications represent a development of traditional genres: although certain elements of the earlier model are preserved, changes occur due to the reinterpretation or loss of key characteristics. Based on V. Astafyev's parable "Elchik-belchik", the article traces the renewal of the genre nature of the literary work in Russian literature of the late XX – early XXI century is traced. The study analyzes various techniques – direct orientation toward oral speech, dialogue featuring characters' distinctive speech, free indirect speech, inner speech and others. These techniques function as a subjectivization of the author's narration and, at the same time, make the image of the author-narrator more clearly defined. The features identified in Astafyev's parable vividly demonstrate the departure from traditional genre norms and canons.

***Keywords:*** *genres, transformations, prose, images, characters*

## Введение

Жанрообразование как новая ситуация или скорее процесс, главным принципом которого становится ориентация на свободу от жанровых канонов, нарушение жанровых норм, появляется на рубеже XIX-XX вв. под влиянием модернистской и авангардистской эстетики. В свою очередь процесс жанровых трансформаций в начале XX в. детерминирован кризисным состоянием общественного сознания, с одной стороны. С другой стороны, поиском новой эстетики, способной как можно более полно раскрыть предчувствие надвигающихся изменений. Процесс разрушения традиций, трансформации устоявшихся культурных явлений становится знаком искусства авангарда. Эстетические идеи футуристов требовали революционных изменений на уровне фонемы, слова, организации художественной речи. Трансформациям подвергались родовые, жанровые, внутривидовые каноны. И лишь к концу XX века эти трансформации некоторым образом дифференцируются и аккумулируются.

**Исследования**

Весь XX век в русской литературе прошел под знаком поиска новых жанровых форм. Пик его приходится на конец XX столетия. Именно с последней четверти XX века трансформация жанров нередко возникает в процессе нарушения соответствия между разными элементами жанрового варианта. Это становится возможным тогда, когда жанр воспринимается как устоявшаяся особым образом организованная структура. Часто указание на исходный материал даётся в жанровом подзаголовке (истерн) или в заглавии произведения («Фрагмент исторического романа»). Таким образом, естественно, что в полученном жанре не теряется пародируемая модель, она присутствует в нетрадиционной для нее форме. Как правило, нарушается вышеуказанное соответствие: между элементами жанровой доминанты и носителями жанра. Остановимся на нескольких примерах.

Так, во «Фрагменте исторического романа» Л.Костюкова (Костюков, 1991, с. 296-299) достаточно отчетливо просматриваются формальные признаки заявленного в заглавии жанра: объективированное повествование, стилизованная речь персонажей, композиция,

позволяющая показать синхронные события, происходящие в разных местах, с помощью традиционного формульного словосочетания «тем временем». Но все это старательное следование канонам жанра исторического романа сводится на «нет» формой фрагмента, а также каламбурными именами главных действующих лиц, разрушающими эффект достоверности (Хан Атоммаш и его мать Ликбез).

В данном случае сдвиги на уровне жанрового содержания обусловлены привнесением объективно не доминирующего в историческом романе игрового настроя, а также нарушением соразмерности между кругом проблем, предполагаемых заданным жанровым содержанием и «величиной конструкции» фрагмента.

В одной из своих статей известный русский философ, литературовед М.М.Бахтин, подчеркивая разнородность, разнообразие и богатство различных жанров, выделил их несколько типов, точнее, разделил на первичные и вторичные речевые жанры. К первым он отнёс «жанры бытовые, сложившиеся в условиях в основном бытового общения, а ко вторым (и по его представлениям, осложнённым) – жанры научные, художественной литературы и публицистические» (Бахтин, 1986, с. 274). Причём, границы отдельных компонентов жанровых систем, по Бахтину, подвижны и взаимопроницаемы. Например, главный жанр может быть и периферийным и, напротив, – стать центральным. Последнее В. Шкловский именовал «канонизацией жанров» (Шкловский, 2016, с. 227). Далее, в жанровых системах нашего времени каждый элемент открыт, как бы тяготеет к взаимопроникновению с другими и на разных уровнях. Эти самые уровни возникли на различных этапах развития, другими словами, представляют собой жанровые системы соответственно и разных эпох. И вот выясняется, что современные жанровые системы относительно стабильны в своём постоянном движении.

Жанровую систему в литературе нельзя считать константной по той причине, что она подвержена изменениям в конкретную эпоху. Это, к примеру, фиксирует Ю.В.Стенник. В одной из своих статей он пишет: «системность может быть замечена разве что в границах какой-либо эпохи (скажем, классицизм или романтизм). Эти эпохи между собой не равноценны, когда их рассматривают по степени организации жанровых образований» (Стенник, 1984, с. 173).

Но в дальнейших своих рассуждениях учёный несколько противоречив, невольно приходя к мысли о «принципиальной несостоятельности отыскать какие-либо единые критерии жанровой классификации» за границами определенной исторической эпохи. «Установление таких пределов, - по мнению Ю.В.Стенника, - будет всегда сохранять опасность случайности и субъективизма» (Стенник, 1984, с. 173). В самом деле, а существует ли вообще «индивидуальная жанровая форма»? Можно высказать опасение, что развитие идеи индивидуальных жанров приведет к ликвидации жанра и откроет пути для любой формы субъективизма в области жанра. В авторских формах реализация той или иной жанровой модели в каждом конкретном произведении является специфической проблемой, которую исследователю всякий раз приходится решать заново. Отсюда вполне понятные страхи впасть в субъективизм, случайности или даже примитивизм. Однако нельзя забывать, что любой авторский жанр типологически можно соотнести с вполне определенным уже существующим жанром, даже если эта связь будет опосредованной и трудноуловимой, поскольку жанровые авторские формы есть всё же объективно результат трансформации традиционных жанров. Упомянутый академик Бахтин определял жанры в первую очередь как «относительно устойчивые стилистические, тематические и композиционные типы высказывания» (Бахтин, 1986, с. 255), где тема, стиль и композиция «связаны неразрывно между собой». Некоторые исследователи (А.Н.Соколов, Г.Н.Поспелов, А.Я.Эсалнек) выделяли в различных жанровых моделях структурный и содержательный уровни. Е.Я.Бурлина применяет в своих исследованиях термин «мета-жанр» (содержательно-формальное единство, общая степень абстракции), акцентируя внимание на таких признаках жанровых моделях, как концепция личности, хронотоп и «типичная авторская роль» (Бурлина, 1987, с. 59).

Одним из наиболее ярких признаков современных жанровых систем является подвижность сегментов, которые отражают состояние эпических жанров. Они же свидетельствуют о симбиозе некоторых жанровых видов.

Например, на синтезе эпического и лирического начал построена именно лирическая разновидность прозы. Причём, для современных жанровых систем характерно богатство жанров этой прозы, авторских и традиционных. В качестве примера можно указать на следующие произведения: Ю.Коваль «Монохроники», К.Булах «Полный вперед!», А.Приставкин «Синдром пьяного сердца», Л.Уварова «Арбатская дворянка», М.Кураев «Путешествие из Ленинграда в Санкт-Петербург» и некоторые другие.

Ещё один популярный на рубеже XX-XXI веков способ трансформации в русской литературе заключается в том, что в основе нового жанра остаются некоторые доминантные черты исконной модели, изменение же происходит за счет нарушения других доминантных или второстепенных жанровых признаков. Новый жанр возникает на грани исключения и традиции, неправильности и правила. Обычно новообразования носят название первичного жанра (мистерия, плач, анекдот). Эти первичные жанры, как правило, взяты авторами из бывших исторических периодов.

Так, на наш взгляд, ярким примером подобного рода жанровой трансформации является притча В.Астафьева «Ельчик-бельчик». В теории литературоведения притча обыкновенно определяется как «жанр эпический, который представляет собой небольшой по объёму назидательный рассказ в иносказательной форме. Некоторые учёные (Л.И.Алехина, Н.И.Прокофьев, О.В.Гладкова) к притче относят меткие изречения, пословицы, аллегорическое объяснение каких-либо предметов, дидактические и аллегорические рассказы, сказания, басни и повести.

Рассказ-притча В.Астафьева «Ельчик - бельчик» как бы занимает промежуточное место между двумя указанными разновидностями. В.Астафьев сохраняет аллегоричность и назидательность как доминирующие элементы жанровой сути самой притчи, но в процессе чтения внимательный и вдумчивый читатель легко заметит видоизменения качества под воздействием других жанровых признаков.

Настоящий рассказ-притча интересен нам прежде всего тем, что носит нетрадиционный для всей русской литературы XX века характер. Собственно элементы повествовательности здесь не менее важны, чем окончательная мораль. Отсюда вытекает и разнообразие самих повествовательных приемов: прямая ориентация на устную речь, диалог с характерологической речью персонажей, не собственно-прямая и внутренняя речь и т.п. Эти приемы являются субъективацией авторского повествования и в том числе делают более определенным образ автора-повествователя. Названные особенности притчи В.Астафьева ярко демонстрируют отход от традиционных жанровых норм и канонов, которые в принципе ориентируют критиков и читателей на однородность стиля и композиционную статичность.

Канонический жанр под пером В.Астафьева словно расширяет своё пространство. Главный сюжетный поворот здесь связан с историей жизни ельчика-бельчика, то есть малой рыбы – ельца. Прослеживается его судьба (икринки малька до взрослой жизни и появления потомства). Однако автор отходит от этой сюжетной линии. Иногда герой покидает пространственно-временные границы, что даёт автору возможность обратиться к другим темам – антидеяния человека, уничтожающего природу, нравы и характеры среды, в которой живет Ельчик-бельчик. В сюжетную ткань вводятся и другие персонажи. К примеру, щука-подкоряжница, невежественная, косноязычная, нагловатая, считающая себя вправе учить других, узнаваемая во всех своих проявлениях. Эпизоды, непосредственно не связанные с главным героем, имеют свою мораль, а все вместе организуют общую картину живого мира, где люди и рыбы составляют единое целое. Здесь слабые ельцы уповают на случай, «молятся словами богу рыбьему, прося его о том, чтоб он сохранил их души и тело, продлил их жизнь» и обретают силу в ощущении общности и родства.

Анималистические образы характерны для притчи, особенно для такой ее разновидности, как притча-басня. Здесь животные представлены такими, какими их видит народная психология, т.е. наделены той или иной чертой, делающей их похожими на человека. У Астафьева животный мир также наделен сходством с человеком: ерши-блатняги, генерал-таймени, щука-подкоряжница, «шакалка и захватчица», «веселый и добрый Ельчик-бельчик, ласковая и умная и Белоглазка» и другие. Характер каждого из персонажей раскрывается в ситуациях, подобных тем, в которых пребывают люди. Эти ситуации и обстоятельства автор представляет в традициях своеобразного жанрового параллелизма. Щука-подкоряжница, «борец за чистоту рыбных рядов», например, впадает в исступление, которое характерно для личностей подобного образа мыслей, когда слышит речи о «разоружении».

Белоглазка в свою очередь склонна к морализаторству, «как и все современные эмансипированные женщины». Однако, ориентируясь на притчевый прием образного параллелизма, В.Астафьев выходит за границы его использования посредством детализации ситуаций, яркой речевой характеристики персонажей, многоплановости сюжета.

Считаем уместным в данном случае напомнить, что в древнерусской притче образ жизни животных истолковывался, как правило, в сугубо иносказательном ключе, в традициях христианской символики. А в притче В.Астафьева (Астафьев, 1988, с. 15) изображение животных дано под двойным ракурсом. С одной стороны, это аллегория, которая содержит в себе общечеловеческую символику. С другой, вполне реалистическое изображение и объяснение повадок рыб. Двойной ракурс делает изображение рыб самостоятельным, не зависимым от своей иносказательной функции.

В сценах, где рыбам придаются черты людей, также задана некая двузначность: не только рыбы – это аллегория людей, но и люди есть аллегория рыб. Это «равновесие сил» в системе персонажей, нарушающее каноны притчи, становится выражением концепции автора, его «морали», идеи единства «твари сущной» в «мире божьем».

Трансформация традиционных жанровых канонов происходит и на уровне автора-повествователя. Роль его в древней притче сводится к раскрытию значения аллегории. В «Ельчике-бельчике» автор-повествователь проявляет себя ярче посредством, например, речевой манеры. Все повествование стилизовано под разговорную речь, а написание слова «махонькая» в «растяжку» заставляет предположить и установку на устную речь. Это, по вполне понятным причинам, всегда и во все времена соответствовало природе притчи, которая изначально представляла собой историю, рассказанную к случаю, как пример, в качестве довода в споре и существовала только в контексте проповеди или спора.

Итак, помимо яркой языковой характеристики автор-повествователь выделяется прямым выражением своих оценок, взглядов. Так, пойманную стариком-рыбаком на живца подкоряжницу автор провожает словами: «И все ж было жалко её, подкоряжницу. Прожорливая, сварливая и неуважительная, а все-таки хозяйка (Астафьев, 1988, с. 15).

## Заключение

Подведя итог, надо подчеркнуть, что авторское слово звучит и в финале. Древнерусские притчи заканчиваются, чаще всего прославлением Бога и заключительным словом молитв, проповедей «аминь» как бы лишний раз в подтверждение истинности сказанного. В.Астафьев несколько отходит от этой традиции красноречивого и возвышенного заключения притчи. Автор обращается к природе с мольбой о милости к беззащитным существам, а значит и к людям, с которыми они связаны прочными связями.

## Литература


1. Аверинцев, С.С. (1996). *Жанр как абстракция и жанры как реальность: диалектика замкнутости и разомкнутости. Риторика и истоки европейской литературной традиции*. Просвещение.
2. Аверинцев, С.С. (1986). *Историческая подвижность категории жанра: Опыт периодизации. Историческая поэтика: Итоги и перспективы изучения*. Просвещение.
3. Астафьев, В.П. (1988). Ельчик-бельчик. *Новый мир*, (9), 5–101.
4. Бахтин, М.М. (1986). *Проблема речевых жанров. Эстетика словесного творчества*. Просвещение.
5. Боровская, А.А. (2009). *Жанровые трансформации в русской поэзии первой трети XX века*. Автореф. дисс... д. филол. наук: 10.01.08.
6. Бурлина, Е.Я. (1987). *Культура и жанр. Методологические проблемы жанрообразования и жанрового синтеза*. Саратовский пед. инст.
7. Гафарова, С.А. (2003). *Актуальные проблемы современной жанрологии*. БСУ.
8. Костюков, Л.В. (1991). *«Фрагмент исторического романа». В кн.: Виктор Посошков, Олег Файнштейн «Лицей на Чистых прудах: Московский круг*. Вып. 2. Антология, 296–299.
9. Лейдерман, Н.Л. (1996). Практикум по жанровому анализу художественного произведения. Наука.
10. Чернец, Л.В. (1982). *Литературные жанры: проблемы типологии и поэтики*. Изд-во МГУ.
11. Стенник, Ю.В. (1984). *Система жанров в историко-литературном процессе. Историко-литературный процесс*. Наука.
12. Шкловский, В.Б. (2016). *Формальный метод: Антология русского модернизма*. Наука.


Поступило: 12.08.2025
Принято: 14.11.2025

DOI: https://doi.org/10.36719/2789-6919/52/43-48

**Arzu Babayeva**
Gəncə Dövlət Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0003-3134-9187
arzu.babayeva@gdu.edu.az
**Elmira Babayeva**
Bakı Modern Təhsil Kompleksi
https://orcid.org/0009-0009-2899-520X
elmirab999@gmail.com

# BREAK BIAS – cəmiyyətdə gender qərəzlərinin tanınması və qarşısının alınmasında texnologiyanın rolunun artırılması

### Xülasə

Gündəlik həyatda, məktəb, iş yeri və ailə mühitində gender əsaslı qərəzlər hələ də mövcuddur və çox zaman ya əhəmiyyət verilmir, ya da həll olunmadan qalır. Gender bərabərliyi ilə bağlı artan məlumatlılığa baxmayaraq, bir çox şəxslər öz təcrübələrini paylaşmaq üçün təhlükəsiz və etibarlı kanallardan məhrumdurlar. Bu məqalədə gender qərəzlərinin tanınması, vizuallaşdırılması və müzakirə edilməsi üçün texnologiya əsaslı təşəbbüs olan Break Bias layihəsi təqdim edilir. Tətbiqdə anonim, interaktiv və psixoloji dəstəklə təmin olunan platforma təqdim edilməklə, ictimai şüurun, empatiya və konstruktiv dialoqun gücləndirilməsi hədəflənir. Break Bias həm məlumat xəritəsi, həm Sİ əsaslı psixoloji dəstək, həm də təhlükəsiz ünsiyyət mühiti təklif edir ki, istifadəçilər təcrübələrini qorxusuz şəkildə paylaşa bilsinlər. Məqalədə texnoloji innovasiyanın sosial ədalət üçün katalizator kimi rolu vurğulanır və göstərilir ki, texnologiya yalnız rahatlıq üçün deyil, həm də bərabərlik və etik şüur yaratmaq üçün istifadə edilə bilər. Göstərilir ki, *Break Bias* yalnız texnoloji təşəbbüs deyil, həm də sosial dəyişiklik və ədalət istiqamətində bir platformadır. Təqdim edilən layihə göstərir ki, texnologiya yalnız həyatımızı asanlaşdırmaq üçün deyil, həm də daha bərabər və inklüziv bir cəmiyyət yaratmaq üçün güclü vasitə ola bilər.

***Açar sözlər:*** *gender qərəzi, sosial, innovasiya, süni intellekt, təşəbbüs*

**Arzu Babayeva**
Ganja State University
PhD in Pedagogy
https://orcid.org/0000-0003-3134-9187
ar_sb1@hotmail.com
**Elmira Babayeva**
Baku Modern Education Complex
https://orcid.org/0009-0009-2899-520X
elmirab999@gmail.com

# Break Bias – Enhancing the Role of Technology in Identifying and Preventing Gender Bias in Society

### Abstract

In daily life, whether at school, the workplace, or within the family environment, gender-based biases continue to persist and often go unnoticed or unresolved. Despite increasing awareness of gender equality, many individuals lack safe and reliable channels to share their experiences. This article introduces the *Break Bias* initiative, a technology-driven platform designed to identify, visualize, and discuss instances of gender bias. By introducing an anonymous, interactive platform

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0) 

offering psychological support, the initiative aims to strengthen public awareness, empathy, and constructive dialogue. *Break Bias* offers not only a data mapping tool but also AI-based psychological support and a secure communication environment, enabling users to share their experiences without fear. The study emphasizes the role of technological innovation as a catalyst for social justice, demonstrating that technology can serve not only for convenience but also for fostering equality and ethical awareness. It is highlighted that *Break Bias* is more than a technological initiative; it represents a platform for social change and justice. The project demonstrates that technology can be a powerful instrument not only for facilitating daily life but also for building a more equitable and inclusive society.

***Keywords:*** *gender bias, social, innovation, artificial intelligence, initiative*

## Giriş

Gender qərəzi müasir cəmiyyətlərin olduqca dərin kökə malik bərabərsizlik formalarından biridir. Təhsil, məşğulluq və siyasi iştirak sahələrində irəliləyişlərə baxmayaraq, gender stereotipləri və diskriminativ münasibətlər hələ də davranışlara, qərarlara və sosial strukturlara təsir göstərir (Petrova, 2018; Belyaeva & Lapina, 2022).

Break Bias təşəbbüsü şəxsi müşahidələr və sosial məsuliyyət hissinin nəticəsidir. Gündəlik həyatda və sosial mediada çoxsaylı qərəz halları ilə qarşılaşdıqdan sonra, bu məlumatları hərəkətə çevirmək üçün bir vasitə yaratmaq qarşıya məqsəd qoyuldu. Break Bias sadəcə şikayət mexanizmi kimi fəaliyyət göstərmir, əksinə, anonim və icma mərkəzli platforma kimi, fərdlərin təcrübələrini təhlükəsiz şəkildə paylaşmasına imkan yaradır. İstifadəçilər gender qərəzi hallarını interaktiv xəritədə görəndə cəmiyyətin ümumi mənzərəsinin fərqinə varır və yalnız olmadıqlarını anlayırlar. Bu məqalədə Break Bias layihəsinin konseptual çərçivəsi, texnoloji dizaynı və gələcək sosial təsirləri təqdim edilir, insan empatiyası ilə rəqəmsal güc arasında körpü yaradılması sərgilənir.

Gündəlik həyatda, məktəb, iş yeri və ailə mühitində insanlar bəzən fərqinə varmadan gender əsaslı qərəzlərlə qarşılaşırlar. Bu kimi hallar həm şəxsi müşahidələrimdə, həm də sosial media platformalarında geniş şəkildə öz əksini tapıb. Təəssüf ki, belə hallara rast gəlsələr də, çox vaxt insanlar ya onları ifadə etməkdən çəkinir, ya da hansı instansiyaya müraciət edəcəyini bilmir.

Bu müşahidələrdən çıxış edərək belə qənaətə gəlmək olar ki, problem təkcə gender qərəzinin mövcudluğu deyil, həm də onu tanımaq, qiymətləndirmək və paylaşmaq üçün təhlükəsiz və etibarlı mühitin olmamasıdır. Bu kontekstdə meydana çıxan *Break Bias* layihəsinin məqsədi insanların yaşadıqları və ya şahid olduqları gender əsaslı ədalətsizlikləri yalnız "şikayət" kimi deyil, məlumat, təcrübə və sosial maarifləndirmə resursu kimi paylaşa bilməsini təmin etməkdir.

Tətbiqdə təqdim olunan interaktiv xəritə istifadəçilərə məlumatları vizual olaraq göstərir, bu isə onların yalnız olmadıqlarını və müəyyən bölgələrdə gender şüurunun gücləndirilməsinə ehtiyac olduğunu anlamalarına kömək edir. Layihənin əsas xüsusiyyətlərindən biri anonimlikdir, bu, insanların qorxusuz şəkildə təcrübələrini paylaşmalarına və səsini çatdırmalarına şərait yaradır.

*Break Bias* yalnız məlumat xəritəsi və bildirişlərdən ibarət deyil, eyni zamanda Sİ əsaslı psixoloji dəstək və təhlükəsiz ünsiyyət mühiti təqdim edir. Bu, istifadəçilərin özlərini tənha hiss etmədən danışmalarına, dəstək almalarına və sosial məsələlərə dair maariflənmələrinə imkan verir.

Layihə çərçivəsində 3 əsas məqsəd irəli sürülür:

1. İnsanların gender qərəzlərini tanıması;
2. Bu mövzuda düşünməsi və müzakirə aparması;
3. Gələcəkdə isə qərəzsiz düşüncə tərzinin formalaşması.

Beləliklə, *Break Bias* yalnız texnoloji təşəbbüs deyil, həm də sosial dəyişiklik və ədalət istiqamətində bir platformadır. Layihə göstərir ki, texnologiya yalnız həyatımızı asanlaşdırmaq üçün deyil, həm də daha bərabər və inklüziv bir cəmiyyət yaratmaq güclü vasitədir.

**Tədqiqat**

Gender qərəzi mədəni, institusional və şəxsiyyətlərarası müstəvilərdə dərin köklərə malik sosial problem olaraq qalır. Genişmiqyaslı araşdırmalar göstərir ki, stereotiplər və diskriminativ təcrübələr hələ də qərarvermə proseslərinə, imkanlara və təhsil, iş yeri və ailə mühitində qarşılıqlı münasibətlərə

təsir edir (Bugeau & Ligozat, 2023). Eagly və Wood (Eagly & Wood, 2016) sosial rol nəzəriyyəsinə əsaslanaraq bildirirlər ki, cəmiyyətin gözləntiləri və təyin olunmuş gender rolları davranışları və normativ çərçivələri yönləndirərək bərabərsizliyin davam etməsinə səbəb olur. Ridgeway (Ridgeway, 2011) isə mədəni inancların və incə sosial iyerarxiyaların şəxsiyyətlərarası münasibətləri və təşkilati strukturları formalaşdırdığını və bunun nəticəsində qadınlar və marjinal qruplar üçün sistemli çatışmazlıqlar yarandığını vurğulayır.

Son tədqiqatlar texnologiyanın bu qərəzləri aradan qaldırmaq potensialını göstərir. İştirakçı dizayn yanaşmaları və rəqəmsal platformalar məlumatlara çıxışı demokratikləşdirə, marjinal qrupların səsini gücləndirə və sosial *inklüzivliyi* təşviq edə bilər (Bannon & Ehn, 2013, p. 40). Xüsusilə, anonimlik həssas sosial kontekstlərdə şəxsi məlumatların paylaşılmasını və təcrübələrin açıqlanmasını asanlaşdırır, iştirakçıların sosial və ya professional nəticələrdən qorxmadan təcrübələrini bölüşməsinə imkan verir.

Süni intellektin dəstəkçi platformalara inteqrasiyası emosional yönləndirmə və psixo-sosial dəstək üçün perspektivli vasitə kimi ortaya çıxır. Fitzpatrick və digərləri (Fitzpatrick, Darcy & Vierhile, 2017) göstərir ki, Sİ əsaslı söhbət agentləri dərhal empatik cavab verməyə, psixoloji dəstək təmin etməyə və təsdiqlənmiş resurslara yönləndirməyə qadirdir, beləliklə, yardım istəməkdən çəkinən fərdlərə çıxış genişləndirilir.

Nəzəri baxımdan, sosial psixologiya və insan-kompüter qarşılıqlı təsiri üzrə araşdırmalar göstərir ki, yaxşı dizayn edilmiş texnoloji müdaxilələr şüuru artırır, reflektiv düşüncəni təşviq edir və gender bərabərsizliyi ilə mübarizədə fəal davranışları dəstəkləyir. Bundan əlavə, bu müdaxilələr fərdi təcrübələrlə geniş cəmiyyət təcrübə halları arasında körpü quraraq, bu halları vizuallaşdırır, icma iştirakını təşviq edir və bilik paylaşımını gücləndirir (Fitzpatrick, Darcy & Vierhile, 2017, p.19).

Nəticədə, ədəbiyyat 3 əsas istiqamətə fokuslanır:

1) Gender stereotiplərinin və institusional qərəzlərin davamlılığı;

2) Texnologiyanın, xüsusilə, Sİ və anonimliyin fərdləri və icmaları gücləndirmək potensialı;

3) Platformaların həm effektiv, həm də etik baxımdan məsuliyyətli olmasını təmin edən iştirakçı və inklüziv dizayn yanaşmalarının əhəmiyyəti.

Bu nəticələr *Break Bias* layihəsinin gender qərəzlərini sənədləşdirmək və sosial baxımdan əhəmiyyətli həll yolları təqdim etmək məqsədini dəstəkləyir.

Break Bias layihəsinin inkişafı iştirakçı dizayn modeli əsasında aparılır, istifadəçi məxfiliyi, inklüzivlik və psixoloji təhlükəsizlik prioritet kimi çıxış edir. Metodologiya 3 əsas komponentdən ibarətdir:

1. Anonim hesabat: İstifadəçilər şəxsiyyətlərini açıqlamadan gender qərəzi halları barədə məlumat verə bilirlər. Məlumatlar toplanaraq interaktiv xəritədə anonim nöqtələr kimi göstərilir.

2. Sİ əsaslı dəstək: Platforma empatik ünsiyyət üzrə təlim keçmiş Sİ söhbət proqramını (çatbot) daxil edir, istifadəçilərə emosional dəstək verir və təsdiqlənmiş psixoloji və hüquqi resurslara yönləndirir.

3. İcma maarifləndirməsi: Tətbiq regional sıxlıq xəritələri yaradaraq məlumatların tezlik və xarakterini göstərir, cəmiyyətlərə gender həssaslığı proqramlarının daha çox tələb olunduğu sahələri müəyyən etməyə kömək edir.

Etik qaydalar layihənin ilkin mərhələsindən etibarən inteqrasiya olunub, GDPR (General Data Protection Regulation – Ümumi Məlumatların Qorunması Qaydaları) kimi məlumatların qorunması standartlarına riayət olunur. İstifadəçi razılığı, məlumatların şifrələnməsi və moderator alqoritmləri platformanın etibarlılığını və istifadəçi güvənini təmin edir.

Pilot testlərdən əldə edilən ilkin rəylər göstərir ki, anonimlik hesabat vermə iştirakını əhəmiyyətli dərəcədə artırır. İstifadəçilər təcrübələrini mühakiməsiz paylaşa biləcəkləri təhlükəsiz mühit tapdıqlarını bildirirlər. Məlumatların vizual təqdimatı istifadəçilərə təcrübələrinin cəmiyyətin daha geniş məsələlərinin bir hissəsi olduğunu göstərir.

Sosioloji baxımdan, Break Bias gender bərabərliyi ilə bağlı sükutu pozmağa və dialoqu normallaşdırmağa xidmət edir. Texnoloji baxımdan, Sİ və interaktiv dizaynın insan hüquqları və etik prinsiplərlə uyğunlaşa biləcəyini göstərir (Əliyeva, 2019; Məmmədova, 2021; Petrova, 2018).

Psixoloji dəstək mexanizmlərinin inteqrasiyası platformanın yalnız məlumat toplama ilə kifayətlənməyib, istifadəçilərin dirçəlməsi və emosional dəstək almasına imkan yaratmasını təmin edir.

Layihə rəqəmsal vətəndaşlığın transformativ potensialını vurğulayır, texnologiya vasitəsilə fərdlər bərabər cəmiyyətlərin formalaşmasında aktiv iştirak edə bilirlər. Artan məlumatlılıq nəticəsində bu alətlər təhsil siyasətinin, iş yeri etikası və mədəni inkişaf proqramlarının formalaşmasında vacib rol oynaya bilər.

İnteraktiv xəritələr vasitəsilə məlumatların vizual təqdimatı istifadəçilərə gender qərəzinin coğrafi yayılması və tezliyi barədə aydın təsəvvür yaradıb. İştirakçılar qeyd ediblər ki, təcrübə hallarını vizual olaraq görmək onların tək olmadığını, öz təcrübə hallarının sistemli və genişmiqyaslı tendensiyaların bir hissəsi olduğunu başa düşmələrinə kömək edir (Wajcman, 2020; West, Whittaker & Crawford, 2019). Bu vizuallaşdırma həmrəylik hissini gücləndirib və icma daxilində kollektiv müzakirə və refleksiyanı təşviq edib.

Sİ əsaslı dəstək mexanizmlərinin dərhal emosional dəstək və istiqamətləndirmə təmin etməkdə effektiv olması təsbit edilib. İştirakçılar Sİ ilə ünsiyyətin öz hisslərini ifadə etməyə kömək etdiyini və narahatlıqlarının dəyərləndirildiyini etiraf edib. Təqdim olunan psixoloji və hüquqi resurslar platformanın yalnız məlumat toplamaqla kifayətlənməyib, həm də real yardım və məsləhət imkanları yaratmasını təmin edib.

**Cədvəl.** Break Bias layihəsinin nəticələri və müzakirə analizi

| Nəticə / Müzakirə sahəsi | Tapıntılar / İstifadəçi rəyəri | Əhəmiyyəti / Akademik şərh |
|---|---|---|
| Sosial məlumatlılıq | Qərəz hadisələrinin görünən və əlçatan formatda təqdim olunması | Cəmiyyətin gender məsələləri ilə bağlı anlayışını artırır |
| Davranış dəyişikliyi | Anonim təcrübələrin görünməsi iştirakçıların öz münasibətlərini refleksiya etməsinə imkan verir | Şəxsi, təhsil və professional mühitdə daha ədalətli qarşılıqlı münasibətləri təşviq edir |
| İcma əlaqəsi | Kollektiv hesabat və vizual təqdimat icma dialoqunu gücləndirir | Gender bərabərsizliyini aradan qaldırmağa hədəflənmiş yerli təşəbbüsləri stimullaşdırır |
| Texnoloji baxış | Sİ və interaktiv dizayn insan hüquqları və etik prinsiplərlə uyğunlaşa bilir | Platformanın həm məlumat toplama, həm də etik və hüquqiyönümlü olmasını göstərir |
| Psixoloji dəstək | Sİ əsaslı dəstək mexanizmləri emosional dəstək və istiqamətləndirmə təmin edir | İstifadəçilərin hisslərini ifadə etməsinə və narahatlıqlarının dəyərləndirilməsinə imkan yaradır |
| Vizuallaşdırma | İnteraktiv xəritələr istifadəçilərə gender qərəzinin coğrafi yayılması və tezliyi barədə aydın təsəvvür verir | İştirakçılarda həmrəylik hissini gücləndirir və kollektiv refleksiyanı təşviq edir |

Mənbə: Müəllif tərəfindən hazırlanmışdır.

Müzakirə 3 əsas nəticəni göstərir:

1. *Sosial məlumatlılıq:* Qərəz hadisələrinin görünən və əlçatan formatda təqdim edilməsi cəmiyyətin gender məsələləri ilə bağlı anlayışını artırır.
2. *Davranış dəyişikliyi:* Anonim təcrübələrin görünməsi iştirakçıların öz münasibətlərini və davranışlarını refleksiya etməsinə imkan verir, şəxsi, təhsil və professional mühitdə daha ədalətli qarşılıqlı münasibətləri təşviq edir.
3. *İcma əlaqəsi:* Kollektiv hesabat və vizual təqdimat icma dialoqunu gücləndirir və gender bərabərsizliyini aradan qaldırmağa hədəflənmiş yerli təşəbbüsləri stimullaşdırır.

Nəticə olaraq, *Break Bias* yalnız məlumat bazası kimi deyil, həm də təhsil və transformasiya aləti kimi çıxış edir. Anonimlik, interaktivlik və Sİ dəstəyinin inteqrasiyası gender bərabərliyi kontekstində iştirak, məlumatlılıq və fəal davranış dəyişikliyini artırmaqda əhəmiyyətli rol oynayır.

## Nəticə

Break Bias yalnız rəqəmsal tətbiq deyil, eyni zamanda gələcəkdə dəyişiklik yaratmaq perspektivini əks etdirir. Empatiya, anonimlik və süni intellekti birləşdirərək, danışmaq qorxusunu aradan qaldıraraq, gender bərabərliyində əsas çağırışlara cavab verir. Layihə göstərir ki, texnologiya yalnız rahatlıq üçün deyil, həm də sosial ədalət üçün istifadə edilməlidir.

Tədqiqat göstərir ki, insanlara təcrübələrini ifadə etmək üçün təhlükəsiz və dəstəkləyici mühit təqdim olunduqda, onlar ədalət və bərabərlik mövzusunda daha aktiv iştirak edirlər (Sokolova, 2020; Kuznetsova, 2020; Ridgeway, 2011; Ivanov & Smirnova, 2019; Fitzpatrick, Darcy & Vierhile, 2017). Nəticədə, Break Bias səssizlikdən həmrəylik və passiv şüurdan fəal iştirak istiqamətinə keçidi təşviq edərək, daha şüurlu və inklüziv gələcək üçün zəmin yaradır.

Araşdırmamıza əsasən, cəmiyyətdə gender qərəzlərinin tanınması və qarşısının alınmasında texnologiyanın rolunun artırılması istiqamətində aşağıdakı *təkliflər irəli sürülə bilər:*

1. *Siyasət inteqrasiyası:* Təşkilatlar və təhsil müəssisələri *Break Bias* kimi alətləri gender bərabərliyi monitorinq sistemlərinə daxil etməli, əldə olunan məlumatların konkret tədbirlərə çevrilməsini təmin etməlidir.
2. *İcma əlaqəsi:* Daha çox gender qərəzi halları qeydə alınan bölgələrdə hədəf yönümlü maarifləndirmə kampaniyaları təşkil olunmalı, inklüzivlik və bərabərlik təşviq edilməlidir.
3. *Dəstək mexanizmlərinin genişləndirilməsi:* Sİ əsaslı dəstək çoxdilli resurslar, böhran idarəçiliyi təlimatları və peşəkar məsləhət yollarını əhatə etməlidir.
4. *Tədqiqat əməkdaşlığı:* Akademik müəssisələrlə əməkdaşlıq qurularaq, zamanla gender qərəzi təcrübə halları analiz edilməli, geniş sosioloji və siyasi araşdırmalara töhfə verilməlidir.
5. *Davamlı inkişaf:* İstifadəçi rəyi, texnoloji yeniliklər və etik prinsiplər əsasında platforma müntəzəm yenilənməli, etibar, aktualıq və təsir gücü qorunmalıdır.

## Ədəbiyyat

1. Bannon, L., Ehn, P. (2013). Design: Design Matters in Participatory Design. *Routledge Handbook of Participatory Design*, 37–63.
2. Bugeau, A., Ligozat, A.L. (2023). *How digital will the future be? Analysis of prospective scenarios*. https://arxiv.org/abs/2312.15948
3. Buolamwini, J., Gebru, T. (2018). Gender Shades: Intersectional Accuracy Disparities in Commercial Gender Classification. *Proceedings of Machine Learning Research,* (81), 1–15.
4. Belyaeva, T. V., Lapina, E. V. (2022). Iskusstvennyi intellekt i gendernye predvzyatosti: sotsial'no-ehticheskii analiz. *Zhurnal Sotsiologicheskikh Issledovanii*, 11(4), 45–53.
5. Eagly, A.H., Wood, W. (2016). Social Role Theory of Sex Differences. *APA Handbook of Personality and Social Psychology*, (1), 379–399.
6. Əliyeva, N. (2019). *Təhsil mühitində gender stereotiplərin təsiri*. ADPU.
7. Fitzpatrick, K. K., Darcy, A., Vierhile, M. (2017). Delivering cognitive behavioral therapy using a conversational AI system: Feasibility study. *JMIR Mental Health*, 4(2), 19.

8. Ivanov, S. D., Smirnova, E. Y. (2019). *Psikhologiya gendernykh razlichii v obrazovatel'noi srede*. Akademiya.
9. Kuznetsova, I. A. (2020). *Gendernoe ravenstvo v sovremennoi Rossii: vyzovy i perspektivy*. Nauka.
10. Məmmədova, S. (2021). *Gender bərabərliyi və sosial siyasət: Azərbaycan konteksti*. Elm və Təhsil.
11. Petrova, N. V. (2018). *Sotsial'nye stereotipy i gendernoe povedenie*. Piter.
12. Ridgeway, C. L. (2011). *Framed by Gender: How Gender Inequality Persists in the Modern World*. Oxford University Press.
13. Sokolova, A. N. (2021). *Gendernye aspekty tsifrovoi transformatsii obshchestva*. MGU.
14. Wajcman, J. (2020). The Gender Politics of Digital Innovation. *Information, Communication & Society*, 23(1), 1–17.
15. West, S.M., Whittaker, M., Crawford, K. (2019). *Discriminating Systems: Gender, Race, and Power in AI. AI Now Institute Report*. New York University.

Daxil oldu: 08.08.2025
Qəbul edildi: 10.11.2025

DOI: https://doi.org/10.36719/2789-6919/52/49-53

**Şükufə Xankişiyeva**
Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində
Azərbaycan Dövlət Pedaqoji Kolleci
psixologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0008-8125-2838
shukufa.kh63@mail.ru
**Məlahət Rəhimova**
Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində
Azərbaycan Dövlət Pedaqoji Kolleci
https://orcid.org/0009-0005-2118-2952
malahatrahimova@mail.ru

# Yeniyetmələrin idrak fəaliyyətinin hərəkətverici qüvvəsi kimi maraqlar

## Xülasə

Yeniyetmələrin idrak fəallığının əsasında duran ən mühüm amillərdən biri maraqlardır. Maraqların inkişaf dinamikası çoxsaylı amillərdən asılıdır. Bu amillər həm psixoloji, həm pedaqoji, həm də sosial mənşəli olub təlim fəaliyyətində üzə çıxır. Məqalədə yeniyetmə maraqlarının bu xüsusiyyətlərindən və onların inkişaf şərtlərindən bəhs olunur.

Yeniyetmələrin idrak fəaliyyəti onların iştirakçısı olduqları tədris prosesində qurulur. Tədris prosesindəki fəallıq şagirdlərin fənnə, müəllimə, bütövlükdə təlim situasiyasına marağı ilə şərtlənir. Təlim maraqları son nəticədə özünü idrak motivasiyasında və idrak maraqlarında göstərir.

Uşaqlıq və yeniyetməlik dövründə maraqların formalaşması problemləri bir çox tədqiqatlarda öyrənilmişdir. Hazırda yeniyetmənin maraqları daha geniş mənada – yeniyetmənin sosiallaşmasının və şəxsiyyətinin formalaşmasının vacib tərəfləri kimi öyrənilir.

***Açar sözlər:*** *idrak, uşaqlıq dövrü, yeniyetmələrin maraqları, tədris prosesi, fəallıq*

**Shukufa Khankishiyeva**
Azerbaijan State Pedagogical College under the
Azerbaijan State Pedagogical University
PhD in Psychology
https://orcid.org/0009-0008-8125-2838
shukufa.kh63@mail.ru
**Malahat Rahimova**
Azerbaijan State Pedagogical College under the
Azerbaijan State Pedagogical University
https://orcid.org/0009-0005-2118-2952
malahatrahimova@mail.ru

# Interests as a Driving Force of Cognitive Activity of Adolescents

## Abstract

Interests are one of the most important factors underlying the cognitive activity of adolescents. The dynamics of the development of interests depend on numerous factors. These factors have both psychological, pedagogical, and social origins and are manifested in educational activities. The article discusses these features of adolescent interests and the conditions for their development.

The cognitive activity of adolescents is built on the educational process in which they are participants. Activity in the educational process is conditioned by the interest of students in the

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

subject, the teacher, and the educational situation as a whole. Educational interests ultimately manifest themselves in cognitive motivation and cognitive interests.

The problems of the formation of interests in childhood and adolescence have been studied in many studies. Currently, the interests of adolescents are studied in a broader sense as important aspects of the socialization and personality formation of adolescents.

***Keywords:*** *cognition, childhood, interests of adolescents, educational process, activity*

## Giriş

Yeniyetmələrin idrak fəaliyyəti onların iştirakçısı olduqları tədris prosesində qurulur. Tədris prosesindəki fəallıq şagirdlərin fənnə, müəllimə, bütövlükdə təlim situasiyasına marağı ilə şərtlənir. Təlim maraqları son nəticədə özünü idrak motivasiyasında və idrak maraqlarında göstərir.

Uşaqlıq və yeniyetməlik dövründə maraqların formalaşması problemləri bir çox tədqiqatlarda öyrənilmişdir. L.S.Vıqotski (Vıqotski, 1991), V.A.Krutetski, N.S.Lukin (Krutetski & Lukin, 1965), A.S.Bayramov (Bayramov, 1967), M.A.Həmzəyev, Ş.M.Babayev, N.M.Şükürova (Həmzəyev, Babayev, & Şükürova, 1963), A.A.Əlizadə, Q.A.Əlizadə (Əlizadə & Əlizadə, 2008), A.K.Markova (Markova, 1978), M.C.Məhərrəmov (Məhərrəmov, 1953; Məhərrəmov, 1965), A.A.Qədirov (Qədirov, 1973), A.İ.Şukina (Şukina, 1962), L.M.Fridman (Fridman, 1977), N.Q.Morozova (Morozova, 1979), M.F.Morozov (Morozov, 1959), E.V.Çudinova (Çudinova, 2005) və digərləri bu məsələni pedaqoji və yaş istiqamətində nəzərdən keçirmişlər. Hazırda yeniyetmənin maraqları daha geniş mənada – yeniyetmənin sosiallaşmasının və şəxsiyyətinin formalaşmasının vacib tərəfləri kimi öyrənilir.

**Tədqiqat**

Maraqlar, əslində dərin daxili proseslərlə, xüsusilə meyillərlə bağlı olan amildir. Ona görə də L.S.Vıqotski idrak maraqlarının yaranmasını "instinktlərin təzahürü" adlandırır: "Maraqların uşaq həyatında universal əhəmiyyəti var. Torndayk deyir ki, etdiyimiz hər şeyi, hətta ən maraqlısını da, maraqdan, heç olmasa mənfi maraqdan – narahatlıq qorxusundan edirik. Beləliklə, maraq – uşaq davranışının təbii hərəkətverici qüvvəsi kimi, instinktiv səylərin doğru ifadəsi, uşağın fəaliyyətinin onun orqanik tələbatları ilə üst-üstə düşməsinin göstəricisidir" (Həmzəyev, Babayev, & Şükürova, 1963, s. 118). Biz burada maraqların təbii xarakterini L.S.Vıqotskinin nöqteyi-nəzərində şərh etməklə qeyd etmək istəyirik ki, yeniyetmələrin maraqları özünün sosiallaşmış məzmunu ilə uşaqlıq dövrünün maraqlarından əhəmiyyətli dərəcədə fərqlənir. Onun hansı xüsusiyyətlərə malik olmasını isə burada nəzərdən keçirəcəyik.

V.A.Krutetski və N.S.Lukin yeniyetmələrin idrak maraqlarını məzmun baxımından təhlil edirlər. Belə ki, bu tədqiqatçılar yeniyetmələrdə idrak maraqlarının daha davamlı, şüurlu, fəal, biliklərə yönəlik, seçici xarakterini fərqləndirirlər. "Yeniyetmələrin idrak maraqları olduqca seçicidir. Bəzi dərs fənləri onları bu səbəbdən çox maraqlandırır, digərlərinə isə laqeyd yanaşırlar. Lakin yeniyetmədə müxtəlif dərs fənlərinə marağın yaranmasına və inkişafına müəllimin şəxsiyyəti, habelə onun tədris materialını təqdim etmə üsulu və forması daha çox təsir göstərir" (Krutetski & Lukin, 1965, s. 49). Müəlliflərə görə, yeniyetməlik dövründə xüsusi yer tutan idrak maraqları təlim fənlərindən kənara çıxır. Onlar oxumağa, elmi-populyar ədəbiyyatı öyrənməyə, əlavə məşğələlərdə iştirak etməyə başlayır, təbiət və cəmiyyət hadisələrinin dərkinə istiqamətlənirlər. Maraqlar müxtəlif fənlər üzrə elmi əsasların öyrənilməsi prosesində inkişaf edir. Yeniyetmələrin maraqları onların biliklərinin məzmunu ilə bir-birini tamamlayır. Təlim prosesində yaranan idrak maraqları yeni biliklər əldə etmənin motivasiyasını yaradır.

R.İ.Əliyev yeniyetmələrdə təlim maraqlarının bir qədər zəiflədiyini göstərərək bunu aşağıdakılarla əlaqələndirir. "Ətraf mühitə maraq, yaşıdlarla ünsiyyətə daha çox vaxt ayırması yeniyetmələrin təlim maraqlarını bir qədər azaldır. Təlimə müsbət maraq isə o vaxt yaranır ki, təlim şagirdin idrak maraqları ilə üst-üstə düşsün. Yeniyetmə təlimdə uğurlar qazana bilmədikdə özünü elə göstərir ki, təlim onun üçün maraqsız və əhəmiyyətsizdir" (Əliyev, 2006, s. 184).

Yeniyetmələrin subyektiv imkanları ilə ölçülən bu keyfiyyətlər onunla bir qrupda fəaliyyət göstərənlərin idrak qabiliyyətlərinə də təsir etmək gücündədir. Kollektivin əksər üzvləri idrak

fəaliyyəti üçün bu kimi vacib keyfiyyətlərə malik olduqda qrup öz qarşısına qoyduğu problemlərin həllində məhsuldar nəticələr əldə etməyə qadir olurlar. Bu halda şagirdlərin oxumaq, təhsil almaq səyləri, idrak maraqları bu amillərlə stimullaşdırılır:

• tədris prosesində sistemli qaydada inkişaf;
• əşyavi-məntiqi materialların, nəzəri və praktik təfəkkürün əlaqəsi;
• şəxsi-sosial və şəxsi-psixoloji komponentlərin harmoniyasının yaradılması.

Aparılmış çoxsaylı tədqiqatlarda yeniyetmələrin idrak maraqlarının inkişaf etdirilməsinin yolları göstərilmişdir. Bu sırada V.A.Krutetski və N.S.Lukin məsələyə yeniyetmələrin yaş xüsusiyyətləri (Krutetski & Lukin, 1965), M.C.Məhərrəmov iradi keyfiyyətlərin artırılması (Məhərrəmov, 1953), M.Ə.Həmzəyev, Ş.M.Babayev və N.M.Şükürova zəngin təəssüratların yaradılması (Həmzəyev, Babayev, & Şükürova, 1963), Q.İ.Şukina şagirdlərin dərketmə maraqlarının inkişafı (Şukina, 1962), Ə.Ə.Qədirov mücərrədləşdirmənin inkişafı (Qədirov, 1973), Ə.Ə.Əlizadə və H.Ə.Əlizadə yaradıcılığın inkişaf etdirilməsi (Əlizadə & Əlizadə, 2008) istiqamətlərində münasibət bildirirlər.

Bəs şagirdlərdə idrak maraqlarını inkişaf etdirmək üçün hansı tədbirlər həyata keçirilməlidir?

A.İ. Şukina şagirdlərin idrak maraqlarının formalaşdırılması üzrə aşağıdakıları fərqləndirir:

• öyrənmə prosesi maraqların inkişaf mənbəyi kimi;
• təlimin emosional şəraitinin yaradılması;
• şagirdləri intellektual fəallığa təhrik etmək;
• maraqdan iradi səyin stimulu kimi istifadə etmək;
• dərsdə marağın yaranması;
• şagirdlərin idrak maraqlarının formalaşmasında müəllimin rolu və s.

A.İ.Şukina qeyd edir ki, "dərs mövzusunun maraqlı elan edilməsi şagirdlərdə yeni materialın qəbulunun fəal prosesini oyadır. Şagirdlərin mövcud təcrübəsini verilmiş dərsin materialı ilə əlaqələndirən suallar qoymaqla müəllim onların təfəkkürünün və yaddaşının inkişafına kömək edir. Əgər bu zaman biliklərin həyati mənası açılırsa, dərs mövzusu şagirdlər tərəfindən emosional yüksəlişlə qəbul edilir və onların dərsdə iş qabiliyyəti yüksəlir" (Şukina, 1962, s. 167).

M.C.Məhərrəmova görə, şagirdlərin yaxşı oxumasının, təlimə maraq göstərmələrinin sirri ondadır ki, mürəkkəb fəaliyyətin müvəffəqiyyətlə icra edilməsi üçün bir deyil, bir neçə qabiliyyət qarşılıqlı surətdə birləşərək vəhdət təşkil etsin. Müəllimlik fəaliyyətində görkəmli müvəffəqiyyətlərə nail olmaq üçün təkcə müşahidəçilik azdır. Bununla birlikdə, pedaqoji mərifət, təlim və tərbiyə prosesini elmi əsaslar üzərində təşkil etmə, yeni bilik və bacarıqları şagirdlərə məharətlə mənimsətmə, tənqidi təfəkkür, ümumiləşdirmə, aydın və məntiqi nitq də lazımdır. "Bu qabiliyyətlərə qarşılıqlı birlik halında malik olan müəllimə talantlı müəllim deyilir" (Məhərrəmov, 1953, s. 8). M.C.Məhərrəmov şagirdlərin idrak maraqlarının artmasını onların iradi imkanları ilə də əlaqələndirir. "İradi keyfiyyətlər çox və müxtəlifdir ... Təşəbbüskarlıq, mütəşəkkillik, müstəqillik, qətiyyət, təkidlilik, işgüzarlıq, cəsarət... iradi keyfiyyətlərdir... Təcrübə, həmçinin, məktəblilərlə aparılan müsahibələr göstərir ki, yeniyetmə və gənclərimizin əksəriyyəti mətin iradəyə üstünlük verib onu özlərində tərbiyə etməyə səy göstərirlər" (Krutetski & Lukin, 1965, s. 75).

M.Ə.Həmzəyev, Ş.M.Babayev və N.M.Şükürova idrak maraqlarının yaradılmasının başlıca amillərindən biri kimi onlarda öyrəndikləri biliklərlə bağlı zəngin təsəvvürlərin yaradılmasını görürlər. "Mücərrəd xarakterli mətnlər unutmanı sürətləndirir və bu da yadda saxlamağa mənfi təsir göstərir. Uzun müddət ərzində dərslərdə apardığımız müşahidələr, konkret və mücərrəd təlim materiallarının müvəffəqiyyətlə yadda saxlanılmasını təmin edən bir sıra şərtləri qeyd etməyə imkan verir. Bu şərtlərdən ən birincisi və başlıcası təlim materiallarının şərhi zamanı şagirdlərdə zəngin təsəvvürlər yaratmaq və yeri gəldikcə bu təsəvvürlərdən bacarıqla istifadə etmək məsələsidir" (Həmzəyev, Babayev, & Şükürova, 1963, s. 15).

Burada təlim prosesini idarə edən müəllimin fəaliyyəti də qeyd olunaraq göstərilir ki, "təlim prosesində müəllim şagirdlərin idrak fəaliyyətini idarə edir və ona istiqamət verir. Təlim prosesində müəllim şagirdlərdə canlı, zəngin, dəqiq təsəvvürlər yaratmaq üçün müxtəlif vasitələrdən istifadə edir ki, bunlardan ən başlıcası aşağıdakılardır: əyanilik yolu ilə - müxtəlif tipli əşyaların və onların təsvirinin nümayiş etdirilməsi yolu ilə; müəllimin canlı sözü vasitəsi ilə" (Vıqotski, 1991, s. 15).

M.F.Morozovun fikrincə, əsas vasitə şagirdlərin dərsdə əqli fəaliyyətini aktivləşdirməkdən ibarət olub, müəllimin metodikası və tədris materiallarıdır. "Müəllimlər şagirdlərin təfəkkür fəaliyyətini aktivləşdirməyə çalışaraq, əsas sualları dərsliyin başlıqlarında göstərilən formada formalaşdırmaqdan çəkinirdilər. Ən çox yeni suallar şagirdlərə əvvəlki sualın müzakirəsi zamanı onlara bildirilmiş məlumatlardan irəli gələrək verilirdi. Belə bir formulə şagirdləri cavablarında o və ya bu bölməyə deyil, faktları seçməli, onları təhlil etməli, müvafiq nəticə və ümumiləşdirmələr qurmalı olduqları məlumatlara istinad etməyə öyrədir" (Morozov, 1959, s. 41).

Ə.Ə.Qədirov problemlə bağlı olaraq məktəblilərdə mücərrədləşdirmənin inkişafını irəli sürür. Onun fikri belədir ki, "təhsilin ilk illərindən başlayaraq şagirdlər məfhumlarla tanış olur, onları mənimsəyirlər. Onların mənimsənilməsində mücərrədləşdirmə bacarığı mühüm rola malikdir. Bu cəhət bir daha onu göstərir ki, müasir dövrdə şagirdlərdə mücərrədləşdirmə qabiliyyətinin inkişaf etdirilməsi çox vacib məsələlərdən biridir" (Qədirov, 1973, s. 6). Ə.Ə.Qədirovun tədqiqatları göstərmişdir ki, mətnin mənimsənilmə dərəcəsi ilə şagirdin müəyyən təsəvvür qruplarını mücərrədləşdirməsi arasında üç nisbət növü vardır:

• a) yada salınmış təsəvvürlərin tamlığı, əlaqəli nağıl etmənin bütövlüyünə uyğun gəlir;

• b) müəyyən təsəvvürlər qrupunu ayırmaq tapşırığı zamanı onlar bütöv (rabitəli) mətndən nağıl etmə zamanı nisbətən daha çox təsəvvürlər yada salırlar;

• c) şagirdlər mətni sərbəst nağıl etdikdə onu tam söyləmələrinə baxmayaraq, mücərrədləşdirmə tapşırığı verildikdə nisbətən çətinlik çəkir, mətndən süjetləri ayıra bilmir və ya çox az ünsürləri təcrid edirlər" (Qədirov, 1973, s. 100).

Müstəqillik və tənqidilik insanın idrak fəaliyyətinin ən yüksək nəticəsi, həm də ən səmərəli, faydalı üsuludur. Belə bir idrak üsuluna sahib olmaqla, insan müxtəlif sahələrdə müvəffəqiyyətlə yaradıcı fəaliyyət göstərməyə qadir olar: "Onlar daha çox təlim prosesində formalaşır, inkişaf edir və müxtəlif təlim şəraiti həmin keyfiyyətlərin təşəkkülünə də müxtəlif təsir göstərir. Bu cəhətləri araşdırmaq, əqlin tənqidiliyinin müəyyən yaş dövründə inkişaf dinamikasını müəyyənləşdirmək, ona təsir göstərən bəzi mühüm amilləri aşkar etmək, təlim və inkişaf arasındakı qarşılıqlı münasibəti aydınlaşdırmaq üçün həlledici əhəmiyyətə malikdir".

Ə.S.Bayramov bununla bağlı olaraq göstərir ki, yeniyetmələr məfhumlara yiyələnmə prosesində yerinə yetirdikləri əməliyyatlara görə kiçikyaşlı məktəblilərdən fərqlənirlər. "Onlar məfhumu konkret surətlərlə, təsəvvürlərlə açarkən daha tutarlı misallar gətirir, nümunələr göstərirlər. Deməli, konkretləşdirmə və nümayiş etdirmə prosesləri də onlarda fərqli olur" (Bayramov, 1967, s. 141).

## Nəticə

Yeniyetmədə təfəkkürün inkişafına qrammatikaya aid qayda və qanunların mənimsənilməsi də ciddi təsir edir. Çünki qrammatika mücərrəd elmdir, o, insan təfəkkürünün uzun sürən mücərrədləşdirmə fəaliyyətinin nəticəsidir. Buna görə də qrammatikanın mənimsənilməsi üçün mücərrəd təfəkkürün özünün kifayət qədər inkişaf etməsi lazımdır. Ə.S.Bayramovun təhlillərindən bu nəticəyə gəlmək olur ki, yeniyetmələrdə mücərrədləşdirmə və konkretləşdirmə prosesləri də yüksək səviyyədə və nisbətən mühüm əlamətlər hesabına gedir. Bu proses tədricən baş verir. Təlim prosesində belə məfhumlar getdikcə dəqiqləşir və onlar məfhuma yeni əlamət daxil etmir, onu mühüm əlamətlərinə görə səciyyələndirirlər. Ona görə də yeniyetmələrin təsəvvürlərində məfhumlar sistemləşir. Belə sistemləşmiş məfhumlara istinad edərək yeniyetmələr təlim fəaliyyətində fəallıq göstərirlər, yeni və orijinal misallar göstərirlər, öz danışıqlarında müvafiq sözlərin məcazi mənasını da anlamağa başlayırlar.

Bunlara baxmayaraq, yeniyetmələrin təfəkkürü daha fəal xarakter daşıdığından bu yaşda şagirdlərdən təlim prosesində daha artıq müstəqillik tələb edilir. "Bu isə dərsin daha fəal olmasını, şagirdlərin ağlına qida verməsini, sinifdənkənar materialların düşündürücü olmasını, əqli gərginlik tələb etməsini zəruri edir" (Bayramov, 1967, s. 143).

Təhlildən göründüyü kimi, yeniyetmələrin idrak fəallığının motivasiyası onların idrak maraqları ilə sıx bağlıdır. Əgər maraqlar sahəsi genişdirsə, yeniyetmədə özünüfəallaşdırma motivasiyası dinamik qaydada inkişaf edir. Burada idrak motivasiyasının inkişafına təsir göstərən digər mühüm

amil yeniyetmənin təhsil aldığı məktəbin, sinfin, o cümlədən müəllimin problemə münasibətidir. Təhsilə olan münasibət son nəticədə özünü təhsil mühitində göstərir. Bu amillər bir-birini tamamladıqda yeniyetmələrin idrak maraqları onların şəxsiyyəti ilə qarşılıqlı əlaqədə inkişaf edəcəkdir.

## Ədəbiyyat


1. Bayramov, A.S. (1967). *Məktəblilərdə əqli keyfiyyətlərin inkişafının xüsusiyyətləri*. Maarif.
2. Çudinova, E.V. (2005). Yeniyetmənin təlim fəaliyyətində modelləşdirmənin xüsusiyyətləri. *Psixologiya məsələləri*, (4), 107–117.
3. Əlizadə, Ə.Ə., Əlizadə, H.Ə. (2008). *Yeni pedaqoji təfəkkür*. ADPU nəşriyyatı.
4. Əliyev, R.İ. (2006). *Tərbiyə psixologiyası*. Nurlan.
5. Fridman, L.M. (1977). *Məktəb təlim məsələlərinin məntiqi-psixoloji təhlili*. Pedaqoqika.
6. Həmzəyev, M.A, Babayev, Ş.M, Şükürova, N.M. (1963). *Təlim psixologiyasının bəzi məsələləri*. Maarif.
7. Krutetski, V.A., Lukin, N.S. (1965). *Yeniyetmənin psixologiyası*. Prosveşeniye.
8. Qədirov, Ə.Ə. (1973). *Kiçik məktəblilərdə mücərrədləşdirmənin inkişafı*. Maarif.
9. Məhərrəmov, M.C. (1953). *Məktəblilərdə iradənin tərbiyəsi*. Azərnəşr.
10. Məhərrəmov, M.C. (1965). *Yaxşı oxumağın sirləri*. ANB.
11. Markova, A.K. (1978). Məktəblilərin təlim fəaliyyətinin motivasiyası. *Psixologiya məsələləri*, (3), 136–143.
12. Morozova, N.Q. (1979). *Müəllimə idrak marağı haqqında*. Znaniye.
13. Morozov, M.F. (1959). *Məktəblilərin təlim işində fikrin müstəqilliyinin tərbiyəsi*. Uçpedqiz.
14. Şukina, A.İ. (1962). *Şagirdlərin idrak maraqlarının formalaşması*. Uçpedqiz.
15. Vıqotski, L.S. (1991). *Pedaqoji psixologiya*. *Pedaqogika*.


Daxil oldu: 04.08.2025
Qəbul edildi: 08.11.2025

DOI: https://doi.org/10.36719/2789-6919/52/54-60

**Gülnar İsmayılova**
DİN Daxili Qoşunların Hərbi İnstitutu
https://orcid.org/0009-0004-0045-961X
gulnarqebleyeva@gmail.com

# Azərbaycan dilində elmi məqalələrin yazılması və təqdimatında qarşıya çıxan problemlər

## Xülasə

Akademik savadlılıq müasir universitetlərin elmi fəaliyyətində əsas komponent hesab olunur və akademik kommunikativ səriştəliliyin formalaşmasında mühüm rol oynayır. Bu səriştəlilik mətnlərin hazırlanması, elmi məqalələrin beynəlxalq standartlara uyğun yazılması və metadiskurs anlayışının öyrənilməsi ilə əldə edilir. Metadiskurs müəllifin oxucu ilə qarşılıqlı əlaqəsini təmin edən dil vasitələrini əhatə edir və interaktiv və interaksional ölçülərə malikdir. İnteraktiv metadiskurs mətnin strukturunu, informasiya axınını və oxucuyönümlü naviqasiyanı təşkil edərkən, interaksional metadiskurs müəllifin mövqeyini ifadə edir və oxucu ilə dialoqu gücləndirir. Müasir dövrdə informasiya bolluğu şəraitində interaktiv metadiskursun sistemli şəkildə araşdırılması xüsusilə vacibdir.

Azərbaycan dilində elmi məqalələrin yazılmasında əsas problemlər mövzu seçimi, dil və struktur, elmi üslubun qorunması, nəticələrin təqdimatı və təkrarçılıqla bağlıdır. Məqalələr tədqiqatın məqsəd və metodologiyasını, əldə edilmiş nəticələri və tövsiyələri aydın və məntiqli şəkildə əks etdirməli, abstrakt, giriş, əsas hissə, nəticə və istifadə edilmiş ədəbiyyatdan ibarət struktur təmin etməlidir. Abstrakt oxucuda ilkin maraq yaratmalı və tədqiqatın əsas məzmununu qısa şəkildə təqdim etməlidir. Elmi məqalələrin beynəlxalq nəşrlərdə qəbul olunması müəlliflərin təcrübəsinə, yazı bacarıqlarına və dünya standartlarına uyğun hazırlanmasına bağlıdır. Bu həm gənc alimlərin professional inkişafına, həm də ölkəmizin elmi imicinə mühüm təsir göstərir.

***Açar sözlər***: *elm, məqalə, təqdimat, dil, kommunikasiya*

**Gulnar Ismayilova**
MIA Military Institute of Internal Troops
https://orcid.org/0009-0004-0045-961X
gulnarqebleyeva@gmail.com

# Problems in Writing and Presenting Scientific Articles in the Azerbaijani Language

## Abstract

Academic literacy is a key component of scientific activity in modern universities and plays a vital role in developing academic communicative competence. This competence is cultivated through the preparation of texts, writing of scientific articles in accordance with international standards, and understanding of metadiscourse. Metadiscourse encompasses linguistic resources that facilitate interaction between the author and the reader, comprising interactive and interactional dimensions. Interactive metadiscourse organizes the text's structure and information flow, guiding the reader, while interactional metadiscourse expresses the author's stance and promotes engagement with the reader. In the current era of information abundance, systematic examination of interactive metadiscourse is increasingly important.

In Azerbaijani scientific writing, common challenges include selecting an appropriate topic, maintaining linguistic and structural clarity, adhering to academic style, presenting results effectively, and avoiding repetition. Scientific articles should clearly reflect research objectives, methodology, findings, and recommendations, following a structured format that includes an abstract, introduction,


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

main body, results, and references. The abstract should concisely convey the study's main content and capture the reader's initial interest. Acceptance of articles in international journals depends on authors' experience, writing skills, and adherence to global standards. Addressing these challenges enhances not only the professional development of young researchers but also the country's scientific reputation.

***Keywords:*** *science, article, presentation, language, communication*

## Giriş

Dövrün qabaqcıl universitetlərinin ən başlıca ideya komponentini akademik savadlılıq konsepsiyası təşkil edir. Akademik savadlılıq, akademik ünsiyyətin başlıca komponentidir. Akademik kommunikativlik səriştəliliyinin əsası müəyyən fənlərlə ABŞ və Avropa universitetlərində tədris edilir. Akademik səriştəliliyin, savadlılığın formalaşdırılmasında akademik mətnlərin tərtibinin öyrənilməsi və beynəlxalq normalara əsasən elmi məqalələrin yazılma qaydalarının öyrənilməsi vacib şərtlərdən biridir. Burada məqsəd mətnlərin necə yazılmasını mənimsətmək və problemli şəxsi tədqiqat işlərinin istiqamətlərini müəyyən etmək və yazmaq bacarıqlarını inkişaf etdirməkdir. Bu ənənə ABŞ və Avropa universitetlərinin ayrılmaz tərkib hissəsi kimi daim diqqət mərkəzindədir.

Tədqiqatlar göstərir ki, akademik yazıda effektiv kommunikasiyanı təmin etmək üçün yalnız mövzu üzrə bilik kifayət etmir. Mətnin strukturu, oxucu ilə qarşılıqlı münasibət və mənanın aydın çatdırılması da böyük əhəmiyyət kəsb edir. Bu baxımdan, metadiskurs, yəni yazıçıların diskursunu təşkil etmək və oxucularla qarşılıqlı əlaqə yaratmaq üçün istifadə etdiyi dil vasitələri – akademik mətnlərin mənasını və qarşılıqlı təsirini anlamaq üçün əhatəli çərçivə təqdim edir.

Metadiskurs iki bir-biri ilə əlaqəli ölçünü əhatə edir: interaktiv metadiskurs və interaksional metadiskurs. İnteraktiv metadiskurs informasiyanın təşkilini və axınını idarə edir, mətnin əlaqəliliyini təmin edir və oxucunu mətn boyunca istiqamətləndirir. İnteraksional metadiskurs isə müəllifin mövqeyini ifadə edir və oxucularla qarşılıqlı ünsiyyət qurur (Hyland, 2005; Hyland & Tse, 2004).

Bu iki ölçü bir-birinə qarşılıqlı təsir göstərsə də, mövcud tədqiqatların əksəriyyəti əsasən interaksional metadiskursa fokuslanmışdır (Abdollahzadeh, 2011; Gong, 2023; Hu & Cao, 2015). Bu isə xüsusilə müasir dövrdə informasiya bolluğu şəraitində akademik yazıda aydınlıq və mətnin naviqasiyasına tələbin artması səbəbindən interaktiv metadiskursun daha sistemli şəkildə araşdırılmasına ehtiyac olduğunu göstərir.

Azərbaycan dilində elmi məqalələrin yazılması və təqdimatı sahəsində qarşıya çıxan problemlər məhz bu kontekstdə nəzərdən keçirilə bilər. Müəlliflərin dil və struktur üzrə qarşılaşdıqları çətinliklər, oxucu ilə effektiv ünsiyyət qurmaq imkanlarını məhdudlaşdırır və elmi məqalələrin qəbulu prosesində əsas maneələrdən birinə çevrilir. Bu səbəbdən metadiskursun hər iki ölçüsünün nəzərə alınması, mətnin aydınlığı, oxunaqlılığı və təqdimatının keyfiyyətinin artırılması baxımından böyük əhəmiyyət kəsb edir.

Elm anlayışı, elmi biliklərin əldə olunması ilə bağlı olan yaradıcılıq fəaliyyətini əhatə edən: insan, idarə və təşkilatlar, cihaz və avadanlıqlar, elmi-tədqiqat işləri kimi təşkiledicilərdən ibarətdir. Elmlə məşğul olan insanın əsas məqsədi bir tərəfdən obyektiv bilikləri əldə etməkdən, digər tərəfdən onları nəzəri cəhətdən sistemləşdirməkdən ibarətdir. Ümumilikdə, elm insanların mənəvi fəaliyyəti olub, təbiət, cəmiyyət haqqında biliklərin əldə olunması, həmçinin real faktlar və onlar arasında mövcud olan qarşılıqlı əlaqə əsasında həqiqətin öyrənilməsi və yeni qanunauyğunluqların aşkara çıxarılmasından ibarətdir.

Müəyyən həyat hadisələrinin qanunauyğunluğunu və səciyyəvi cəhətlərini aydınlaşdırmaq, faktlarla ictimai-siyasi mahiyyətini, əməli əhəmiyyətini aşkara çıxarmaq məqalənin fərqləndirici xüsusiyyətidir.

Elmi nəşrin məqsədi odur ki, alimlərin öyrənilmiş elmi mövqelərinə və özünün eksperimental işinə əsaslanaraq, müəllif işlənən problemə öz baxışını ortaya qoysun. Bu özündə aşağıdakıları ehtiva edir:

✓ tədqiqat zamanı istifadə etdiyiniz elmi yanaşma, metodologiya və konsepsiyanın yeniliyinin əsaslandırılması;

✓tədqiq olunan proses və ya fenomenin qanunauyğunluqlarının və meyillərinin açıqlanması;
✓təcrübə zamanı əldə edilmiş nəticələrin təhlili;
✓nəticələr və tövsiyələr.

Tədqiqatın nəticələrinin dərci müəllifin əsas fikirlərini geniş auditoriyaya çatdırmağa imkan verir. Tədqiqat elə bir formada olmalıdır ki, tədqiq olunan mövzu dar mənada deyil, geniş mənada araşdırılmalı ona minimum vaxt sərf edilməlidir. Tezis elmi və ya elmi-praktik konfransda, simpoziumda məruzənin əsas müddəalarını aydın, qısa, lakin mənalı şəkildə ortaya qoymalıdır. Bu ona görə edilir ki, oxucu öyrənilən mövzu üzrə aparılan tədqiqatın əsas istiqamətlərini daha yaxşı təsəvvür edə bilsin. Tezislər hazırlayarkən uzun ifadələrə qapılmamalı və mətn rəqəmsal materiallar, qrafiklər, cədvəllərlə doldurulmamalıdır. Tədqiqatın əsas müddəaları aydın və qısa şəkildə ifadə edilməlidir.

Dilçilikdə elmi mətnlərin tərtibinə verilən tələblər müxtəlifdir. Belə ki, rus dilçiləri E.Yarskaya-Smirnova, V.V.Radayev, İ.B.Korotkina "elmi mətn" anlayışını "akademik mətn" anlayışı ilə eyniləşdirərək həm tələbələrin, həm də alimlərin elmi işlərini "akademik" termini ilə ifadə edirlər. Beynəlxalq aləmdə alimlər elmi mətnlərin tiplərini müxtəlif kateqoriyalara bölürlər:

1. İlkin janrlar: məqalə, monoqrafiya, resenziya (rəy), dərslik və ya dərs vəsaiti, məruzə, çıxış, prezentasiya, mühazirə, dissertasiya;
2. Sonrakı janrlar (yəni ilkin janrlar əsasında onların həcmlərinin qısaldılması yolu ilə yaranan mətnlər: annotasiya (məqalə, məruzə, dissertasiya və ya kitab haqqında qısa məlumat), avtoreferat (dissertasiyanın qısaldılmış şərhi, tezis (məqalə və ya çıxışın materiallarının qısa təsviri, xülasəsi), konspekt (bir və ya bir neçə ilkin mətnin əsas müddəaları);
3. Tədris-metodik: dərs vəsaiti, iş proqramı, metodik göstərişlər;
4. Elmi-tədris: mühazirə, məruzə, seminarda çıxış, kurs işi, esse, referat (İsmayılova, 2022, s. 41).

**Tədqiqat**

Elmi məqalə aparılmış tədqiqatın konkret probleminə həsr olunmuş, ardıcıl və dolğun görünüşə malik əsərdir. Ətraflı arqumentasiya tələb edən ən əhəmiyyətli elmi nəticələri əks etdirmək üçün istifadə olunur. Elmi məqalələrin əsas təqdimat forması nəşr formasıdır. Lakin müasir dövrdə internet texnologiyasının inkişafı ilə əlaqədar olaraq bəzi mətbəələr (təşkilatlar) elmi məqalələrin elektron formasını müxtəlif saytlarda yerləşdirməklə oxuculara təqdim edirlər. Məqalənin həcmcə çox böyük olmaması tədqiqatçı yaradıcılığının müxtəlif baxışlarını araşdırmağa imkan yaradır.

Elmi məqalə çox vaxt böyük tədqiqatın bir hissəsi kimi də nəşr olunur. Elmi məqalədə aparılmış tədqiqat işinin aktuallığı, hesabatı və nəticəsi lakonik, eyni zamanda, aydın şəkildə əks etdirməlidir. Oxucunun bu məqaləyə lazımi qiymət verə bilməsi üçün məqalədə kifayət qədər məlumat, əsaslandırıcı material və informasiya mənbələrinə istinadlar olmalıdır. Məqalə digər nəşrlərə təqdim olunmamış yeni nəzəri və praktiki tədqiqatların nəticələri olub, mümkün qədər mükəmməl redaktə olunmalı vəelmi məqalələrin tərtibinə qoyulan tələblərə cavab verməlidir.

Yaxşı elmi məqalə yazmaq üçün ilk növbədə, onun planını tərtib etmək və elmi üslubun tələbinə riayət etmək lazımdır. Bu məqalənin oxucu tərəfindən birmənalı qəbul edilməsini və onda verilən məlumatların qiymətləndirilməsini təmin edir. Elmi üslubun əsas xüsusiyyətləri – məntiqlilik, birmənalılıq və obyektivlikdir (Talıbov & Həşimov, 2015, s. 4).

Elmi məqalənin strukturu, əsasən tədqiq edilən məsələ, tapşırıq üzrə müasir vəziyyət, işin məqsədi, tədqiqatın metodları, müzakirəyə çıxarılan məlumat və nəticələr mümkün qədər lakonik və aydın şəkildə verilməlidir.

Elmi məqalə əsasən aşağıdakı hissələrdən ibarətdir:

1. Annotasiya
2. Giriş
3. Əsas hissə
4. Əsas nəticələr və onların müzakirəsi
5. İstifadə edilmiş ədəbiyyat

Yaxşı yazılmış məqalə tədqiqat işinin məntiqi yekunlaşmasının göstəricisidir. Ona görə də tədqiqat işinin aparılması sahəsində təkmilləşməklə yanaşı, məqalə yazmaq sahəsində də təcrübəni artırmaq vacibdir.

Metodologiyada elmi bilik və öyrədici fəaliyyətdən ibarət ümumi sistemi struktur baxımından məhdudlaşdırmaq üçün empirik və nəzəri səviyyələr mövcuddur (Əliyev, 2016, s. 269). Nəşr olunan məqalələr alimin yetkinliyinin, özünü müəyyən vəzifədə təsdiqləməsinin mühüm göstəricisidir. Gənc alim məqalə yazmağı öhdəsinə götürəndə aşkar problemlərlə qarşılaşa bilər. Ən vacibi isə elmi məqaləni prinsipcə necə yazmaq olar? Bu anda tədqiqatçı çaşqın ola bilər və tam olaraq yolunu düzgün müəyyən edə bilməz və nə edəcəyini başa düşə bilməz. Təbii ki, bu məsələdə hər kəsin öz yolu var və hər kəs müxtəlif yollarla sıfırdan məqalə qurmağa başlayır.

Ümumiyyətlə, Azərbaycan dilində elmi məqalələrin yazılmasında qarşıya çıxan ən başlıca problemlərdən biri mövzunun seçilməsidir. Bunun üçün elmi məqalələrin mövzusunun seçilməsinə müəyyən meyarlar verilmişdir, belə ki, mövzu seçimi yalnız hazırki dövr üçün deyil, eyni zamanda, gələcək perspektivlik üçün seçilmiş olsun və mövzu seçiminin maraqlı olması həm tədqiqatçıya, həm də elmi rəhbərə motivasiya verir və daha çox diqqəti cəlb edir. Mövzu seçimi, həmçinin, gələcək elmi məqalənin növünü müəyyən edir.

Məzmun baxımından elmi məqalələri aşağıdakı növlərə ayırmaq olar:

1. *Nəzəri* – burada tədqiqatçı əvvəlkilərin təhlili əsasında işləyir, bu mövzuda nəşrləri, ideyaları, konsepsiyaları, rəyləri ümumiləşdirir və onların yeni şərhi müəllifin fikrinin əsaslan-dırılması ilə verilir;
2. *Problem-situasiya* – məqalənin problem-situasiya kimi qoyuluşu, məsələnin həlli istiqamətində konkret həll yollarının tapılması və problemlərin müzakirə olunması;
3. *Metodoloji* – prosesin idarə edilməsi praktik və elmi fəaliyyət zəminində baş verir;
4. *Faktiki* – konkret hadisələr haqqında məlumat, alimlərin, xüsusi qurumların (simpozium, konfrans, konqreslər), eyni zamanda, elm xadimlərinin fikirlərinin nümunə kimi göstərilməsi. Məqalənin mövzusu hədsiz uzun, hədsiz dərəcədə qısa olmamalıdır və ən az 3 sözdən, ən çox isə 12-15 sözdən çox olmamalıdır. Təcrübə göstərir ki, məqalə bitdikdən sonra yaxşı başlıq əldə edilir.

Məqalənin mövzusunu seçərkən aşağıdakı ümumi qaydalara əməl etmək vacibdir:

1. Başlıq informativ olmalıdır;
2. Başlıq oxucunun diqqətini cəlb etməlidir;
3. Başlıqda bütün məqalədə olduğu kimi elmi üsluba ciddi riayət edilməlidir;
4. Tədqiqatın əsas mövzusunu aydın şəkildə əks etdirməli, oxucuda çaşqınlıq yaratmamalıdır;
5. Başlıq bəzi açarları ehtiva etməlidir və məqalənin mahiyyətini əks etdirən sözlər başlığın əvvəlində görünməsi məsləhətdir;
6. Başlıqda yalnız ümumi qəbul edilmiş abbreviaturalardan istifadə edilə bilər.

Tədqiqatın aparılması zamanı elmi məqalənin yazılma formasında da problemlər meydana çıxa bilir. Məqalənin yazılma formasını dəqiq bilmək tədqiqat işinin səmərəli və faydalı gedişatına zəmin yaradır. Elmi məqalənin yazılma forması aşağıdakı ardıcıllıqla verilməlidir:

- annotasiya;
- açar sözlər;
- giriş;
- əsas hissə (tədqiqat metodları, metodologiya, əsas nəticələr və onların müzakirəsi);
- nəticə (nəticələr);
- istinad edilən mənbələrin siyahısı

Həmçinin, açar sözlər, abstraktdan başqa məqalənin sonunda müəllifin təşəkkürü də qeyd oluna bilər. Abstrakt məqalə üçün geniş başlıq rolunu oynayır və əsərin məzmunundan bəhs edir. Burada müəllif ən dəyərli fikirlərini qeyd etməli, tədqiqat işini düzgün təsvir etməli və oxucuda ilkin təəssüratı korlayan ifadələrdən istifadə etməməlidir. Qeyd etmək lazımdır ki, Azərbaycan dilində "abstrakt" termini müxtəlif mənalarda işlənir və istifadə dairəsindən asılı olaraq müxtəlif konspetual məzmunu ehtiva edir.

Oxucu əksər halda öncə abstraktla tanış olur, elmi işə diqqət və maraq oyadacaq imkan kimi baxır. Abstrakt tezis, giriş deyil, zaman və məkan darlığı çərçivəsində elmi işi əvəz edə biləcək gücdədir, elmi işin metodologiyası, başlıca tapıntıları və s. daxil olmaqla vacib məqamlar açıqlanır – əsas funksiyası nə edildiyi deyil, nə kəşf olunduğunu göstərmək, önəmli detalların dəqiq xülasəsi, böyük bir işin mühüm keyfiyyətlərini qısaldılmış formada ehtiva etməkdir. Həcmi mövzu və nəşriyyat tələblərinə uyğun dəyişə bilər (Qurbanzadə, 2019, s. 238).

Abstrakt oxucunu düşündürür, mövzuya marağını cəlb edir.

Abstrakt:

– problemi bildirir;
– həll etməyin əhəmiyyətinə diqqəti yönəldir;
– tapılan həll yolu ilə nəyə nail olmağın mümkünlüyünü əsaslandırır;
– nəyin əldə ediləcəyi bildirilir.

Elmi məqalələrin tərtibində yaranan digər problemlərdən ən başlıcası tədqiqatın aparılması zamanı təkrarçılığa yol verilməsidir. Eksperimental (praktiki) tədqiqata həsr olunmuş əsərdə müəllif eksperimental metodologiyanı təsvir etməyə, əldə edilən nəticələrin düzgünlüyünü və təkrarlana-bilirliyini qiymətləndirməyə borcludur. Məqalə üzərində işləməyin ən vacib elementi işin nəticələrinin təqdimatı və onların fiziki izahıdır. Müəllif bunu birmənalı olaraq aydın başa düşməlidir. Bunun üçün müəyyən qaydalara əməl edilməlidir: yalnız ən aydın və birmənalı terminlərdən istifadə etmək; eynimənalı sözü bir neçə sinonimlərdən istifadə edərək qeyd etmək, eyni fikri bir neçə yerdə fərqli cümlələrdə işlətmək və eynimənalı xarici dillərdən götürülmüş terminlərin sui-istifadə edilməsi və s.

Bəzən tədqiqatçılar üslub problemləri ilə rastlaşırlar. Elmi məqalənin üslubu qəbul edilmiş ümumi qaydaya əsasən elmi üslubda yazılmalıdır. Elmi üslub ədəbi dilin kitab üslubudur ki, o, bəyanatın ilkin nəzərdən keçirilməsi, monoloq xarakteri, linqvistik vasitələrin ciddi seçilməsi, standartlaşdırılmış nitqə meyil kimi bir sıra xüsusiyyətləri ilə xarakterizə olunur.

Elmi əlaqələrin sürətlə inkişaf etdiyi müasir dövrdə oxunmayan, istifadə edilməyən və istinad olunmayan məqalənin heç bir dəyəri yoxdur. Məqalədə alınmış nəticələrin yeni, nəzəri və praktiki cəhətdən əhəmiyyətli olması aydın və məntiqi mülahizələrlə təqdim edilməlidir. Belə olduğu halda redaktorlar və rəyçilər işin elmi mənasını asanlıqla anlaya və qiymətləndirə bilərlər.

Elmi üslubun əsas vəzifəsi məlumatı oxucuya aydın və dəqiq çatdırmaqdır. Buna ən yaxşı şəkildə emosional vasitələrdən istifadə etmədən, elmi-tədqiqatın formal-məntiqi üsulu ilə nail olmaq olar. Elmi üslubun digər funksiyası oxucunun məntiqi təfəkkürünü aktivləşdirmək üçün nəzərdə tutulmuşdur. Elmi mətn məzmundan nəticə çıxaran ardıcıllığa malikdir, onlar ardıcıldır, mətn ayrı-ayrı semantik bloklara bölünür, fikrin xüsusidən ümumiyə və ya ümumidən xüsusiyə hərəkətini əks etdirir.

Əlyazma ilə işləyərkən elmi üslubun bəzi linqvistik vasitələrindən istifadə etmək vacibdir:

- Ümumiləşdirilmiş semantik sözlər (əhəmiyyət, sistemlilik, artım, azalma, tətbiq və s.);
- Hər hansı bir elmə xas olan terminlər və ümumi elmi terminlər, anlayışlar (qanun, prinsip, təsnifat, məlumat, ehtimal, hipotez və s.);
- Təsvir olunan hadisələrin təbii xarakterini göstərən sözlər (adətən, həmişə, müntəzəm, hər, hər necə qaydada və s.);

Müasir elmi dünyada əksər elmi tədqiqatlar kollektiv şəkildə aparılır. Buna uyğun olaraq elmi məqalələr də tez-tez bir neçə həmmüəllif tərəfindən imzalanır. Burada əsas şərt həmmüəlliflər arasında razılaşdırılmış qərarla əsas müəllifin müəyyən edilməsidir.

Elmi məqalənin təqdimatı onun yazılma qaydası qədər çox önəmlidir. Yazılmış elmi məqalənin təqdimatı zamanı müəyyən problemlərin yaranması, tədqiqat işinin düzgün ifadə olunmaması ciddi problemlərə gətirib çıxarır. Tədqiqat işinin təqdimatı zamanı şifahi nitq əvvəlcədən düzgün seçilməli, çıxış zamanı uğur əldə etmək üçün slayd forması tərtib olunmalıdır. Nitqdə məzmun, intonasiya, şərhin tərzi, jestlər, mimika mühümdür. Yadda saxlamaq lazımdır ki, informasiyanın, təqribən, yarısı intonasiya vasitəsilə ötürülür. Müxtəlif şəkildə söylənən eyni söz və ifadələr tamamilə əks nəticələrə gətirib çıxara bilər. Kifayət qədər ucadan, aydın, ifadəli və anlaşıqlığı təmin etmək üçün sadə

danışmaq lazımdır. Nitq monoton olmamalıdır, amma yuxugətirici "dalğalı" yəni, gah yüksək, gah yavaş səslə də olmamalıdır. Çıxışın emosionallığı məzmuna uyğun olmalı və vəziyyəti nəzərə alınmalıdır. Nitqin ucadan səslənməsinə çalışaraq səs tellərini gərginləşdirmək lazım deyil, rezonatorlardan, səsi qüvvətləndirən orqanlardan ağız boşluğu, burun boşluğu, alın pərləri, döş qəfəsindən istifadəni öyrənmək lazımdır. Çıxış prosesində nəfəsi tənzimləmək üçün düzgün nəfəsalmanı öyrənmək lazımdır. Hazırlıqsız adam nitq prosesində kəskin oksigen çatışmazlığından əzab çəkir, yəni onun damarları şişir, üzü qızarır, tərləyir, nəfəsi və nəbzi sürətlənir. Bu hallardan qaçmaq üçün səsin və nəfəsin düzgün istifadəsi üzərində işləmək, lazımsız fasilələrə yol vermədən, hiss edilmədən səslər arasında nəfəs almağı öyrənmək lazımdır. Ən yüksək səmərəlilik şərhin sadəliyi ilə uzlaşdırılmış nitqin məntiqi perspektivini və aydınlığını təmin edən fikir və sözün ahəngdarlığı ilə əldə olunur.

## Nəticə

Beləliklə, yuxarıda qeyd olunanları nəzərə alaraq elmi dünyagörüş bunu deməyə əsas verir ki, peşəkar elmi cəmiyyətlər çox əhəmiyyətli problemlərin həlli, yeni elmi ideyaların irəli sürülməsi və elmi dairələr daxilində işlənməsi üçün mütəxəssislərin cəlb olunmasına imkan verən təşkilati resurslara və informasiya bazalarına malik olmalıdır. Eyni zamanda, elmi ideyaların qəbulu üçün o, elmi ədəbiyyata əsaslanan elmi kriteriya və metodlara uyğun tərtib olunmalıdır.

Respublikamızda tədqiqatla məşğul olan mütəxəssislərin elmi məqalələrinin dünyanın aparıcı nəşrlərində çap olunmasının günümüzün aktual problemlərindən birinə çevrilməsi bu sahədəki boşluqların mövcud olması ilə bağlıdır. Bir sıra hallarda təqdim olunan məqalələrin yüksək indeksli nəşrlərdə qəbul edilməməsi mütəxəssislərimizin öz dəyərli nəticələrinin yüksək standartlar səviyyəsində hazırlayıb təqdim edə bilməməsindən, bu sahədə təcrübə çatışmazlıqlarından irəli gəlir. Bu çatışmazlıqları aradan qaldıraraq, dünya standartlarına uyğun orijinal elmi əsərlərin yazılması, məqalələrin dünyanın aparıcı, yüksək indeksli jurnallarında çap olunması həmmüəllifin özü üçün bir göstərici olacaq, həm də ümumən ölkəmizin imicinə öz müsbət təsirini göstərəcəkdir.

## Ədəbiyyat

1. Abdollahzadeh, E. (2011). Poring over the findings: Interpersonal authorial engagement in applied linguistics papers. *Journal of Pragmatics, 43*(1), 288–297.
2. Əliyev, R. (2016). *Elmi işlərin yerinə yetirilməsi metodikası: Elmi layihələrin, diplom və dissertasiya işlərinin uğurlu hazırlanmasına dair vəsait*. Alatoran Yayınları. https://www.anl.az/el/Kitab/2017/11/cd/2016-2204.pdf
3. Galin, J.R. (2010). From Incentive to Stewardship: The Shifting Discourse of Academic Publishing. *Language and Communication*.
4. Hermoso, R.A., Larranaga, E.G., Agirre, A.İ. (2025). Assessing Academic and Disciplinary Literacies: Rubric validation to measure argumentation, comparison and source-based writing skills. *Journal of Language and Education,* (3).
5. Hyland, K., Tse, P. (2004). Metadiscourse in Academic Writing: A Reappraisal. *Applied Linguistics*, 25(2), 156–177. https://doi.org/10.1093/applin/25.2.156
6. İsmayılova, M.A. (2022). *Azərbaycan dilində akademik kommunikasiyanın aktual problemləri*. ADPU. https://adpuagcabedi.edu.az/wp-content/
7. Junju, W. (2025). The unveiling diachronic changes in interactive metadiscourse use in the academic writing of applied linguistics over 45 years. *Journal of English for Academic Purposes*. https://orcid.org/0000-0001-8231-8546
8. Qurbanzadə, A.A. (2019). *Elmi-tədqiqata giriş*. Kooperasiya.
9. Mərdanov, M., Həsənova, A. (2018). Nüfuzlu elmi jurnallara məqalə hazırlamağın yolları. *Azərbaycan məktəbi jurnalı,* (4). https://www.anl.az/down/meqale/az_mektebi/2018/04/664369(meqale).pdf

10. Məmmədli, N. (2021). *Azərbaycan dilində işgüzar və akademik kommunikasiya.* Elm və Təhsil.
11. Ovcharov, A.O. (2013). *Aktual'nye problemy sovremennykh nauchnykh issledovanii: metodologiya, ehkonomika, statistika. Sbornik statei.* Direkt Media.
12. Shtoff, V.A. (1978). *Problemy metodologii nauchnogo poznaniya*. Vysshaya shkola.
13. Talıbov, Ə.M., Həşimov, E.Q. (2015). *Elmi məqalələrin yazılma metodikası.* https://www.researchgate.net/publication/367188474I

Daxil oldu: 07.08.2025
Qəbul edildi: 13.11.2025

DOI: https://doi.org/10.36719/2789-6919/52/61-73

**Həcər Abdullayeva**
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası
https://orcid.org/0009-0007-1987-1761
aa_hecer@yahoo.com

# Elektron xəbər başlıqlarında qeyri-səlis məna yaradan leksik-semantik kateqoriyaların təhlili

## Xülasə

Bu məqalədə elektron kütləvi xəbər portallarında yayımlanan xəbər başlıqlarında tez-tez təsadüf olunan qeyri-səlis məna yaradan leksik-semantik kateqoriyalar semasioloji, kontekstual və qeyri-səlis məntiqə əsaslanan üsullar əsasında təhlil olunur. Tədqiqatın əsas məqsədi aparıcı elektron KİV-lərdə qeyri-səlis mənanın yaranmasına səbəb olan leksik-semantik kateqoriyaların kontekst daxilində işlənmə tezliyini müəyyən etmək, fərqli mənalar ifadə etməsini araşdırmaq və bu cür dil vahidlərinin istifadəsinin informasiyanın oxucu tərəfindən qəbuluna və ümumilikdə cəmiyyətdə hər hansı bir məsələ haqqında ictimai rəy və fikrin formalaşmasına necə təsir etməsini araşdırmaqdır. Əldə olunan nəticələr elektron xəbər mənbələrində, xüsusilə başlıqlarda, leksik-semantik vahidlərin seçiminin vacibliyini nəzərə çatdırmaqla ictimai şüurun düzgün istiqamətdə formalaşmasında dildən daha səmərəli istifadəni təşviq edə bilər.

***Açar sözlər:*** *qeyri-səlis məna, leksik-semantik kateqoriyalar, diskurs təhlili, elektron KİV, xəbər başlıqları, leksik qeyri-müəyyənlik, media diskursu, qeyri-səlis məntiq, elektron xəbər mənbələri*

**Hajar Abdullayeva**
Academy of Public Administration under the
President of the Republic of Azerbaijan
https://orcid.org/0009-0007-1987-1761
aa_hecer@yahoo.com

# Analysis of Lexical-Semantic Categories Creating Fuzzy Meaning in Electronic News Headlines

## Abstract

This article analyzes lexical-semantic categories that frequently generate fuzzy meanings in headlines published on electronic mass media portals, based on semasiological, contextual, and fuzzy logic methods. The main aim of the study is to determine the frequency of use of lexical-semantic categories that cause the emergence of fuzzy meaning in leading electronic media within their context, to examine the expression of different meanings, and to investigate how the use of such linguistic units affects the perception of information by readers and, in general, the formation of public opinion and viewpoints in society regarding any issue. The findings emphasize the importance of selecting lexical-semantic units in electronic news sources, particularly in headlines, and may promote more effective use of language in shaping public consciousness in the right direction.

***Keywords:*** *fuzzy meaning, lexical-semantic categories, discourse analysis, electronic media, news headlines, lexical ambiguity, media discourse, fuzzy logic, electronic news sources*

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

## Giriş

Deyilənə görə, böyük bir filosofdan soruşmuşdular: "Bir ölkənin taleyini sizə tapşırsaydılar, hər şeydən əvvəl nə edərdiniz?" Filosof belə cavab vermişdi: "Şübhəsiz ki, dili nəzərdən keçirməklə işə başlardım." Adamların heyrət dolu baxışlarını görən filosof fikrini belə izah etmişdir: "Dil nöqsanlı olsa, sözlər fikri düzgün ifadə etməz. Fikirlər düzgün ifadə olunmasa, görülməli işlər düzgün görülməz. Bunun nəticəsində adət və mədəniyyət pozular. Belə olsa, haqq-ədalət öz yerini düzgün tapmaz. Ədalət pozulsa, çaşmış xalq nə edəcəyini, hara gedəcəyini bilməz." Bu rəvayətdə əsas məsələ sözün anlamının düzgün əks etdirilməsidir. Başqa cür desək, məna dəqiqliyi dilin başlıca, yəni kommunikativ funksiyasını təmin edən əsas amildir.

Elektron kütləvi informasiya vasitələrinin geniş yayıldığı bir zamanda xəbər portallarının cəmiyyətin informasiya ilə təmin olunması məqsədilə dil vasitələrindən, xüsusilə də leksik-semantik vahidlərdən nə dərəcədə səmərəli istifadəsinin araşdırılması dilçilik tədqiqatlarında aktual məsələlərdən biri hesab olunur. Ənənəvi media resursları ilə müqayisədə elektron kütləvi informasiya vasitələrinin əlçatanlığı oxucu kütləsinin, demək olar ki, bütün təbəqələrini əhatə etməsi xəbər başlıqları və mətnlərinin hazırlanması zamanı ifadə vasitələrinin daha diqqətlə seçilməsini zəruri edir. Elektron media mənbələrinin kütləviləşməsi bu sahədə rəqabətin artmasına səbəb olmuşdur, bu da media nümayəndələrinin oxucunun şüuruna təsir etmək və onu müəyyən istiqamətdə formalaşdırmaq hallarının artmasına gətirib çıxartmış və nəticədə informasiyanın dəqiq dillə oxucuya çatdırılmasını deyil, daha geniş oxucu kütləsinin cəlb olunmasını aktuallaşdırmışdır. Bu məqsədlə, xüsusilə də xəbər başlıqlarında mənanın oxucuda daha çox emosional reaksiya doğurması üçün dilin qeyri-səlis məna yaratma imkanlarından istifadə olunur (Fairclough, 1995; Wodak & Meyer, 2001). Qeyri-səlislik, klassik məntiqin sərhədlərini aşaraq, təxmini və şərti anlamlar daşıyan ifadələrin istifadəsinə şərait yaradır. Kamal Abdullanın (Abdulla, 2006) qeyd etdiyi kimi, "qeyri-səlis dil vahidləri nitqin emosional-estetik qatında dominant mövqe tutur". Bu baxımdan, məqalədə Azərbaycan elektron xəbər başlıqlarında qeyri-səlis leksik-semantik vahidlərin istifadə tezliyinin müəyyən olunması istiqamətində araşdırma aparılır və xəbər başlıqlarında geniş istifadə olunan qeyri-səlislik yaradan əsas leksik-semantik kateqoriyalar təhlil olunur. Belə kateqoriyalara çoxmənalılıq, modal ifadələr, dərəcə bildirən sifətlər, qeyri-müəyyən miqdar və zaman bildirən söz və ifadələr aid edilir. Bu xüsusiyyətlərin hər biri konkret nümunələr üzərində nəzərdən keçirilir və onların funksional rolu və oxucu şüuruna təsir mexanizmləri izah olunur.

**Tədqiqat**

*Mövzuya dair ədəbiyyatın icmalı.* Tədqiqat işi bir çox yerli və beynəlxalq tədqiqatçılar tərəfindən formalaşdırılmış nəzəri bazaya əsaslanır. Araşdırma qeyri-səlis məntiqə (Zadeh, 1965), semasiologiyaya (Adilov, Verdiyeva, & Ağayeva, 2019), ümumi dilçiliyə (Axundov, 2006; Qurbanov, 2019; Veysəlli, 2008), müasir Azərbaycan dili leksikasına (Cəfərov, 2007), qeyri-səlis dil modellərinə (Abdullayev, 2013; Abdulla & Əliyev, 2024), diskurs təhlilinə (Foucault, 1969; Fairclough, 1995; Wodak & Chilton, 2005; Van Dijk, 2008; Gee, 2014) və digər nəzəri əsaslara istinad edir.

A.Axundov (Axundov, 2006) "Ümumi dilçilik" əsərində məna strukturlarının tipoloji təsnifatını vermiş və semantik sistemlərə yeni yanaşma təqdim etmişdir. S.Cəfərov (Cəfərov, 2007) "Müasir Azərbaycan dili: Leksika" əsərində leksik vahidlərin sintezi və onların funksional variasiyalarını geniş şəkildə izah etmişdir. F.Veysəlli (Veysəlli, 2008) "Azərbaycan dilçiliyinin fəlsəfi aspektləri" əsərində yazı dilini fəlsəfi aspektdən şərh edərək, "məna ab-havası", qeyri-müəyyənlik və məna çevikliyi kimi anlayışlara toxunmuşdur. A.Qurbanov (Qurbanov, 2019) "Ümumi dilçilik" kitabında dilçilik nəzəriyyəsinin milli və qlobal aspektlərini müqayisəli şəkildə təhlil edərək, leksik-semantik sistemlərin əsas prinsiplərini araşdırmış, dil nəzəriyyəsində zəngin elmi bazanın yaranmasına öz töhfəsini vermişdir. M.Adilov, Z.Verdiyeva, F.Ağayeva (Adilov, Verdiyeva, & Ağayeva, 2019) "Azərbaycan dilinin semasiologiyası" əsərində kontekst daxilində söz və ifadələrin məna çalarlarının necə yarandığını misallar üzərindən təhlil etmişlər.

Leksik-semantik təhlilin qeyri-səlis məntiq əsasında aparılması Azərbaycan dilçiliyində nisbətən yeni, lakin inkişaf etməkdə olan bir yanaşmadır. Qeyri-səlis məntiq nəzəriyyəsi dünyaca məşhur

azərbaycanlı alim Lütfi Zadə tərəfindən 1965-ci ildə irəli sürülmüşdür. Bu yanaşma təbii dilin qeyri-səlis kateqoriyalar üzərində qurulduğunu və riyazi modellərlə təhlil imkanlarını ortaya qoyur. Kamal Abdullanın qeyri-səlis məntiqi dil və nitqin analizində tətbiq etməsi çoxmənalılığın sistemli təhlilini həyata keçirməyə imkan yaradır. Sərxan Abdullayev isə "Qeyri-səlis dilçilik təcrübəsi" əsərində dil faktlarının şərti və nisbi xarakterini önə çəkərək bu yanaşmanın praktik tətbiqini göstərir.

Tədqiqat işində aparılan diskurs təhlilində nəzəri cəhətdən bir sıra nüfuzlu tədqiqatçıların araşdırmalarına istinad edilir. Diskurs təhlili sahəsində Michel Foucault (Foucault, 1969) "Bilik Arxeologiyası" əsərində bilik, dil və güc arasında əlaqəni analiz etmiş diskursları sosial institutların vasitəsilə formalaşan bilik sistemləri kimi nəzərdən keçirmiş, biliyin formalaşması prosesində diskursun strukturunu və onun sosial-tarixi kontekstdə necə meydana gəldiyini izah etmişdir. Norman Fairclough (Fairclough, 1995) media diskursunun ideoloji strukturunu analiz edərək, dilin ideoloji fikir və güc formalaşdırılmasında rolunu "Media Diskursu" əsərində ətraflı araşdırmışdır. Teun A. tədqiq etdiyimiz mövzu ilə bilavasitə əlaqəli Crystal (Crystal, 2003) "The Cambridge Encyclopedia of the English Language" əsərində yeni media və internetin dilə təsirinin sistemli şəkildə təsvirini və bunun əsasında media diskursundakı yeni semantik və leksik tendensiyaların araşdırılmasını qeyd etmək olar. Ruth Wodak və Paul Chilton (Wodak & Chilton, 2005) "(Tənqidi) Diskurs Təhlilində Yeni Yanaşmalar" əsərində tənqidi diskurs analizinin əsas metodoloji prinsiplərini və tətbiq sahələrini müasir nümunələrlə təqdim etmişlər.

Van Dijk (Van Dijk, 2008) isə "Discourse Strategies" əsərində media dilindəki qeyri-səlis ifadələrin oxucuları ideoloji cəhətdən müəyyən istiqamətdə yönləndirməyə xidmət etdiyini vurğulayır. Müəllif "Diskurs və Güc" (Van Dijk, 2008) əsərində dilin sosial güc münasibətlərinin qurulmasında oynadığı rolu və ideoloji dominantlıqların diskurs vasitəsilə necə qurulduğunu təhlil etmişdir. James Paul Gee (Gee, 2014) "Diskurs Təhlilinə Giriş: Nəzəriyyə və Metod" adlı əsərində diskursun dilin istifadəsi ilə sosial praktika arasında əlaqə yaratdığını və bu əlaqənin necə təhlil olunmalı olduğunu əsaslandırmışdır.

Qeyd olunan yerli və beynəlxalq mənbələr bu sahədə yeni araşdırmanın aparılması üçün zəruri nəzəri baza formalaşdırır. Bu sahədə yeni tədqiqatların aparılması xüsusilə vacibdir. Belə ki, yerli mənbələrdə zəngin semasioloji və leksik təhlillər təqdim olunsa da, çoxunda media kontekstində qeyri-səlis ifadələrin diskurs analizinə dair spesifik nümunələr geniş tədqiq olunmayıb. Beynəlxalq tədqiqatlara gəlincə, burada media diskursunun ideoloji aspektləri daha sistemli şəkildə izah edilsə də, qeyri-səlis məntiq əsasında konkret media mətnlərinin təhlili az işlənmiş sahə olaraq qalır. Bu səbəbdən, həm Azərbaycan dili, həm də bir çox digər dillər əsasında qeyri-səlis leksik-semantik strukturların media diskursunda modelləşdirilməsinə ehtiyac vardır. Sözügedən sahədə daha yeni və hərtərəfli araşdırmaların aparılması üçün nəzəri və empirik yanaşmaların sintezi, media mətnlərindəki qeyri-səlis ifadələrin və onların ictimai rəyin formalaşmasına təsirinin daha dərindən öyrənilməsini təmin edəcəkdir.

*Metodologiya*. Tədqiqatın metodologiyası seçilmiş dil vahidlərinin kontekst daxilində qeyri-səlislik yaratmasının müxtəlif oxucular tərəfindən müəyyənləşdirilməsi, qeyri-müəyyənlik səviyyə-lərinin dərəcələnməsi, istifadə edilmə səbəblərinin araşdırılması və sosial-siyasi funksiyalarının aşkar edilməsi məqsədi ilə bir neçə mərhələdən ibarətdir. Tədqiqat üçün Azərbaycan dilində yayımlanan 5 tanınmış və ən çox oxunulan dövlət və özəl elektron xəbər mənbəyi - APA.az, Trend.az, Report.az, Lent.az, Azertag.az seçilmişdir. Empirik materiallar kimi, bu mənbələrdən 2024-2025-ci illər ərzində yayımlanan və siyasi, sosial, iqtisadi mövzuları əhatə edən 50 xəbər başlığı təsadüfi seçim yolu ilə seçilərək onlarda qeyri-səlis mənanın yaranmasına səbəb olan leksik-semantik dil vahidlərinin istifadəsi təhlil olunmuş, qeyri-müəyyənlik səviyyələri dərəcələndirilmiş, istifadə olunma səbəbləri, sosial-siyasi funksiyaları aşkar edilmişdir. Əlavə 1-də həmin məqalə başlıqlarının tarixi, mövzusu və mənbəyi sistemli şəkildə təqdim olunur. Beləliklə, təhlil aşağıda daha ətraflı şərh olunan bir neçə mərhələ üzrə yerinə yetirilmişdir.

1.*Dil vahidlərinin müəyyənləşdirilməsi və təsnifatı:* Qeyd olunan azərbaycandilli mənbələrdəki xəbər başlıqlarından qeyri-səlis mənaya malik olan 5 əsas kateqoriya müəyyən olunmuşdur ki, bunlar da çoxmənalılıq, modal ifadələr, dərəcələnə bilən sifətlər, qeyri-müəyyən miqdarlar və təxmini zaman

ifadələridir və onlara dair nümunələr seçilmişdir. Təhlilə çəlb olunan hər bir dil vahidi müvafiq kontekstdə qəbul etdiyi semantik çalarlarına görə təsnif edilmişdir. Bu mərhələ dilin leksik-semantik səviyyəsindəki qeyri-müəyyənliyin ilkin identifikasiyası üçün vacibdir.

2.*Qeyri-səlisliyin dərəcələndirilməsi:* Müəyyən edilmiş dil vahidləri aşağıdakı 5 dərəcə üzrə təsnif olunmuşdur: 1) demək olar ki, qeyri-müəyyənlik yoxdur; 2) aşağı səviyyədə qeyri-müəyyənlik; 3) orta səviyyədə qeyri-müəyyənlik; 4) yüksək səviyyədə qeyri-müəyyənlik; 5) maksimal qeyri-müəyyənlik. Belə təsnifetmə keyfiyyət yönümlü yanaşma ilə başlıqların aid olduğu mətnlərin konteksti və ifadələrin işlənmə məqsədi nəzərə alınmaqla aparılmışdır. Bu mərhələ qeyri-səlisliyin dərəcəsinin müəyyən olunmasına imkan verir.

3.*İstifadə səbəblərinin təhlili:* Tədqiqat zamanı seçilmiş dil vahidlərinin istifadəsinin səbəbləri, o cümlədən onların oxucu üzərində yaratdığı emosional və koqnitiv təsir, dilin sosial manipulyasiya funksiyası və məsuliyyətdən yayınma kimi aspektlər təhlil edilmişdir. Bu mərhələdə leksik-semantik vahidlərin seçilmə səbəbləri və ideoloji məqsədlərin araşdırılması üçün tənqidi diskurs analizi metodologiyası tətbiq olunmuşdur.

4.*Sosial-siyasi rolun müəyyənləşdirilməsi:* Dil materialının təhlili nəticəsində əldə olunan nəticələr geniş sosial və siyasi kontekstdə nəzərdən keçirilmişdir. Media diskursunda qeyri-səlisliyin sosial güc münasibətlərini qorumaq, ictimai rəyi formalaşdırmaq və müəyyən ideologiyanı ötürmək rolu araşdırılmışdır.

Elektron medianın dilində qeyri-müəyyənlik həm məzmunun oxucuya təqdim edilməsində, həm də informasiyanın təsirində mühüm rol oynayır. Xəbər başlıqlarında istifadə olunan dil vahidləri (modal ifadələr, təxmini zaman ifadələri, dərəcələnən sifətlər və s.) məlumatın ehtimal olunma dərəcəsini, proqnoz xarakterli olmasını, eləcə də spekulyativ məzmununu əks etdirə bilir. Bu kimi məlumatlara əsaslanaraq qeyri-müəyyənliyin dərəcəsinin müəyyən edilməsi xəbərin ideoloji, sosial və siyasi məqsədlərini anlamaq baxımından vacibdir.

Hal-hazırkı araşdırmanın aparılması məqsədilə elektron xəbər başlıqlarında qeyri-müəyyənlik dərəcələrinin sistemli şəkildə təhlil edilməsi üçün başlıqlar müxtəlif oxuculara təqdim edilmiş, onlar tərəfindən 1-5 ballıq qiymətləndirmə sistemi əsasında qiymətləndirilmişdir. Bu qiymətləndirmə sistemi, başlıqlarda işlənən leksik-semantik vasitələrin mətnlərdəki məna ilə birgə təhlil olunaraq daha dəqiq və obyektiv qiymətləndirilməsinə imkan vermişdir. 1-5 ballıq qiymətləndirmə sisteminin strukturu və məntiqi əsasları aşağıda şərh olunur:

1) *Demək olar ki, qeyri-müəyyənlik yoxdur:* Dəqiq tarix, ədəd və ya faktın təqdim olunduğu başlıqlarda informasiyanın dəqiqliyi yüksəkdir. Belə başlıqlar faktoloji təsdiqə malikdir və oxucuya konkret məlumat verir. Bu səviyyənin tətbiqi standart elmi yanaşmada informasiyanın obyektivliyi və təsdiq edilə bilməsi ilə əlaqəlidir (Fairclough, 1995).

2) *Aşağı səviyyədə qeyri-müəyyənlik:* Qısa müddətli proqnoz və ya vaxt göstəricisi ilə birlikdə istifadə olunan ifadələr, məlumatın nisbi dəqiqliyini saxlayır. Bu səviyyə zaman və məzmunun dəqiqləşdirilməsinin media praktikasında necə aparıldığını göstərir (Van Dijk, 2008).

3) *Orta səviyyədə qeyri-müəyyənlik:* “Gözlənilir”, “olacaq”, “təxminən” kimi leksik elementlər məlumatda ehtimal və qeyri-müəyyənliyin artdığını göstərir. Bu, xəbərin potensial müxtəlif oxunuşlarının mümkünlüyünü əks etdirir və məzmunun daha çox interpretasiyaya açıq olduğunu göstərir (Fairclough, 1995; Gee, 2014).

4) *Yüksək səviyyədə qeyri-müəyyənlik:* Modal ifadələr (“mümkündür”, “başlaya bilər”) və mübaliğə kimi işlənən dərəcələnən sifətlər (“rekord”, “görünməmiş”) informasiyanın spekulyativ və interpretativ xarakterini vurğulayır. Bu səviyyədə media oxucuda həyəcan, şübhə, narahatlıq və digər emosional hallar yaratmaq məqsədi güdür (Wodak & Chilton, 2005).

5) *Maksimum səviyyədə qeyri-müəyyənlik:* Sensasiya xarakterli və şişirtmə kimi dəyərləndirilə bilən ifadələr mənbə və əsaslandırmanın olmaması ilə birləşərək, xəbərin informativ dəyərini azaldır, oxucuya daha çox emosional təsir göstərir. Bu, diskurs analizində manipulyasiya və ideoloji məqsədlərlə bağlıdır (Fairclough, 1995; Foucault, 1969).

Təqdim olunan qiymətləndirmə sisteminin elmi araşdırmalarda tətbiqi bir sıra üstünlüklərə malikdir. İlk növbədə qeyd etmək lazımdır ki, sistemli və ardıcıl qiymətləndirmə başlıqlar arasında

qeyri-müəyyənlik səviyyəsini mütənasib və müqayisəli şəkildə təyin etməyə imkan verir və bu baxımdan daha etibarlı elmi əsas yaradır. Bu baxımdan, yuxarıda xarakterizə olunan 1-5 səviyyəli qiymətləndirmə sistemi qeyri-müəyyənliyin sistemli təhlili üçün nəzəri və praktiki cəhətdən əsaslandırılmış vasitə kimi çıxış edir.

Qeyd olunmuş mərhələlər üzrə sistemli metodologiya ilə yerinə yetirilən bu keyfiyyət yönümlü araşdırma elektron kütləvi xəbər mənbələrində yayımlanan başlıqlardakı qeyri-səlis dil vahidlərini aşkar edərək onların funksiyasını dərindən təhlil etmək imkanı verir.

*Təhlil.* Aparılan tədqiqatın empirik hissəsində əldə edilmiş nəticələr aşağıda təqdim edilir və nəzəri çərçivənin işığında onların təhlili həyata keçirilir. Qeyd olunduğu kimi, aparılan təhlil 2024-cü il və 2025-ci ilin ilk altı ayı ərzində 5 aparıcı elektron KİV-dən toplanmış 50 xəbər başlığı üzərində metodologiyada qeyd olunan dörd mərhələ üzrə qurulmuşdur.

Elektron kütləvi informasiya vasitələrində yayımlanan xəbər başlıqları və mətnlərində qeyri-səlisliyin dil vasitəsilə ifadə olunması bir çox hallarda konkretlikdən yayınmaq, emosional təsir yaratmaq, ictimai şüuru formalaşdırmaq və ideoloji mövqe nümayiş etdirmək məqsədi daşıyır. Tədqiqat zamanı qeyri-səlisliyin əsas mənbəyi kimi 5 növ leksik-semantik dil vasitəsi çoxmənalılıq, modal ifadələr, dərəcələnə bilən sifətlər, qeyri-müəyyən miqdarlar və təxmini zaman ifadələri olmaqla müəyyən olunmuşdur.

1. *Çoxmənalılıq* - Çoxmənalılıq eyni sözün bir neçə semantik mənaya malik olması ilə xarakterizə olunur. Bu hadisə media diskursunda ideoloji məqsədlər üçün istifadə olunur – yəni oxucunun informasiyanı müxtəlif şəkillərdə şərh etməsinə şərait yaradır və bu da kommunikativ qeyri-müəyyənliyi yaradan əsas səbəblərdən biri kimi çıxış edir. "Çoxmənalılıq leksik səviyyədə qeyri-səlisliyin əsas törədicisidir. Kontekst dəyişdikcə, sözün semantik potensialı da genişlənir" (Lyons, 1995, s. 58). Məsələn: "Regionda vəziyyət gərgindir" kimi başlıq həm hərbi, həm siyasi, həm də sosial vəziyyətin tənzimlənməsi kimi başa düşülə bilər.

2. *Modal ifadələr* - Xəbər başlıqlarında kifayət qədər tez-tez istifadə olunan modal ifadələr hadisəyə münasibətdə qeyri-müəyyənlik və ehtimal dərəcəsini bildirən dil vahidləridir. "Ola bilər", "görünür ki", "ehtimal olunur", "mümkündür" kimi ifadələr hadisələrin konkretliyini azaldaraq, məsuliyyəti informasiyanı təqdim edən subyektdən uzaqlaşdırır. "Modallıq, danışanın epistemoloji mövqeyini bildirir və mətnə çox zaman strateji qeyri-müəyyənlik əlavə edir" (Palmer, 2001, s. 8). Qeyri-səlis məntiq nəzəriyyəsi də modal ifadələrin, reallığın "tam doğru" və "tam yanlış" kimi qütblərdən ibarət olmadığını göstərməyə xidmət etdiyini vurğulayır (Zadeh, 1975).

3. *Dərəcələnə bilən sifətlər* - Media diskursunda "ciddi", "vacib", "böyük", "çətin" kimi dərəcələnə bilən sifətlər tez-tez işlədilir. Bu sifətlər konkret ölçü və ya müqayisə meyarı olmadan istifadə edildikdə, onların mənası subyektiv və qeyri-sabit xarakter daşıyır. "Dərəcələnə bilən sifətlər kontekstdən asılı olaraq fərqli semantik dəyər kəsb edir və bu, onların manipulyativ gücünü artırır" (Bolinger, 1972, s. 28). Bu tip sifətlərin dərəcə bildirmə xüsusiyyəti, oxucunun reallığı konkret və ya olduğu kimi deyil, ümumi təəssüratla və daha çox emosional təsirlə yüklənmiş şəkildə dərk etməsinə şərait yaradır.

4. *Qeyri-müəyyən miqdarlar* - "Bir sıra", "çoxlu", "bəzi", "bir neçə", "xeyli" kimi ifadələr konkret statistik məlumat təqdim etmədən miqdar bildirir. Bu, oxucu auditoriyasında qeyri-dəqiqlik və manipulyativlik təəssüratı yaradır, lakin faktiki olaraq məlumatın doğruluğunu ölçmək imkanını məhdudlaşdırır. "Kəmiyyətin qeyri-dəqiqliyi media diskursunda məsuliyyətdən yayınma və emosional təsir vasitəsidir" (Van Dijk, 2008, p. 78). Bu vasitə həm informasiya çatışmazlığı şəraitində, həm də ideoloji məqsədlə istifadə olunur.

5. *Təxmini zaman ifadələri* - Hər birimizin xəbər başlıqlarını oxuyarkən qarşılaşdığı "yaxın günlərdə", "tezliklə", "bir müddətdir", "bəzən", "gələcək aylarda" kimi zaman göstəriciləri hadisənin baş vermə vaxtını dəqiq şəkildə göstərmir. Bu qeyri-müəyyənlik səbəbindən hadisənin aktuallıq səviyyəsi oxucunun təxəyyülü əsasında müəyyənləşir. "Təxmini zaman göstəriciləri dilin manipulyativ funksiyasının bir hissəsi kimi işlədilir və konkretliyi azaltmaqla emosional tonu yüksəldə bilir" (Gee, 2014, p. 61). Belə ifadələr oxucuda gözlənti, qorxu və digər hisslər yaratmaqla yanaşı, məlumatın məsuliyyətli şəkildə təqdim edilməsinin qarşısını alır.

İndi isə azərbaycandilli elektron xəbər mənbələrindən götürülmüş aşağıdakı nümunələrin daha əvvəl qeyd olunmuş mərhələlər və kateqoriyalar üzrə təhlilini nəzərdən keçirək.

*Nümunə 1. "ABŞ-da görünməmiş HADİSƏ: üç keçmiş prezident Trampı sərt tənqid etdi."* (27).

*Leksik-semantik kateqoriya:* Çoxmənalılıq ("görünməmiş") + Dərəcələnə bilən sifət ("sərt").

*Qeyri-müəyyənlik səviyyəsi* – 4: "görünməmiş" mübaliğə qismində işlənir və hadisənin xarakteri haqqında subyektiv, emosional təsir yaradır. "Sərt tənqid" də, öz növbəsində, oxucuda güclü emosional reaksiya yaradır.

*İstifadə səbəbi:* Sensasiya yaratmaq, oxucunun diqqətini çəkmək, hadisənin ciddi və qeyri-adi olduğunu vurğulamaq üçün.

*Sosial-siyasi funksiyası:* Siyasi hadisəni dramatikləşdirir, Tramp və keçmiş prezidentlərin münasibətlərində gərginlik mesajı verir, oxucuda siyasi təlatüm hissi oyadır.

*Nümunə 2. "2025-in qaynar nöqtələri - Bu ölkələrdə müharibə başlaya bilər."* (22)

*Leksik-semantik kateqoriya:* Modal ifadələr ("başlaya bilər") + Təxmini zaman ifadələri ("2025-in")

*Qeyri-müəyyənlik səviyyəsi* – 4: "Başlaya bilər" ifadəsi ehtimal, qeyri-müəyyənlik mənası daşıyır; zaman bildirilsə də, hadisənin baş verəcəyinə tam zəmanət verilmir.

*İstifadə səbəbi:* Siyasi riskləri vurğulamaq, oxucuda təhlükə və həyəcan yaratmaq məqsədilə ehtimalı çatdırmaq üçün.

*Sosial-siyasi funksiyası:* Geosiyasi vəziyyətin gərginliyini göstərir, ictimaiyyətin diqqətini təhlükəli regionlara yönəldir və potensial narahatlığı artırır.

*Nümunə 3. "Sovetski"də yeni Bakı: Qoca bina sökülmə növbəsini gözləyir."* (28)

*Leksik-semantik kateqoriya:* Dərəcələnə bilən sifət ("qoca") + Təxmini zaman ifadələri (gözləmə prosesi).

*Qeyri-müəyyənlik səviyyəsi* – 3: "Qoca" sifəti binanın köhnə, köhnəlmiş vəziyyətdə olduğunu bildirir, amma ölçülü dəqiq dərəcə yoxdur. "Növbəni gözləyir" isə qeyri-müəyyən zaman kəsiyini göstərir.

*İstifadə səbəbi:* Sosial vəziyyəti və şəhərsalma problemini yumşaq, lakin təsirli şəkildə çatdırmaq üçün.

*Sosial-siyasi funksiyası:* Mühitdəki dəyişikliklərə diqqət çəkir, sosial və şəhərsalma problemlərini gündəmə gətirir, ictimaiyyətin narahatlığını ifadə edir.

*Nümunə 4. "Yadplanetlilər yerə hücum edə bilərlər – Tarix AÇIQLANDI."* (29)

*Leksik-semantik kateqoriya:* Modal ifadələr ("hücum edə bilərlər")

*Qeyri-müəyyənlik səviyyəsi* – 5: "Yadplanetlilər" və "hücum edə bilərlər" ifadəsi həm elmi fantastika, həm də qeyri-müəyyən ehtimalı təmsil edir; maksimum qeyri-müəyyənlik və spekulyativ xarakter daşıyır.

*İstifadə səbəbi:* Sensasiya və oxucu marağını artırmaq, bəzən siyasi və ya sosial mesajı şifrələmək məqsədi daşıya bilər.

*Sosial-siyasi funksiyası:* Bəzən siyasi mesajların və ya diqqət yayındırma məqsədli xəbərlərin fonunda istifadə olunur; oxucunun təlaş və marağını artırmaq funksiyasını yerinə yetirir.

*Nümunə 5. "Yaxın illərdə güclü maqnit qasırğaları gözlənilir –XƏBƏRDARLIQ."* (30)

*Leksik-semantik kateqoriya:* Dərəcələnə bilən sifət ("güclü") + Təxmini zaman ifadələri ("yaxın illərdə") + Modal ifadələr ("gözlənilir").

*Qeyri-müəyyənlik səviyyəsi* – 4: "Güclü" subyektiv dərəcə kimi çıxış edir, "yaxın illərdə" birləşməsində zaman aralığı qeyri-dəqiqdir, "gözlənilir" sözü ehtimal bildirir.

*İstifadə səbəbi:* İctimaiyyətə xəbərdarlıq etmək, potensial təhlükə barədə diqqəti artırmaq üçün.

*Sosial-siyasi funksiyası:* Təhlükəsizlik məsələlərini gündəmə gətirir, insanların hazırlıqlı olmasına çağırış rolunu oynayır, elm və texnologiya sahəsində ictimai məlumatlandırma məqsədi daşıyır.

*Nümunə 6. "Azərbaycan 2025-ci ildə də beynəlxalq nüfuzunu dinamik şəkildə artırmaqda davam edəcək – ŞƏRH."* (1)

*Leksik-semantik kateqoriya:* Modal ifadə ("davam edəcək") + müsbət proqnoz ("nüfuzunu artırmaq").

*Qeyri-müəyyənlik səviyyəsi* – 3: Məlumat proqnoz xarakterlidir.

*İstifadə səbəbi:* Dövlətin beynəlxalq uğuruna inam yaratmaq.

*Sosial-siyasi funksiyası:* Dövlətin xarici siyasətinin uğurlu olduğunu vurğulamaq.

*Dil vahidlərinin təsnifatı:* Təhlil edilən 50 başlıq üzrə ən çox rast gəlinən qeyri-səlis dil vahidləri müəyyənləşdirilmişdir. Bir sıra nümunələrdən aydın görünür ki, elektron xəbər mətnlərinin başlıqlarında qeyri-səlis məna yaradan leksik-semantik vahidlərdən tez-tez istifadə olunur. Məsələn, *"2025-in qaynar nöqtələri – Bu ölkələrdə müharibə başlaya bilər* – burada qaynar nöqtələr (metaforik çoxmənalılıq), başlaya bilər (modal, qeyri-müəyyən nəticə, gələcəkdə baş verəcək hadisələrin qeyri-müəyyən proqnozu xarakteri daşıyır). *"Yaxın illərdə güclü maqnit qasırğaları gözlənilir* – burada yaxın illər (təxmini zaman), güclü (dərəcələnə bilən sifət, nisbi qiymətləndirmə yolu ilə qeyri-səlislik yaradır), gözlənilir (modal, qeyri-səlis). *"Azərbaycanda 3 milyon vətəndaşı əhatə edən artımlar"* – 3 milyon dəqiq rəqəm olsa da, əhatə edən artımlar qeyri-səlis kəmiyyət bildirir, konkretlikdən uzaq ümumi təsəvvür formalaşdırır. Bu kimi başlıqlar xəbərdarlıq, proqnoz və analitik şərh xarakterli olduğu üçün qeyri-səlis ifadələrdən geniş istifadə olunur.

*Qeyri-səlisliyin dərəcələnməsi:* Təsnif edilmiş dil vahidlərinin qeyri-səlislik dərəcələri keyfiyyət yönümlü qiymətləndirmə yolu ilə təyin edilmişdir. Məsələn, "qeyri-müəyyən miqdarlar" ("bir neçə nəfər", "çox sayda" və s.) kateqoriyasındakı ifadələr ən yüksək dərəcədə qeyri-səlis hesab edilmişdir, çünki bu ifadələr oxucunun təsəvvürünü məhdudlaşdırmasa da, hadisənin miqyasını subyektiv şəkildə formalaşdırır. Modal ifadələr (məsələn, "ehtimal olunur ki") isə orta dərəcədə qeyri-səlislik daşıdığı üçün, ifadənin subyektivliyini göstərsə də, məlumatın mənbəyinə işarə edir. Məsələn, müqayisə edək: *"Yaxın illərdə güclü maqnit qasırğaları gözlənilir"*- qeyri-müəyyən zaman + modal →maksimal qeyri-müəyyənlik. *ABB 2025-ci ilin ilk rübü üzrə maliyyə göstəricilərini açıqladı"*- konkret tarix, dəqiq məlumat - demək olar ki, qeyri-müəyyənlik yoxdur.

*İstifadə səbəblərinin təhlili:* Təhlil zamanı qeyri-səlis dilin istifadəsinin əsas səbəbləri və ideoloji funksiyaları aşkar edilmişdir. Məsələn, "qeyri-müəyyən qüvvələr" kimi ifadələrin istifadəsi halları bir tərəfi birbaşa ittiham etməkdən qaçmaqla məsuliyyətdən yayınma funksiyasını daşıyır. Bu, xəbər mənbəyinin neytral və ya balanslı görünməsi üçün şüurlu bir strateji addım olduğunu göstərir (Fairclough, 1995). "Sərhəddəki gərginlik yüksəlir" kimi başlıqlar isə konkret məlumat verməsə də, oxucuda emosional reaksiya yaratma (Van Dijk, 2008) funksiyasını yerinə yetirir, bu da öz növbəsində daha çox oxucu cəlb etməyə hesablanmışdır. Qeyri-səlis ifadələrin istifadəsi kontekstual olaraq aşağıdakı səbəblərlə bağlıdır. Məsələn, siyasi diskursda dövlətin mövqeyini legitimləşdirmək, gələcəklə bağlı ümid və sabitlik mesajı vermək məqsədi: nümunə: *"Azərbaycan 2025-ci ildə də beynəlxalq nüfuzunu artıracaq."* İqtisadi diskursda qeyri-səlislik əsasən proqnozlarda riskləri yumşaltmağa xidmət edir: nümunə: *"Dünya Bankı 2025-ci il üçün iqtisadi artım proqnozunu yeniləyib".* Sosial diskursda emosional təsir və kollektiv yaddaşın gücləndirilməsi qeyri-səlisliyin bilavasitə nəticəsidir: nümunə: *"20 Yanvar – Azərbaycan xalqının qürur mücəssəməsinə çevrilən tarix."* Regional və beynəlxalq diskursda qeyri-səlis ifadələr vasitəsilə xarici auditoriyaya ünvanlanan diplomatik balanslaşdırma təmin olunur: nümunə: *"Expectations for 2025: Peace, stability, and regional cooperation."* Buradan göründüyü kimi, qeyri-səlislik yalnız dilin təsadüfi xüsusiyyəti deyil, hər diskurs növündə məqsədli ideoloji, siyasi və sosial rol oynayır.

*Sosial-siyasi rolun müəyyənləşdirilməsi:* Əldə olunan nəticələr geniş sosial-siyasi kontekstdə təhlil olunduqda, media diskursunda qeyri-səlis dilin güc münasibətlərinin qorunmasında və dominant ideologiyaların dəstəklənməsində mühüm rol oynadığı aydın olur (Foucault, 1969). Ayrı-ayrı sahələr üzrə nəzərdən keçirsək, siyasi sahədə qeyri-səlislik dövlətin gələcək planlarını "idarə olunan qeyri-müəyyənlik" çərçivəsində təqdim edir, iqtisadi sahədə proqnozların özünü doğrultmaması riskini minimuma endirir, sosial sahədə kollektiv emosional yaddaş və milli həmrəylik funksiyasını gücləndirir, beynəlxalq sahədə qeyri-müəyyənliyi azaltmaqla diplomatik üslubu zənginləşdirir. Yəni, xəbər başlıqlarındakı qeyri-səlislik yalnız tək-tək dil hadisəsi deyil, siyasi məqsədlər üçün bilik sistemini formalaşdıran bir mexanizmdir.

Tədqiqatın nəticələri göstərir ki, elektron xəbər başlıqlarında qeyri-səlis mənanın istifadəsi təsadüfi deyil, əksinə, media müəssisələrinin müxtəlif məqsədlər (reytinq qazanmaq, ictimai rəyi formalaşdırmaq, məsuliyyətdən yayınmaq və s.) üçün şüurlu şəkildə seçdiyi bir strategiyadır. Bu, xüsusilə də qeyri-müəyyənlik yaradan modal ifadələr, dərəcələnə bilən sifətlər, qeyri-müəyyən miqdar və zaman göstəriciləri və çoxmənalılıq yolu ilə yaranır. Bu cür ifadələrin yüksək qeyri-səlislik dərəcəsi oxucunun düşüncə prosesini idarə etməyə imkan verir, çünki oxucu məlumatın dəqiq olmaması səbəbindən hadisəni öz subyektiv təsəvvürünə uyğun şərh etməyə məcbur olur. İqtisadi xəbər başlıqlarında aşağı, siyasi xəbərlərdə orta-yüksək, sosial xəbərlərdə maksimal qeyri-səlislik müşahidə olunmuşdur.

Tədqiqatın TDA (Tənqidi Diskurs Analizi) mərhələsində aşkar edilən məsuliyyətdən yayınma və emosional reaksiya yaratma kimi funksiyalar media dilinin güc münasibətlərini necə əks etdirdiyini göstərir. Bu, mediada dominant ideologiyanın diskursunun formalaşmasına xidmət edir (Gee, 2014). Məsələn, konflikt zonaları haqqında xəbərlərdə tərəfləri adlandırmaqdan yayınan dilin istifadəsi, müəyyən siyasi və ya sosial narahatlıqları qabartmadan, onları idarə etmək imkanı yaradır.

Həyata keçirilmiş tədqiqatda əldə olunan nəticələr, ideoloji funksiyaların müəyyən edilməsi baxımından, qeyd olunan media dilinin həm yerli, həm də beynəlxalq ədəbiyyatda təsbit edilən müvafiq funksiyaları ilə üst-üstə düşür (Wodak & Chilton, 2005). Lakin hal-hazırki tədqiqat, qeyri-səlis məntiqin konseptual tətbiqi ilə mənanın dəqiq olmayan tərəflərini keyfiyyət yönümlü şəkildə qiymətləndirərək, bu sahəyə yeni bir yanaşma gətirir. Beləliklə, media diskursundakı qeyri-səlisliyin ideoloji əsaslarının daha dərin və sistemli şəkildə anlaşılması üçün zəmin yaranmış olur.

## Nəticə

Nəticə etibarilə, seçilmiş 50 məqalə başlığı üzrə qeyri-səlisliyin faizlə ifadəsi və nəticənin qrafik diaqram şəklində təsviri aşağıdakı kimi təqdim edilə bilər:

*Qeyri-səlislik yoxdur* (1 bal) – rəsmi sərəncam, qanun, dəqiq statistik göstəricilər, konkret açıqlamalar (məs: №2, №3, №5, №15, №20, №23, №26, №33, №36, №37, №38, №39, №43, №45, №47 və s.) - təxminən 28 başlıq.

*Aşağı səviyyədə qeyri-səlislik* (2 bal) – başlıqlar qiymətləndirici xarakterlidir, amma konkret dildə ifadələr də diqqəti cəlb edir (məs: №1, №9, №11, №17, №18, №19, №50) - təxminən 7 başlıq.

*Orta səviyyədə qeyri-səlislik* (3 bal) – proqnoz və planlaşdırma xarakterli başlıqlar ("olacaq", "planlaşdırılır") – məsələn №7, №30, №35, №41, №42, №44, №46, №49 və s. - təxminən 9 başlıq.

*Yüksək səviyyədə qeyri-səlislik* (4 bal) – ehtimala əsaslanan, qeyri-dəqiq zaman bildirən başlıqlar. Məs: №12 ("...məsləhətləşmələr..."), №13 ("Expectations for 2025..."), №32 (təhlilçi rəyi) – təxminən 4 başlıq.

*Maksimum qeyri-müəyyənlik* (5 bal) – sensasiya xarakterli, modal feillər "bilər", "gözlənilir" və s. ilə qurulan başlıqlar. Məs: №22 ("müharibə başlaya bilər"), №29 ("hücum edə bilərlər") – təxminən 2 başlıq.

Bu nəticələrin faizlə ifadəsi aşağıdakı göstəricilərin əldə edilməsinə imkan verir:

*Qeyri-səlislik yoxdur (1)* - 28/50 = 56%
*Aşağı səviyyədədir (2)* - 7/50 = 14%
*Orta səviyyədədir (3)* - 9/50 = 18%
*Yüksək səviyyədədir (4)* - 4/50 = 8%
Maksimum səviyyədədir (5) - 2/50 = 4%

50 başlıq üzrə ümumi qeyri-səlislik faizi təqribən 44% təşkil edir. Çoxluq (56%) dəqiq və rəsmi xarakterli başlıqlara aiddir. Ən az faiz dərəcəsi bildirən qrup (4%) isə sensasiya xarakterli başlıqları ehtiva edir və maksimum səviyyədə qeyri-səlislik daşıyır.

ISSN: 3104-4670
e-ISSN: 2789-6919




Bu nəticə, qeyri-səlis məntiq nəzəriyyəsinin (Zadeh, 1965) dilin mənada yaratdığı qeyri-dəqiqliyi ölçmək üçün effektiv konseptual çərçivə kimi çıxış etməsini  təsdiqləyir.

Elektron xəbər resurslarında qeyri-səlis ifadələrin istifadə olunması geniş yayılmış praktikadır. Araşdırmanın əhəmiyyəti ondan ibarətdir ki, bu tədqiqat media mətnlərinin ideoloji və semantik strukturunu anlamaqda kömək edir, ictimai diskursun formalaşmasında dilin rolunu açıq şəkildə göstərir. Eyni zamanda media tənqidi oxuma vərdişlərinin inkişafı üçün geniş material təqdim edir. Elektron KİV-də dilin qeyri-səlisliyi təkcə üslub məsələsi deyil, həm də ideoloji və diskursiv strategiyadır, ictimai-siyasi kommunikasiya vasitəsidir. Çoxmənalılıq, modallıq, dərəcələnə bilən sifətlər, qeyri-müəyyən miqdar bildirən sözlər və təxmini zaman ifadələri media diskursunda həm real informasiya qıtlığı, həm də ideoloji fikir, rəy formalaşdırma vasitəsi kimi çıxış edir. Bu vasitələrin istifadəsi informasiya cəmiyyətində dilin manipulyativ gücünü açıq şəkildə nümayiş etdirir. Belə ki, qeyri-səlislik oxucunun düşüncə prosesini idarə etməyə imkan verir. Oxucu məlumatın qeyri-dəqiq olması səbəbindən hadisəni öz subyektiv təsəvvürünə uyğun şərh edir. Lütfü Zadənin qeyri-səlis məntiq nəzəriyyəsi bu tip qeyri-müəyyənliklərin qavranılmasında və dərəcələndirilməsində faydalı model təqdim edir. Gələcək tədqiqatlarda korpus əsaslı təhlil və daha sistematik qeyri-səlis modelləşdirmə metodları istifadə oluna bilər. Həmçinin müxtəlif dövlət və özəl elektron xəbər mənbələri qarşılaşdırılaraq qeyri-səlislik təhlil oluna və diskursiv manipulyasiya mexanizmləri daha dərindən şərh edilə bilər.

## Ədəbiyyat

1. Abdulla, K. (2006). *Qeyri-səlis dil vahidləri və nitqin emosional-estetik qatı.* Elm.
2. Abdullayev, S. (2013). *Qeyri-səlis dilçilik təcrübəsi.* ADPU nəşriyyatı.
3. Abdulla, K., & Əliyev, R. (2024). *Qeyri-səlis dil modelləri və media diskursu.* Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutu.
4. Adilov, M., Verdiyeva, Z., & Ağayeva, N. (2019). *Azərbaycan dilinin semasiologiyası.* Elm və təhsil.
5. Axundov, A. (2006). *Ümumi dilçilik.* Şərq-Qərb.
6. Bolinger, D. (1972). *Degree Words.* Mouton.
7. Cəfərov, S. (2007). *Müasir Azərbaycan dili: Leksika.* Elm.
8. Crystal, D. (2003). *The Cambridge Encyclopedia of the English language* (2nd ed.). Cambridge University Press.
9. Fairclough, N. (1995). *Media Discourse.* Edward Arnold.
10. Foucault, M. (1969). *L'archéologie du savoir.* Gallimard.

11. Gee, J. P. (2014). *An Introduction to Discourse Analysis: Theory and Method* (4th ed.). Routledge.
12. Lyons, J. (1995). *Linguistic Semantics: An introduction.* Cambridge University Press.
13. Palmer, F. R. (2001). *Mood and Modality* (2nd ed.). Cambridge University Press.
14. Qurbanov, A. (2019). *Ümumi dilçilik.* Mütərcim.
15. Van Dijk, T. A. (2008). *Discourse and Power.* Palgrave Macmillan.
16. Veysəlli, F. (2008). *Azərbaycan dilçiliyinin fəlsəfi aspektləri.* Nurlan.
17. Wodak, R., & Chilton, P. (Eds.). (2005). *A New Agenda in (critical) Discourse Analysis.* John Benjamins.
18. Wodak, R., & Meyer, M. (Eds.). (2001). *Methods of Critical Discourse Analysis.* SAGE.
19. Zadeh, L. A. (1965). Fuzzy sets. *Information and Control, 8*(3), 338–353. https://doi.org/10.1016/S0019-9958(65)90241-X
20. Zadeh, L. A. (1975). The concept of a linguistic variable and its application to approximate reasoning. *Information Sciences, 8*(3), 199–249. https://doi.org/10.1016/0020-0255(75)90036-5

***Əlavə 1. Xəbər başlıqları və onlar haqqında məlumat.***

| Sahə | Başlıq və Tarix | Link |
|---|---|---|
| Siyasi | Azərbaycan 2025-ci ildə də beynəlxalq nüfuzunu dinamik şəkildə artırmaqda davam edəcək – ŞƏRH (3 yanvar 2025) | https://azertag.az/xeber/azerbaycan_2025_ci_ilde_de_beynelxalq_nufuzunu_dinamik_sekilde_artirmaqda_davam_edecek____serh-3359111 |
| Siyasi | Azərbaycanda 2025-ci il "Konstitusiya və Suverenlik İli" elan edilib – SƏRƏNCAM (28 dekabr 2024) | https://azertag.az/xeber/azerbaycanda_2025_ci_il_konstitusiya_ve_suverenlik_ili_elan_edilib_serencam-3354199 |
| Sosial | 20 Yanvar faciəsi qurbanlarının xatirəsi ADAU-da silsilə tədbirlərlə yad edilib (18 yanvar 2025) | https://azertag.az/xeber/20_yanvar_faciesi_qurbanlarinin_xatiresi_adau_da_silsile_tedbirlerle_yad_edilib-3378599 |
| Sosial | 20 Yanvar – Azərbaycan xalqının qürur mücəssəməsinə çevrilən tarix (17 yanvar 2025) | https://azertag.az/xeber/20_yanvar___azerbaycan_xalqinin_qurur_mucessemesine_chevrilen_tarix-3376867 |
| Sosial | Maqdeburqda fəaliyyət göstərən Azərbaycan Evində 20 Yanvar faciəsi ilə əlaqədar anım tədbiri (20 yanvar 2025) | https://azertag.az/xeber/maqdeburqda_fealiyyet_gosteren_azerbaycan_evinde_20_yanvar_faciesi_ile_elaqedar_anim_tedbiri_kechirilib-3380403 |
| İqtisadi | Azərbaycanda "Araz-2025" birgə təlimi keçirilir – VIDEO (18 may 2025) | https://azertag.az/xeber/azerbaycanda__quot araz_2025_quot_birge_telimi_kechirilir_video-3562907 |
| İqtisadi | "Ekspo 2025"də Azərbaycan milli pavilyonunun açılışı olacaq (11 mart 2025) | https://azertag.az/xeber/ekspo_2025de_azerbaycan_milli_pavilyonunun_achilisi_olacaq-3456623 |
| Sosial | Bakıda "Dream FEST – 2025" Beynəlxalq Musiqi Festivalı davam edir (25 iyul 2025) | https://azertag.az/xeber/bakida_dream_fest___2025_beynelxalq_musiqi_festivali_davam_edir-3673519 |
| Siyasi | İllik beynəlxalq nüfuz artımı, dövlət siyasəti və prioritetlər baxımından – ŞƏRH (3 yanvar 2025) | https://azertag.az/xeber/azerbaycan_2025_ci_ilde_de_beynelxalq_nufuzunu_dinamik_sekilde_artirmaqda_davam_edecek____serh-3359111 |

| | Sahə | Başlıq və Tarix | Link |
|---|---|---|---|
| 0 | Sosial | 20 Yanvar faciəsi qurbanlarının xatirəsi ADAU-da silsilə tədbirlərlə yad edilib (20 yanvar 2025) | https://azertag.az/xeber/20_yanvar_faciesi_qurbanlarinin_xatiresi_adau_da_silsile_tedbirlerle_yad_edilib-3378599 |
| 1 | Siyasi | Azərbaycan 2025-ci ildə inkişafını davam etdirəcək – deputat (2 yanvar 2025) | https://report.az/en/domestic-politics/azerbaijan-to-continue-its-development-in-2025-says-mp |
| 2 | Siyasi | Azərbaycan və Efiopiya XİN-ləri arasında siyasi məsləhətləşmələr... (16 yanvar 2025) | https://report.az/xarici-siyaset/xarici-isler-nazirinin-muavini-yalcin-refiyev-efiopiyada-gorusler-kecirib |
| 3 | Siyasi/ Regional | Expectations for 2025: Peace, stability, and regional cooperation (ingiliscə xəbər) (31 dekabr 2024) | https://report.az/en/analytics/expectations-for-2025-peace-stability-and-regional-cooperation |
| 4 | Siyasi | Western Azerbaijan Community condemns USCIRF 2025 Annual Report (ingiliscə xəbər) (26 mart 2025) | https://report.az/en/foreign-politics/western-azerbaijan-community-condemns-uscirf-2025-annual-report |
| 5 | İqtisadi | İqtisadi Şuranın iclası keçirilib, 2025-ci il üzrə Fəaliyyət Planı müzakirə olunub (27 yanvar 2025) | https://report.az/daxili-siyaset/iqtisadi-suranin-iclasi-kecirilib |
| 6 | İqtisadi | Dünya Bankı 2025-ci il üçün Azərbaycanda iqtisadi artım proqnozunu yeniləyib (23 aprel 2025) | https://report.az/maliyye-xeberleri/dunya-banki-2025-ci-il-ucun-azerbaycanda-iqtisadi-artim-proqnozunu-yenileyib |
| 7 | İqtisadi | Güclü iqtisadiyyatın sosial nəticələri: Azərbaycan modeli (11 yanvar 2025) | https://report.az/maliyye-xeberleri/guclu-iqtisadiyyatin-sosial-neticeleri-azerbaycan-modeli |
| 8 | Sosial | Yeni sosial islahat paketi – Azərbaycanın növbəti uğuru – ANALİZ (28 yanvar 2025) | https://report.az/analitika/yeni-sosial-islahat-paketi-azerbaycanin-novbeti-uguru-analiz |
| 9 | Sosial | Azərbaycanda 3 milyon vətəndaşı əhatə edən artımlar: Sosial rifaha xidmət edən güclü siyasət (13 iyun 2025) | https://report.az/sosial-mudafie/azerbaycanda-3-milyon-vetendasi-ehate-eden-artimlar-sosial-rifaha-xidmet-eden-guclu-sosial-siyaset |
| 0 | Sosial | İlin birinci yarımilində 130 mindən çox şəxsə pensiya, müavinət və təqaüd təyin edilib (7 iyul 2025) | https://report.az/sosial-mudafie/ilin-birinci-yarimilinde-130-minden-cox-sexse-pensiya-muavinet-ve-teqaud-teyin-edilib |
| 1 | Siyasi | Azərbaycan 2025-ci ildə də beynəlxalq nüfuzunu dinamik şəkildə artırmaqda davam edəcək – ŞƏRH (3 yanvar 2025) | https://azertag.az/xeber/azerbaycan_2025_ci_ilde_de_beynelxalq_nufuzunu_dinamik_sekilde_artirmaqda_davam_edecek____serh-3359111 |
| 2 | Siyasi | 2025-in qaynar nöqtələri - Bu ölkələrdə müharibə başlaya bilər (02 yanvar 2025). | https://www.lent.az/xeber/siyaset/2025-in-qaynar-noqteleri-bu-olkelerde-muharibe-baslaya-biler-40626092. (Lent.az) |
| 3 | İqtisadi | ABB 2025-ci ilin ilk rübü üzrə maliyyə göstəricilərini açıqladı (14 aprel 2025). | https://lent.az/xeber/iqtisadiyyat/abb-2025-ci-ilin-ilk-rubu-uzre-maliyye-gostericilerini-aciqladi-40634363. (Lent.az) |

| | Sahə | Başlıq və Tarix | Link |
|---|---|---|---|
| 4 | Sosial | 2025-ci ildə evlənmək üçün əlverişli və əlverişsiz tarixlər (04 yanvar 2025). | https://www.lent.az/xeber/sosial/2025-ci-ilde-evlenmek-ucun-elverisli-ve-elverissiz-tarixler-40626185. (Lent.az) |
| 5 | Siyasi | Ərdoğan Prezident İlham Əliyevə ZƏNG ETDİ (08 yanvar 2025). | https://www.lent.az/xeber/siyaset/erdogan-prezident-ilham-eliyeve-zeng-etdi-40626606. (Lent.az) |
| 6 | İqtisadi | Qırmızı Ürəklər Fondu 2025-ci ilin ilk rübü üzrə hesabat açıqlayıb (30 aprel 2025). | https://lent.az/xeber/iqtisadiyyat/qirmizi-urekler-fondu-2025-ci-ilin-ilk-rubu-uzre-hesabat-aciqlayib-40635729. (Lent.az) |
| 7 | Siyasi | ABŞ-da görünməmiş HADİSƏ: üç keçmiş prezident Trampı sərt tənqid etdi (21 Aprel 2025). | https://www.lent.az/xeber/siyaset/abs-da-gorunmemis-hadise-uc-kecmis-prezident-trampi-sert-tenqid-etdi-40634889 |
| 8 | Sosial | "Sovetski"də yeni Bakı: Qoca bina sökülmə növbəsini gözləyir(07Avqust 2025). | https://lent.az/xeber/sosial/sovetskide-yeni-baki-qoca-bina-sokulme-novbesini-gozleyir-reportaj-40643867 |
| 9 | Sosial | "Yadplanetlilər yerə hücum edə bilərlər – Tarix AÇIQLANDI(06 Avqust 2025). | https://lent.az/xeber/sosial/yadplanetliler-yere-hucum-ede-bilerler-tarix-aciqlandi-40643689 |
| 0 | Sosial | Yaxın illərdə güclü maqnit qasırğaları gözlənilir –XƏBƏRDARLIQ(02 Avqust 2025). | https://lent.az/xeber/sosial/yaxin-illerde-guclu-maqnit-qasirgalari-gozlenilir-xeberdarliq-40643453 |
| 1 | Siyasi | Prezidenti İlham Əliyev: Bu gün biz sülh sazişinə start veririk (09 avqust 2025). | https://apa.az/resmi-xeber/prezidenti-ilham-eliyev-bu-gun-biz-sulh-sazisine-start-veririk-912016. (Apa.az) |
| 2 | Siyasi | Vaşinqton görüşü sadəcə diplomatik müzakirə deyil, davamlı sülhün əsasını qoyan konkret addımdır — Amerikalı siyasi ekspert (09 avqust 2025). | https://apa.az/siyasi/vasinqton-gorusu-sadece-diplomatik-muzakire-deyil-davamli-sulhun-esasini-qoyan-konkret-addimdir-amerikali-siyasi-ekspert-912102. (Apa.az) |
| 3 | Siyasi | XİN: Prezident İlham Əliyevin ABŞ-a səfərinin nəticələrinə dair məlumat yayıb (09 avqust 2025). | https://apa.az/xarici-siyaset/xin-prezident-ilham-eliyevin-abs-a-seferinin-neticelerine-dair-melumat-yayib-912058 |
| 4 | Sosial | III Şuşa Qlobal Media Forumu başa çatıb — FOTO (21 iyul 2025). | https://apa.az/media/iii-susa-qlobal-media-forumu-basa-catib-909899. (Apa.az) |
| 5 | İqtisadi | Bakıda "FINTEX SUMMIT 2025" keçiriləcək — tədbir və iştirakçılar (17 iyun 2025). | https://apa.az/maliyye/bakida-fintex-sammit-2025-maliyye-ve-texnologiyalar-sergisi-kecirilecek-904970. (Apa.az) |
| 6 | İqtisadi | Unibank 2025-ci il birinci yarımilinin maliyyə nəticələrini açıqlayıb (14 aprel 2025). | https://apa.az/maliyye/unibank-2025-ci-il-birinci-yarim-ilinin-maliyye-neticelerini-aciqlayib-908886. (Apa.az) |
| 7 | İqtisadi | ABB 2025-ci ilin I rübü üzrə maliyyə göstəricilərini açıqlayıb (07 may 2025). | https://apa.az/maliyye/abb-2025-ci-ilin-ilk-rubu-uzre-maliyye-gostericilerini-aciqlayib-896065. (Apa.az) |
| 8 | Sosial | Azerbaijan increases social allowances and pensions from today (ingiliscə xəbər) — (01 iyul 2025). | https://en.apa.az/social/azerbaijan-increases-social-allowances-and-pensions-from-today-471771. (Apa.az) |

| | Sahə | Başlıq və Tarix | Link |
|---|---|---|---|
| 9 | İqtisadi | Azərbaycanda kredit kartları ilə aparılan əməliyyatların həcmi 25% artıb (09 avqust 2025). | https://apa.az/maliyye/azerbaycanda-kredit-kartlari-ile-aparilan-emeliyyatlarin-hecmi-25-artib-912090. (Apa.az) |
| 0 | Sosial | III Şuşa Forumu çərçivəsində media savadlılığı paneli keçirilib (20 iyul 2025). | https://apa.az/media/iii-susa-qlobal-media-forumu-cercivesinde-media-savadliligina-dair-panel-kecirilib-yenilenib-909746. (Apa.az) |
| 1 | İqtisadi | Dünya Bankı 2025-2029-cu illər üçün Azərbaycanın real ÜDM artım proqnozunu verib (1 mart 2025). | https://az.trend.az/business/finance/4012217.html. (az.trend.az) |
| 2 | İqtisadi | 2025-ci ilin inflyasiya proqnozu açıqlandı (18 noyabr 2024). | https://az.trend.az/business/3971692.html. (az.trend.az) |
| 3 | İqtisadi | "Best Managed Companies Azerbaijan 2025" müsabiqəsinin qalibləri açıqlanıb (17 iyun 2025). | https://az.trend.az/business/4057927.html. (az.trend.az) |
| 4 | Sosial | 2025–2026-cı tədris ili üçün 32 min tələbə qəbulu planlaşdırılır (21 iyul 2025). | https://az.trend.az/azerbaijan/society/4072294.html. (az.trend.az) |
| 5 | Sosial | 2025-ci il ərzində 3580 nəfərə evdə səyyar sosial xidmət göstərilib — Sədr (30 iyun 2025). | https://az.trend.az/azerbaijan/society/4063894.html. (az.trend.az) |
| 6 | İqtisadi | 2025-ci il üçün "Vergitutma" indikatoru üzrə yeni Yol Xəritəsi təsdiq edilib (6 mart 2025). | https://az.trend.az/business/4014173.html. (az.trend.az) |
| 7 | Siyasi | Dövlət sosial müdafiə fondunun 2025-ci il büdcəsi haqqında qanunu təsdiqləndi (27 dekabr 2024). | https://az.trend.az/azerbaijan/politics/3987540.html. (az.trend.az) |
| 8 | Sosial | 2025-ci ildə Azərbaycana fəsillərin daxil olma vaxtı açıqlandı (25 dekabr 2024). | https://az.trend.az/azerbaijan/society/3986364.html. (az.trend.az) |
| 9 | İqtisadi | "Fitch" 2025-ci ildə Azərbaycan iqtisadiyyatında 3,5 % artım proqnozlaşdırır (14 iyun 2025). | https://az.trend.az/business/4056733.html. (az.trend.az) |
| 0 | İqtisadi / Sosial | 2025-ci ilin dövlət büdcəsi — iqtisadi tərəqqi və güclü sosial siyasətlə tamamlanır (28 noyabr 2024). | https://az.trend.az/business/3976251.html. (az.trend.az) |

Daxil oldu: 05.08.2025
Qəbul edildi: 12.11.2025

DOI: https://doi.org/10.36719/2789-6919/52/74-77

**Nərmin Qocayeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0009-0000-9181-4509
narminqojayeva23@gmail.com

# Müharibədən sonra bərpa olunan Qarabağ toponimlərinin ilkin etimoloji qatlara görə təsnifi

## Xülasə

Dilin söz ehtiyatının mühüm qatını təşkil edən onomastik vahidlərin, xüsusilə də toponimlərin öyrənilməsi xalqların tarixi köklərinin araşdırılması üçün böyük əhəmiyyət daşıyır. Çünki hər bir xalqın keçmişini yaşadan əsas göstəricilərdən biri həmin xalqın sahib olduğu coğrafi məkanların adlarıdır. 2020-ci il Vətən müharibəsindən sonra Qarabağ bölgəsində tarixi-coğrafi obyektlərin adlarının bərpası Azərbaycan onomastikasında yeni mərhələ yaratdı. Bu məqalədə işğaldan azad olunmuş ərazilərdə qaytarılan yer adlarının ilkin etimoloji mənşəyi araşdırılır və toponimlər qədim türk qatına, irandilli qata, alban qatına və yeni dövr toponimlərinə görə sistemləşdirilir. Adların əvvəlki formaya qaytarılması Qarabağda tarixi yaddaşın, milli kimliyimizin, dilimizin, mədəniyyətimizin, dini dəyərlər və adət-ənənələrimizin yenidən canlandırılması deməkdir.

***Açar sözlər:*** *Qarabağ, toponimika, etimologiya, bərpa edilmiş adlar*

**Narmin Gojaeva**
Azerbaijan State Pedagogical University
https://orcid.org/0009-0000-9181-4509
qocayeva.nermin1991@gmail.com

# Classification of Restored Toponyms in Karabakh After the War According to Their Primary Etymological Layers

## Abstract

The study of onomastic units, particularly toponyms, which constitute a significant layer of a language's vocabulary, is of great importance for researching the historical roots of peoples. One of the main indicators preserving the history of any nation is the names of the geographical areas it inhabits. After the 2020 Patriotic War, the restoration of the names of historical and geographical objects in the Karabakh region marked a new stage in Azerbaijani onomastics. This article examines the primary etymological origins of the restored place names in the liberated territories and classifies the toponyms according to the ancient Turkic layer, Iranian layer, Albanian layer, and modern period toponyms. Restoring these names to their original forms signifies the revival of historical memory, national identity, language, culture, religious values, and traditions in Karabakh.

***Keywords:*** *Karabakh, toponymy, etymology, restored names*


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

## Giriş

Toponimlər bir xalqın dili, tarixi inkişafı, etnik kökləri, milli kimliyi və yaşadığı coğrafi məkanlar haqqında mühüm məlumat verən qiymətli mənbələrdir. Yer adlarında tayfa və qəbilələrin köçəri hərəkətləri, birləşməsi, qarışması, eləcə də əhalinin təsərrüfat həyatı, məşğuliyyəti və peşə xüsusiy-yətləri əks olunur. T.Əhmədov qeyd edir ki, "Coğrafi adlar hər hansı bir ərazidə tarixən mövcud olmuş və hazırda mövcud olan xalqların tarixi keçmişini, mədəniyyətini, iqtisadiyyatını, ictimai və sosial vəziyyətini, adət və ənənəsini, eləcə də dillərinin aradan çıxmış, arxaikləşmiş müəyyən xüsusiyyətlərini əks etdirən abidələr kimi yaşamaqdadır" (Əhmədov, 1984, s. 9). İşğal illərində bir çox obyektlərin adları dəyişdirilmiş, orijinal formalar təhrif olunmuşdur. 2020-ci ildə Azərbaycan tərəfindən həyata keçirilən genişmiqyaslı əks-hücum əməliyyatı cəmi 44 gün davam etdi və nəticədə, torpaqlarımız işğaldan azad olundu; noyabrın 10-da isə üçtərəfli Bəyanat imzalandı. Torpaqların azad edilməsi və həmin ərazilərdə bərpa-quruculuq işlərinin aparılması ermənilərin bölgəyə vurduğu mənfi təsirləri, o cümlədən bir sıra problemləri üzə çıxardı. Xüsusilə işğal dövründə türk mənşəli toponimlərin erməni adları ilə əvəzlənməsi diqqət çəkir. Bu müddət ərzində Azərbaycan vətəndaş-larının fiziki məhvi, onların tarixi torpaqlarından qovulması, maddi-mədəniyyət abidələrinin dağıdıl-ması və mənimsənilməsi ilə yanaşı, bölgənin tarixi də ermənilər tərəfindən saxtalaşdırılmışdır. Birinci Qarabağ müharibəsindən sonra ermənilər ideoloji müharibə çərçivəsində əlavə bir üsuldan istifadə etdilər: işğal etdikləri ərazilərdə ilkin yer adlarının böyük əksəriyyətini dəyişdilər. Bu siyasətin məqsədi Qərbi Azərbaycan və Qarabağ bölgələrinin yerli əhalisini ərazilərdən çıxarmaq və azərbaycanlıların tarixi yaddaşını silmək idi. Vətən müharibəsindən sonra dövlət siyasətinin prioritet istiqamətlərindən biri toponimlərin tarixi-mədəni kimliyinə qaytarılması oldu. Adların bərpası həm ideoloji, həm də elmi baxımdan mühüm hadisədir.

**Tədqiqat**

*Qarabağ və onun etimologiyası.* Qarabağ bölgəsi Azərbaycan tarixinin ən qədim mədəni-coğrafi məkanlarından biri kimi zəngin toponimik sistemə malikdir. "Qarabağ" adına ən qədim mənbələrdə təxminən 1300 il əvvəl, yəni VII əsrdə rast gəlinir. İlk dövrlərdə bu ad müəyyən bir tarixi-coğrafi məkanı ifadə etsə də, sonrakı mərhələlərdə Azərbaycanın daha geniş bir ərazisini bildirmək üçün işlədilmişdir. "Qarabağ" sözü Azərbaycan dilindəki "qara" və "bağ" komponentlərindən yaranmışdır. Türk dillərində "qara" yalnız rəng bildirən söz olmayıb, eyni zamanda "böyük", "sıx", "qalın", "tünd" kimi məna çalarlarına da malikdir. Bu mənada "Qarabağ" ifadəsi "böyük bağ", "sıx və ya qalın bağ", "səfalı bağ" mənası daşıya bilər. Tarixi mənbələrdə siyasi-coğrafi məkan kimi "Qarabağ" anlayışı bütöv şəkildə həm dağlıq, həm də düzənlik əraziləri özündə birləşdirən vahid bölgə kimi tanınıb. "Dağlıq Qarabağ" termini isə tarixən mövcud olmayıb; bu ifadə daha sonralar, xüsusilə Rusiya imperiyasının işğalı və müstəmləkə siyasəti dövründə separatçı məqsədlərlə Qarabağın yalnız bir hissəsinə verilmiş süni addır. Qarabağ ərazisindəki toponimlər müxtəlif tarixi dövrlərin, etnik qrupların və dil qatlarının izlərini özündə saxlayır. Tarixi-coğrafi adların etimoloji qatında türklüyün izləri görünür. Qarabağ onomastikasında türk tayfa adları ilə bağlı çox sayda toponim vardır: *Qarqarlı, Çərəkdar, Boyəhmədli, Qaradağlı, Laçın, Əskəran, Sarıcalı* və s. Bu adlar bölgənin türk etnosu ilə məskunlaşmasının tarixi sübutlarıdır. Bu adların etimologiyasını müəyyənləşdirmək həm regionun tarixini, həm də orada məskunlaşmış tayfa və xalqların dil xüsusiyyətlərini araşdırmaq baxımından olduqca mühümdür. Toponimlərin təhlili göstərir ki, Qarabağ adlarının əksəriyyəti türk mənşəli leksik qatlara, müəyyən hissəsi isə alban, iran və dini-mədəni mənşəyə bağlıdır. Qarabağ toponimlərinin bir hissəsi məkanın təbiətini bildirən türk sözlərindən yaranmışdır: *Ağ, qara, daş, oba, dərə, bulaq, təpə, çay* və s. Məsələn: *Qaradağ, Daşaltı, Ağbulaq Sarıyataq, Çaylı, Təpədərə.* Bu, milli leksikanın toponim yaradıcılığında əsas baza funksiyası daşıdığını göstərir. Türk mənşəli leksik qatlara həm qədim türk coğrafi terminləri, həm də etnonimlər daxildir:

*Əskəran* toponimi "Əski Aran", yəni qədim və ulu Aran məkanını ifadə edir və mənşə etibarilə Aran tayfalarının adı ilə əlaqələndirilir.

*Şuşa* toponiminin mənşəyi barədə müxtəlif fikirlər mövcuddur. Bəzi tədqiqatçılar onun Dondar türklərinin yaşadığı Şoşu adlı qədim şəhərlə bağlı olduğunu bildirirlər. Digər mənbələr bu adı ərazinin təmiz havası və suyu ilə əlaqələndirərək "şüşə" sözü ilə bağlayır. Başqa bir yanaşmaya görə isə Şuşa adı *şiş uca, yüksəklik* mənasında qədim türk kəlməsi ilə əlaqələndirilir. "*Bu möhtəşəm və əzəmətli qala-şəhəri yerli-köklü əhali-avtoxton türk tayfaları inşa etmiş və - orada yaşamışlar...*" (Məmm-

ədov, 2008, s. 151; Azərbaycanın tarixi abidələri və toponimləri: biblioqrafiya, 2016; Babayev, 2024). "A.A.Bakıxanov Şuşa haqqında vurğulayır ki, "Şuşa Azərbaycanın Təbriz kimi qədim şəhərlərindən biridir, ilk adı da Novruz olmuşdur" (Məmmədov, 2008, s. 149-150). Şuşa qalasının tarixi keçmişi daha uzaq dövrlərə gedib çıxır və onun daha dərindən hərtərəfli tədqiq olunması, öyrənilməsi davam etdirilməlidir.

*Xankəndi* toponimi Qarabağ xanı Pənahəli xanın XVIII əsrdə öz xanı üçün tikdirdiyi yaşayış məskəni ilə bağlıdır və "xanın kəndi" anlamını verir.

*Ağcabədi* adı "ağca" böyük, iri və "badi" – məkan sözlərinin birləşməsindən yaranmışdır.

*Zəngilan və Zəngəzur* toponimləri türk mənşəli Sangi tayfasının adı ilə əlaqələndirilir.

*Xocavənd* "xocalar nəslinə məxsus yer*"* mənasında işlənir; 1925-ci ilədək *Xonaşin* adlanmış, bu ad isə "hun ölkəsi" anlamlı xon – hun, şin – ölkə komponentlərindən ibarət olmuşdur.

*Kəlbəcər* toponimi qədim türk mənşəli "Kevliçer" sözündən formalaşmışdır: kevli – çayın yuxarı axarı, çər – qala, yəni "çay mənbəyindəki qala" mənasını verir.

*Laçın* adı XIII əsrin əvvəllərində Türkmənistandan köç etmiş Laçın tayfası ilə bağlanır.

Füzuli rayonu ərazisində bərpa olunan kənd adları: Qaraxanbəyli, Qarakollu – *qara* sözü türk dillərində yön, qüvvət və qədim tayfa adını bildirir.

Qubadlı – *Qubad* türk monqol mənşəli şəxs adı (qədimdə "qüvvətli"). "Qüva (Quba) qüvvətli, bərəkətli yer mənasında, Al (lı) isə, ocaq müqəddəslik mənasındadır" (Qabıssanlı, 2013, s. 397).

*Hadrut* – bəzi tədqiqatlara görə *hatir/hatır* (sıldırım, dar keçid) türk sözündəndir.

*Qaraxanbəyli, Kəngərli, Bayramlı* kimi toponimlər etnonim izi daşıyan adlardır.

Ümumilikdə, bu adlara nəzər saldıqda görünür ki, toponimlər ərazilərin təbii xüsusiyyətlərini, həmin bölgədə yaşayan tayfa və xalqları, onların həyat tərzini və coğrafi şəraitini əks etdirir. Toponimlər xalqımızın tarixini və milli varlığını təsdiqləyən önəmli göstəricilərdir.

*Alban mənşəli toponimlər.* Qarabağ, Qafqaz Albaniyasının əsas mərkəzlərindən biri olmuşdur. Bəzi adlar alban tayfalarının izlərini qoruyub saxlayır və toponimiya aləmində silinməz izlər qoymuşlar. "Qədim qarabağlılar yüzilliklər boyu Azərbaycan xalqının etnomənəvi sərvətinin yaradılmasında bilavasitə iştirak etmiş, maddi-mədəniyyət nümunələrilə yanaşı, yüzlərlə, minlərlə türk mənşəli toponimləri onlar yaratmış, milli mənəviyyatımızı zənginləşdirmişlər. Avropada ən qədim - ilk ibtidai insan məskənləri Azıx və Tağlar buradadır. Dünyada tanınmış Quruçay mədəniyyəti (m.ö. 5-4 minillik) və Xocalı-Gədəbəy mədəniyyəti (m.ö. 17-13-cü yüzilliklər) Qarabağdadır" (Məmmədov, 2008, s. 7).

Bərdəli məşhur alban tarixçisi Musa Kalankatuklu "Albaniya tarixi" əsərində qeyd edir ki, "Çar qəbilələr üzərinə hakim və canişinlər təyin edir və onun əmrilə Yafəs nəslindən və Sisakan (Sünik) soyundan olan Aran onlara hakim təyin olunur" (Kalankatuklu, 2006, s. 19). Əsərdən məlum olur ki, albanların soy kökü əfsanəvi Nuh peyğəmbərin oğlu Yafəsə bağlanır. Qafqaz albanlarının ilk hökmdarı kimi Aranın adı çəkilir. Aran və Dağlıq Qarabağ isə ən qədim zamanlardan etibarən Qafqaz Albaniyasının tərkibində vahid coğrafi-siyasi məkan kimi mövcud olmuşdur.

*Tugh (Tuğ) Hunar, Hunan, Varanda Xudavəng (*alban kilsə kompleksi ilə bağlı dini-mədəni toponim) kimi toponimlər Qafqazdakı alban tayfa adları ilə bağlı hesab edilir.

*İrandilli (fars–tat) qatına aid toponimlər.* Qarabağda irandilli mənşəli toponimlər nisbətən azdır. Bu qat əsasən orta əsrlərdən qalan təsir nəticəsində formalaşmışdır.

*Zəngilan* "zəngi" etnonimi ilə əlaqələndirilir (farsca *"zəngi – qara dərili"* demək olsa da, Azərbaycanda fərqli etnik qrupla bağlıdır).

*Cəbrayıl* – ərəb mənşəli dini şəxs adının yer adına çevrilməsidir. *Cəbrayıl* toponimi VIII əsrdə Sultan Əhmədin yaxın adamlarından olan Cəbrayıl atanın adı ilə əlaqəlidir; ərəb dilində "Cəbrayıl", "Allahın qulu" deməkdir. Ş.Qabıssanlının fikrincə, Cəbrayıl toponiminin həqiqi forması Cəbbarayıldır. O qeyd edir ki, "1) Cəbbar – qüvvət, qüdrət, əzəmət; 2-ci məna – Allah; 5-ci məna asrtronomiyada: Orion bürcü (ulduz). 2) Cəbər(ut) – əzəmət, cəlal. Yəni, qüdrətli məkan, əzəmətli Allaha bağlı məkan, ulduzlara sitayiş olunan atəşpərəstlər məkanı kimi qeyd olunmalıdır" (Qabıssanlı, 2013, s. 393; Əhmədov, 1984; Əhmədov, 1991; Qurbanov, 1988; Məşədiyev, 1990).

*Bərpa edilmiş adlar.* 2020-ci il Vətən müharibəsində əldə olunan möhtəşəm Qələbə Azərbaycanın ərazi bütövlüyünü təmin etməklə yanaşı, Qarabağda milli-mədəni mühitin yenidən canlanmasına təkan verdi. İşğaldan azad edilən torpaqlarda genişmiqyaslı bərpa və inkişaf layihələri ilə yanaşı, bölgənin tarixi-coğrafi kimliyinin əsas elementlərindən biri olan toponimika sahəsi də xüsusi diqqətə alındı. Uzun müddət ərzində Ermənistan tərəfindən dəyişdirilən, təhrif olunan və məqsədli şəkildə erməniləşdirilən yer adlarının öz tarixi formasında bərpa edilməsi dövlət siyasətinin vacib istiqamətlərindən biri kimi müəyyənləşdirildi. Yer adları bir xalqın yaddaş kitabıdır. Onların bərpası Qarabağın əsl kimliyinin dirçəlişi deməkdir. 2020–2024-cü illərdə Qarabağda toponimlərin bərpası Azərbaycanın milli yaddaşının, tarixi-coğrafi reallıqlarının və mədəni irsinin dirçəlməsi prosesinin mühüm istiqamətidir (Yusifov & Kərimov, 1987). Bu bərpa yalnız yer adlarının dəyişdirilməsi deyil, xalqın tarixi izlərinin, mədəni köklərinin, identikliyinin və kimliyinin yenidən təsdiqi deməkdir. Qarabağ bölgəsində aparılan hər bir bərpa işi kimi, toponimiya sahəsində görülən işlər də tarixi ədalətin bərpasına, gələcək nəsillərə düzgün coğrafi və tarixi irs ötürülməsinə xidmət edir. *Suqovuşan, Ağdərə, Cəbrayıl, Zəngilan, Laçın* kimi yer adlarımız işğal zamanı dəyişdirilmiş *Madagiz, Mardaket, Jrakan, Kovsakan, Kasatag* adlandırılmış, 2020-ci ildən sonra isə tarixi adlarımız yenidən bərpa olunmuşdur.

## Nəticə

Ümumilikdə, bu adlara nəzər saldıqda görünür ki, toponimlər ərazilərin təbii xüsusiyyətlərini, həmin bölgədə yaşayan tayfa və xalqları, onların həyat tərzini və coğrafi şəraitini əks etdirir. Toponimlər xalqımızın tarixini və milli varlığını təsdiqləyən önəmli göstəricilərdir. Tədqiqat göstərir ki, müharibədən sonra bərpa olunan Qarabağ toponimləri tarixi-etnoqrafik və linqvistik baxımdan çoxqatlı sistemə malikdir. Qarabağ toponimlərinin böyük qismi türk mənşəli olub qədim etnonimləri, coğrafi terminləri və kulturoloji semantikanı əks etdirir. Toponimlərin 70-75%-i türk mənşəlidir, bu da bölgənin etnik-mədəni tarixini təsdiqləyir. Alban toponimləri mühüm mədəni qat kimi öz izlərini qoruyur. İrandilli qat azlıq təşkil edir və əsasən orta əsr təsirlərinin nəticəsidir. Yeni dövr adlarının bərpası milli onomastik sistemin sabitliyini gücləndirir. Adların bərpası Qarabağda tarixi yaddaşın, milli kimliyin və identikliyin dirçəlməsi deməkdir. Bərpa prosesi elmi əsaslara söykəndiyi üçün Qarabağın onomastik xəritəsi öz orijinal tarixi formasını yenidən əldə etmişdir.

## Ədəbiyyat

1. *Azərbaycanın tarixi abidələri və toponimləri: biblioqrafiya*. (2016).
2. Babayev, N. (2024). *Qarabağ iqtisadi rayonunun qədim yurd yerləri və toponimlərinin izahlı lüğəti*. Art Point Reklam MMC.
3. Əhmədov, T. (1984). *El-obamızın adları*. Gənclik.
4. Əhmədov, T. (1991). *Azərbaycan toponimikasının əsasları*. Bakı Universiteti.
5. Kalankatuklu, M. (2006). *Albaniya tarixi. Alban salnaməsi. (Mxitar Qoş).* Avrasiya press.
6. Qabıssanlı, Ş. (2013). *Toponimlərin açılmayan sirləri*. Təknur.
7. Qurbanov, A. (1988). *Azərbaycan dilinin onomalogiyası*. Maarif.
8. Məmmədov, A. (2008). *Qarabağ, onun qədim tayfaları və toponimləri*. Mütərcim.
9. Məşədiyev, Q. (1990). *Zaqafqaziyanın Azərbaycan toponimləri*. Elm.
10. Yusifov, Y.B., Kərimov, S.K. (1987). *Toponimikanın əsasları*. Maarif.
11. Azerbaijan-News.az. (n.d.). Qərbi Azərbaycanda və Qarabağda toponimlərin dəyişdirilməsi Ermənistanın dövlət siyasətidir. https://www.azerbaijan-news.az/az/posts/detail/qerbi-azerbaycanda-ve-qarabagda-toponimlerin-deyisdirilmesi-ermenistanin-dovlet-siyasetidir-16908140
12. Atatürk Araştırma Merkezi Dergisi. (n.d.). Tam mətn PDF. https://atamdergi.gov.tr/tam-metin-pdf/2/tur

Daxil oldu: 01.08.2025
Qəbul edildi: 07.11.2025

DOI: https://doi.org/10.36719/2789-6919/52/78-81

**Emil Qasımov**
Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutu
adyunkt
https://orcid.org/0009-0008-7764-6295
gasimovemil88@gmail.com
**Aytac Allahverdiyeva**
Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutu
adyunkt
https://orcid.org/0000-0001-6643-0044
aytac.allahverdiyevaa@gmail.com

# Hədəf seçimi qaydalarının pozulması və hərbi qulluqçuların məsuliyyəti: beynəlxalq humanitar hüquq və milli təcrübə

**Xülasə**

Məqalədə müasir silahlı münaqişələrdə hədəf seçimi prosesinin beynəlxalq humanitar hüquq çərçivəsində hüquqi qiymətləndirilməsi və bu sahədə Azərbaycan Respublikasının milli normativ, institusional və əməliyyat təcrübəsinin müqayisəli təhlili aparılır. Beynəlxalq hüquq normaları – xüsusilə 1949-cu il Cenevrə Konvensiyalarına I Əlavə Protokolun 48, 51 və 57-ci maddələri – hücumların yalnız legitim hərbi hədəflərə yönəldilməsini, mülki şəxslərin və mülki obyektlərin qorunmasını, eləcə də hücum zamanı mümkün bütün ehtiyat tədbirlərinin görülməsini tələb edən fundamental prinsipləri müəyyən edir. Tədqiqat çərçivəsində Keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Cinayət Tribunalının presedentləri, Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) şərhləri və müasir döyüş praktikasının hüquqi aspektləri araşdırılır. Məqalənin milli hissəsində Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 327–353-cü maddələrinin tətbiq mexanizmləri, həmçinin, 2020-ci il Vətən müharibəsi zamanı formalaşan yüksək dəqiqlikli hədəf seçimi modeli təhlil olunur. Aparılan araşdırma nəticəsində hədəf seçimi üzrə milli standartların formalaşdırılması, hüquqi müşavir institutunun əməliyyat qərarvermə prosesinə daha dərindən inteqrasiyası və hədəf seçimi ilə bağlı məlumatların vahid elektron arxivdə toplanması kimi inkişaf istiqamətləri elmi əsaslandırılmış təkliflər kimi irəli sürülür.

**Açar sözlər:** *beynəlxalq humanitar hüquq, hədəf seçimi, müharibə cinayətləri, Azərbaycan hərbi hüququ, Cinayət Məcəlləsi, Vətən müharibəsi*

**Emil Gasimov**
National Defense University Military Scientific Research Institute
Assistant
https://orcid.org/0009-0008-7764-6295
gasimovemil88@gmail.com
**Aytac Allahverdiyeva**
National Defense University Military Scientific Research Institute
Assistant
https://orcid.org/0000-0001-6643-0044
aytac.allahverdiyevaa@gmail.com


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

# Violations of Target Selection Rules and Responsibility of Military Personnel: International Humanitarian Law and National Practice

## Abstract

This article provides a comprehensive examination of the legal foundations of target selection in modern armed conflicts under international humanitarian law (IHL), as well as the practical application of these mechanisms within the Republic of Azerbaijan. The primary sources of IHL – namely the 1949 Geneva Conventions and Articles 48, 51, and 57 of Additional Protocol I – establish the fundamental principles of distinction, protection of civilians, and the obligation to take precautions during attacks, thereby setting an international standard for lawful target selection in hostilities. The practical implementation of these principles is analyzed through the jurisprudence of the ICTY, authoritative ICRC commentaries, and contemporary doctrinal approaches to military operations. The national segment of the article evaluates the mechanisms of legal responsibility prescribed in Articles 327–353 of the Criminal Code of the Republic of Azerbaijan, as well as the high-precision operational–tactical targeting practices developed during the 2020 Patriotic War. The use of real-time intelligence systems, UAV capabilities, and unified command-and-control structures by the Azerbaijani Armed Forces demonstrates the effective operational implementation of IHL obligations in battlefield conditions. Based on these findings, the study proposes several development pathways, including the adoption of a unified national targeting standard, the deeper integration of legal advisers into the operational decision-making process, and the establishment of a centralized electronic archive for documenting all stages of target selection.

***Keywords:*** *international humanitarian law, target selection, war crimes, Azerbaijani military law, Criminal Code, Patriotic War*

## Giriş

Hədəf seçimi müasir silahlı münaqişələrin ən kritik mərhələlərindən biri olaraq çıxış edir və hücumun hüquqa uyğunluğunu müəyyən edən əsas amildir. Beynəlxalq humanitar hüquq (BHH) bu sahəni ciddi şəkildə tənzimləyərək döyüş əməliyyatlarının yalnız hərbi obyektlərə yönəldilməsini, mülki şəxslərin və mülki infrastrukturun qorunmasını tələb edir. Xüsusilə I Əlavə Protokolun 48, 51 və 57-ci maddələri hədəf seçiminin hüquqi çərçivəsini formalaşdırmış, beynəlxalq məhkəmə presedentləri isə bu prinsiplərin praktik tətbiq meyarlarını aydınlaşdırmışdır. Azərbaycan Respublikasında bu hüquqi tələblər milli qanunvericilikdə Cinayət Məcəlləsinin 327–353-cü maddələri vasitəsilə təmin edilir. Bununla yanaşı, ölkənin müasir əməliyyat təcrübəsi – xüsusilə 2020-ci il Vətən müharibəsində geniş tətbiq olunan PUA və yüksək dəqiqlikli kəşfiyyat vasitələri – hədəf seçimi prosesinin həm texniki, həm də hüquqi baxımdan inkişaf etmiş modelini təqdim edir. Bu məqalə BHH-nin hədəf seçimi qaydalarını, Azərbaycan hüquq sistemindəki normativ mexanizmləri və əməliyyat təcrübəsini kompleks şəkildə təhlil edir, həmçinin, mövcud sistemin təkmilləşdirilməsi üçün yeni elmi əsaslandırılmış təkliflər irəli sürür.

**Tədqiqat**

Beynəlxalq humanitar hüququn tələblərinə görə hədəf seçimi qaydalarının pozulması həm fərdi cinayət məsuliyyəti, həm də dövlət məsuliyyəti doğuran beynəlxalq hüquq pozuntusu hesab olunur. Cenevrə Konvensiyaları və I Əlavə Protokol hədəf seçimi zamanı fərqləndirmə, proporsionallıq və ehtiyat tədbirlərinin görülməsi prinsiplərini pozan şəxslərin beynəlxalq cinayət məsuliyyəti daşıdığını açıq şəkildə müəyyən edir (Boothby, 2012; Dinstein, 2016; NATO, 2021). Fərdi məsuliyyət aspektində hərbi qulluqçu, komandir və ya qərarverici şəxs törətdiyi əmələ görə beynəlxalq tribunal qarşısında cavabdeh kimi tanına bilər. Keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Cinayət Tribunalının "Galić" və "Strugar" işlərində formalaşdırdığı yanaşmaya əsasən, mülki əhali və mülki obyektlərə qarşı hücum həyata keçirən və ya belə hücumlara şərait yaradan komandirlər "bilməli idi və ya bilməli idi ki" meyarına uyğun olaraq məsuliyyət daşıyırlar. Bu presedentlər göstərir ki, komandir təkcə əmri şəxsən verməsə belə, öz tabeliyində olan şəxslərin pozuntularının qarşısını almaması, lazımi nəzarət

tədbirlərini görməməsi və ya pozuntunu törədənləri cəzalandırmaması belə beynəlxalq cinayət məsuliyyəti üçün kifayətdir (UN International Law Commission, 2001; NATO, 2021; ICTY, 2003; ICTY, 2008; Additional Protocol I, 1977). Beynəlxalq hüquqda məsuliyyət yalnız qəsdən hücumlarla məhdudlaşmır. I Əlavə Protokolun 57-ci maddəsinə əsasən, hücum vaxtı lazımi ehtiyat tədbirlərinin görülməməsi – məsələn, hədəfin hərbi obyekt kimi dəqiq təsdiqlənmədən vurulması – belə beynəlxalq humanitar hüququn pozuntusu sayılır və məsuliyyət yaradır. Bu norma müasir müharibələrdə informasiya dəqiqliyinin artırılması, qərarvermədə hüquqi və kəşfiyyat meyarlarının birgə tətbiqinin vacibliyini göstərir. Dövlət məsuliyyəti isə digər səviyyədə qiymətləndirilir. Dövlət tərəfindən həyata keçirilən və ya dövlətin effektiv nəzarəti altında olan hər hansı hücum beynəlxalq humanitar hüququ pozduqda, bu, dövlətin beynəlxalq öhdəliklərinin pozulması kimi qiymətləndirilir. BQXK-nin Dövlət Məsuliyyəti Doktrinasına görə dövlət pozuntunun qarşısını almağa, araşdırmağa və günahkarları cəzalandırmağa borcludur; əks halda həm əməli, həm də hüquqi məsuliyyət daşıyır. Beləliklə, beynəlxalq humanitar hüquqa görə hədəf seçimi qaydalarının pozulması həm fərdi cinayət məsuliyyəti (komandir və icraçı hərbi qulluqçu), həm də dövlət məsuliyyəti (araşdırma aparmaq və səmərəli cəza mexanizmi yaratmaq öhdəliyi) növlərini özündə birləşdirir (ICRC, 1987; ICRC, 2015; Henckaerts, & Doswald-Beck, 2005; Greenwood, 1996). Bu isə hədəf seçiminin beynəlxalq hüquqda çoxsəviyyəli məsuliyyət sistemi ilə əhatə olunduğunu göstərir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin hərbi xidmət əleyhinə olan cinayətlərə həsr edilmiş bölməsi hədəf seçimi prosesinin hüquqi təhlükəsizliyini təmin edən geniş normativ baza yaradır. Bu kontekstdə Cinayət Məcəlləsinin 327–353-cü maddələri hədəf seçimi prosesinin daxili hüquqi "təhlükəsizlik klapanı" rolunu oynayır (Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, 1999). Xüsusilə:

1. Əmrin icra edilməməsi və hüquqa zidd hücumların qarşısı (CM 328). Müharibə şəraitində yanlış əmrin icra olunması mülki əhali üçün ağır nəticələr yarada bilər, lakin qanunsuz əmri icra etməmək həm beynəlxalq hüquqda, həm də CM 328-də qorunan hüquqi öhdəlikdir.

2. Tabelik münasibətlərinin pozulması və əməliyyat prosesində nizam-intizamın əhəmiyyəti (CM 329–332). Hədəf seçimi çoxpilləli komandirlik strukturundan asılıdır. Tabelik əlaqələrinin pozulması, zorakılıq, təhqir, qarşılıqlı münasibətlərin nizamnaməyə uyğun olmaması əməliyyatın düzgün icrasına mane olur və məhz bu səbəbdən Məcəllədə cinayət hesab edilir. Bu maddələr BHH baxımından vacibdir, çünki: hədəfin koordinatları, kəşfiyyat informasiyası, atəş icazəsi, hücumun dayandırılması göstərişi ancaq nizam-intizam qorunduğu halda düzgün və vaxtında icra edilir.

3. Döyüş növbəsi, sərhəd xidməti və təhlükəsizlik qaydalarının pozulması (CM 338–340). Bu maddələr əməliyyat sahəsində situasiyanın yanlış qiymətləndirilməsinin dövlət təhlükəsizliyini riskə atmasını cinayət kimi müəyyən edir. Hədəf seçimi prosesi də situasiya qiymətləndirilməsinə söykəndiyindən, döyüş növbəsi və müşahidə qaydalarının pozulması BHH pozuntusuna aparan səbəblərdən biri ola bilər.

4. Qulluğa səhlənkar yanaşma və hədəf seçimi riski (CM 342). 342-ci maddə rəisin və ya vəzifəli şəxsin öz xidməti borcuna vicdansız və laqeyd münasibətini cinayət hesab edir. Hədəf seçimi isə ən yüksək səviyyədə diqqət, analiz və informasiya dəqiqliyi tələb edən prosesdir. Əgər komandir hədəflə bağlı məlumatı vaxtında dəqiqləşdirmir, real vaxt kəşfiyyatını nəzərə almır, hüquqi müşavirin rəyini almadan qərar verir və bunun nəticəsində fiziki və ya hüquqi şəxslərin hüquqlarına və dövlət maraqlarına zərər dəyirsə – bu, artıq BHH pozuntusunun milli ekvivalenti kimi çıxış edir.

5. Hərbi əmlakın itirilməsi və ya məhv edilməsi (CM 347–349) və hədəf seçiminin texniki dayaqları. PUA, optik sistemlər, kəşfiyyat avadanlıqları, lazer işarələmə cihazları, rabitə vasitələri – hamısı hədəf seçimi üçün kritik vasitələrdir. Onların itirilməsi və ya məhv edilməsi əməliyyatın gedişini pozur və yanlış hədəf zərbəsinə səbəb ola bilər.

## Nəticə

Aparılan tədqiqat göstərir ki, Azərbaycan modelində normativ baza və əməliyyat imkanları artıq vahid şəkildə fəaliyyət göstərir. Belə ki, Azərbaycan Ordusunun müasir əməliyyat təcrübəsi – xüsusilə 2020-ci il Vətən müharibəsi – göstərmişdir ki, hədəf seçimi prosesində real vaxt kəşfiyyatı, PUA sistemləri, dəqiq müşahidə və koordinasiyalı komanda-nəzarət idarəetməsi beynəlxalq humanitar hüquq prinsiplərinin praktikada yüksək dəqiqliklə yerinə yetirilməsinə imkan verir. Hədəflərin təsdiqi ardıcıl şəkildə aparılmış, mülki şəxslər üçün risklərin azaldılması əməliyyatların planlaşdırılmasında əsas prioritetlərdən biri olmuşdur. Bununla yanaşı, beynəlxalq təcrübə və müasir silahlı münaqişələrin texnoloji xüsusiyyətləri hədəf seçimi prosesində daha da yüksək standartların formalaşdırılması üçün bəzi inkişaf istiqamətlərini aktuallaşdırır. Birincisi, hədəf seçimi zamanı tətbiq olunan hüquqi və əməliyyat meyarlarının vahid sənəddə sistemləşdirilməsi məqsədilə "Hədəf Seçimi üzrə Milli Standartlar"ın hazırlanması məqsədəuyğun görünür. Bu, hədəf təsnifatı, kəşfiyyat məlumatının qiymətləndirilməsi, ehtiyat tədbirləri, hüquqi monitorinq və komanda qərarlarının ardıcıllığını vahid prosedur halına gətirər. İkincisi, hədəf haqqında qərarların formalaşdırılması və təsdiqi mərhələsində hüquqi qiymətləndirmənin bilavasitə komanda heyətinə inteqrasiya olunması prosesi gücləndirilməlidir. Burada məqsəd hüquqi müşavir institutunun geniş tətbiqidir. Yəni hüquqşünas qərarvermə otağında komandirlə yanaşı iştirak edir, hədəfin statusu, mülki risklər, alternativ imkanlar və ehtiyat tədbirlərini real vaxtda qiymətləndirir. Bu, NATO-nun "embedded legal adviser" modeli ilə üst-üstə düşür və hədəf seçimi prosesində hüquqa uyğunluğun ən effektiv təminat mexanizmlərindən hesab olunur. Üçüncüsü, hədəf seçimi prosesinə dair bütün məlumatların – kəşfiyyat mənbələri, təsdiq üçün istifadə olunan görüntülər, hüquqi müşavir rəyləri, komandirin qərar məntiqi və tətbiq edilən ehtiyat tədbirləri – elektron şəkildə arxivləşdirilməsi məqsədəuyğun olardı. Bu model dünyanın inkişaf etmiş ordularında "Targeting Decision Record System" kimi tanınır.

## Ədəbiyyat

1. Additional Protocol I. (1977). *Protocol Additional to the Geneva Conventions of 12 August 1949* (AP I).
2. *Azərbaycan Respublikasının Cinayət Məcəlləsi.* (1999). Qanunvericilik Toplusu.
3. Boothby, W. (2012). *The Law of Targeting*. Oxford University Press.
4. Dinstein, Y. (2016). *The Conduct of Hostilities under the Law of International Armed Conflict*. Cambridge University Press.
5. Greenwood, C. (1996). *The Law of Armed Conflict: Problems and Prospects.* Cambridge Essays in International Law.
6. Henckaerts, J.-M., & Doswald-Beck, L. (2005). *Customary International Humanitarian Law: Volume I – Rules*. Cambridge University Press.
7. ICRC (1987). *Commentary on the Additional Protocols of 1977 to the Geneva Conventions of 12 August 1949.* International Committee of the Red Cross.
8. ICRC (2015). *The Principle of Precautions in Attack: Legal and Operational Reflections.* International Committee of the Red Cross.
9. ICTY (2003). *Prosecutor v. Stanislav Galić, Case No. IT-98-29-T,* Judgment.
10. ICTY (2008). *Prosecutor v. Pavle Strugar, Case No. IT-01-42-A,* Appeals Judgment.
11. NATO (2021). *Allied Joint Publication 3.9 – NATO Targeting.* North Atlantic Treaty Organization.
12. UN International Law Commission (2001). *Draft Articles on State Responsibility.* United Nations.

Daxil oldu: 03.08.2025
Qəbul edildi: 09.11.2025

DOI: https://doi.org/10.36719/2789-6919/52/82-88

**Ali Heydarzadeh**
Azerbaijan State Economic University
Master`s student
https://orcid.org/0009-0003-4716-0175
heyderzadeali45@gmail.com

# Strategic Management Accounting in Start-Ups and Digital Business Models

## Abstract

The evolving function of strategic management accounting in the age of digital transformation is examined in this article. The business environment is changing fundamentally as a result of the rapid development of digital technologies, and traditional accounting methods are not up to par. The competitiveness of the business, its capacity for innovation, and the long-term decision-making process are all directly impacted by strategic management accounting, which goes beyond internal control and cost measurements. Accounting data is growing in speed and volume due to the digital economy. Businesses can perform more precise analysis, spot market trends, and create more adaptable strategies thanks to technologies like big data, artificial intelligence, ERP systems, and blockchain. The article points out that because start-ups and digital business models operate in a highly competitive environment and require more adaptable management mechanisms, the use of digital technologies is especially crucial for these types of organizations. However, digitalization also leads to issues like resistance to change, infrastructure shortages, and human resource readiness.

***Keywords:*** *start-ups, digital technologies, business models, strategic management, strategic management accounting*

**Əli Heydərzadəh**
Azərbaycan Dövlət İqtisad Universiteti
magistrant
https://orcid.org/0009-0003-4716-0175
heyderzadeali45@gmail.com

# Start Up və rəqəmsal biznes modellərində strateji idarəetmə mühasibat uçotu

## Xülasə

Bu məqalədə rəqəmsal transformasiya dövründə strateji idarəetmə uçotunun dəyişən funksiyası araşdırılır. Rəqəmsal texnologiyaların sürətli inkişafı nəticəsində biznes mühitinin köklü şəkildə dəyişdiyi vurğulanır və ənənəvi uçot metodlarının artıq kifayət etmədiyi qeyd olunur. Strateji idarəetmə uçotunun daxili nəzarət və xərc ölçmələrindən kənara çıxaraq biznesin rəqabət qabiliyyətinə, innovasiya potensialına və uzunmüddətli qərarvermə prosesinə birbaşa təsir göstərdiyi bildirilir. Rəqəmsal iqtisadiyyatın uçot məlumatlarının sürətini və həcmini artırdığı qeyd olunur. Big data, süni intellekt, ERP sistemləri və blokçeyn kimi texnologiyalar vasitəsilə müəssisələrə daha dəqiq analiz aparmaq, bazar tendensiyalarını müəyyənləşdirmək və daha çevik strategiyalar formalaşdırmaq imkanı verildiyi göstərilir. Startapların və rəqəmsal biznes modellərinin yüksək rəqabətli mühitdə fəaliyyət göstərdiyi və daha çevik idarəetmə mexanizmlərinə ehtiyac duyduğu üçün bu texnologiyaların tətbiqinin onlar üçün xüsusilə vacib hesab edildiyi vurğulanır. Bununla yanaşı, rəqəmsallaşma prosesində dəyişikliklərə qarşı müqavimətin yarandığı, infrastrukturun çatışmadığı və insan resurslarının hazırlığının yetərli olmadığı kimi problemlərin də meydana çıxdığı qeyd olunur.

***Açar sözlər:*** *startaplar, rəqəmsal texnologiyalar, biznes modelləri, strateji idarəetmə, strateji idarəetmə uçotu*

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

## Introduction

Strategy began to enter the business lexicon in the first half of the 20th century. While the term "strategy" was encountered in some works prior to this date, its true economic meaning was first clearly explained by Neumann and Morgenstern, two economists and mathematicians. Here, the thinkers consider strategy from the perspective of personal economics, formally and systematically explaining the rational behavior of two players seeking to maximize their personal utility. Here, strategy is viewed from the perspective of microeconomics, meaning that two players seeking to maximize their utility mathematically evaluate their opponents' behavior based on probability calculations and make a series of decisions. The game is played under conditions of complete certainty. In other words, each player can prepare themselves accordingly, knowing the impact of all possible opponent actions on their own utility function. Because this assumption is not valid in economic and social situations, despite numerous efforts, its direct and indirect impact on game theory, applications, and especially economic programming is substantial. Today, strategy selection is made by considering the impact of variables related to a company's interactions with its environment, its responses to the environment, its internal organization, and the behavior of its personnel. Optimal selection calculations using quantitative tools can only be used as a tool to assist in strategy selection in situations with limited variables. In this context, strategy in business management is a management approach that aims to capture "change" by revealing the interrelationships and changes in the internal and external dynamics of a business. In this context, management constantly requires up-to-date, concise, and processed information to inform business decisions regarding resource acquisition and utilization, as well as strategic decisions. Thus, it becomes clear that strategy, as in the military, consists of developing a clear, long-term overall business plan that utilizes available resources in the best way possible to achieve objectives.

**Research**

Literature review. In recent years, within the framework of the increasingly prominent strategic business management approach, management accounting has evolved into Strategic Management Accounting (SMA). SMA is defined as the adaptation of management plans and programs using accounting tools to enable a business to adapt to the ever-changing external environment (Ruggieri, et.al., 2018). SMA necessitates the improvement and development of all areas, such as product costing, control, and decision-making through planning and budgeting.

**Fig 1. Conceptual framework of the study**




**Source:** It was prepared by the author himself as a result of research.

This approach is particularly relevant in a business that prioritizes strategy and is open to change. Management accounting is a system that collects, classifies, integrates, analyzes, and reports information related to control activities to assist managers in decision-making. Cost accounting focuses on cost allocation and its relationship with financial accounting. Most importantly for our purpose, it is not decision-making oriented. In contrast, management accounting utilizes cost information for planning, management, and control decisions. The fundamental principle of management accounting is the principle of allowable costs, which regulates operational areas. Although it is difficult to distinguish between modern cost accounting and management accounting, in light of the above, we can define management accounting as a type of accounting that organizes and interprets the information and reports needed by business managers, provides control through annual budgets and standard applications, and enables strategic analysis to assess the current situation (Pasaribu, et.al.,2055). SMA encompasses practices related to the preparation, availability, and analysis of cost accounting information for management related to business strategies. Business strategies are specifically concerned with the relative level and direction of actual costs and prices, quantities, market shares, cash flows, and the overuse of all resources within the business. In the literature, the term SMA is often used instead of SMA (Drzewiecki, 2023). Because SMA is a business that prioritizes strategy and is open to change, it does not deny that the management accountant's responsibility is to "support management in all its activities." The SMA system supports decision-making for internal processes. The SMA system should be managed in conjunction with production, sales, engineering, and other departments. The effective functioning of the SMA depends on receiving and using integrated information from the external environment and the financial accounting system to inform all strategic decisions (Elia, et.al., 2022).

**Fig 2. Structure of strategic management accounting**




**Source:** Yüzbaşıoğlu, N. 2004.

The current stage of global economic development is characterized by the widespread adoption of digital technologies. The digitalization of the economy predetermines fundamental, irreversible changes in the production, distribution, exchange, and consumption of tangible and intangible assets, and, accordingly, places new demands on the organization and content of accounting as a process of discovering, measuring, recording, accumulating, summarizing, storing, and transmitting information about an enterprise's activities to external and internal users for decision-making (Annapoorna, et.al., 2025). In this regard, issues related to studying the status and prospects for the development of accounting in the context of digital transformation are particularly relevant. The conceptual foundations of the digital economy are driven by the unfolding of the fourth industrial revolution, which builds on the achievements of all previous industrial revolutions, elevating humanity to a higher level (Ruggieri, et.al., 2018). The primary objective of accounting in the first industrial

revolution was to expand the range of accounting objects, while in the second and third, it was to ensure the accounting of objects with a significant number of objects. In the current context of the development of the technologies of the fourth industrial revolution, the key objective of accounting is the generation of accounting information on digital resources. Latest technologies are changing the approach to doing business, as well as the requirements for organizing the accounting process. The development of the Internet and other information and communication technologies is changing business practices in terms of:

- relationships with suppliers, consumers, other companies and financial institutions, and government agencies;
- directions for the use of digital resources in business and management activities; - issues of further integration of accounting into the management system;
- approaches to organizing network interaction between participants in the financial process, etc.

In the past, business owners had to hire accountants who manually recorded and processed accounting information, which was time-consuming, costly, and labor-intensive, and prone to various errors (Moro-Visconti, 2025). Today, digitalization of accounting allows business owners and their accountants to perform functional tasks faster and more accurately, as well as interpret and compile financial statements more effectively. Thus, business owners can focus on their strategic goals and solve complex management problems. Modern trends in the implementation of digital software solutions in the production relations system have a profound impact on the functioning of enterprises. Moreover, these trends are also significantly influencing the application of strategic management accounting, driven by the rapid development of the internet, mobile technologies, and specific tools of the digital economy. All of this provides enterprise management with extraordinary depth, breadth, and diversity of available data, significantly exceeding the volumes upon which strategic accounting principles were previously based. This necessitates changes in methodological approaches to the implementation of management accounting principles, driven by the widespread use of digital forms of analytical data. Thus, it can be argued that digital economy technologies significantly influence the essence of methodological approaches and define fundamentally new methods of management accounting (Drzewiecki, 2023). Accordingly, the ways in which digital economy technologies influence changes in the data sets obtained from empirical research require significant rethinking and discussion. Furthermore, systemic needs are emerging for the synthesis and analysis of data that can be obtained through digital analytical studies of business processes within organizations. This is precisely why there is an objective need to revise the classical approaches to strategic management accounting that have been used until now (Christodoulou, et.al., 2025).

Therefore, modern strategic management accounting systems must bridge the gap between accounting and technical information generated during enterprise operations. In general, the implementation of modern management accounting systems should be based on their functionality and be independent of the organizational and management aspects of production management. New management accounting methods must operate in a manner that integrates all organizational processes and information flows between management accounting and managers at all levels.

The advancement of digital technology has induced substantial transformations in multiple facets of company, particularly in strategic management accounting systems. These modifications prompt organizations to embrace a more advanced data-driven methodology to enhance the precision of financial analysis, expedite strategic decision-making, and optimize operational efficiency. Strategic management accounting, once centered on historical financial reporting and internal control, is now transforming into a proactive strategic instrument that facilitates corporate innovation, enhances risk management, and optimizes resource allocation. Organizations that successfully integrate strategic management accounting with digital technology possess enhanced potential to generate additional value and bolster competitiveness in a progressively competitive business landscape. Strategic management accounting is a strategy that emphasizes the use of accounting information for long-term planning and strategic decision-making. Unlike financial accounting, which focuses on historical

reporting and adherence to accounting standards, strategic management accounting seeks to furnish pertinent information for management to formulate sustainable corporate plans. This methodology encompasses cost analysis, performance evaluation, and the identification of opportunities and risks that could impact the company's competitive standing. Consequently, strategic management accounting functions not merely as a reporting mechanism, but also as a tool that aids organizations in formulating policies that are more responsive to market dynamics and fluctuations in the business environment. The advent of digital technology has significantly broadened the scope and function of strategic management accounting in contemporary business. Digitalization enables companies to access and analyze data in real-time, facilitating more rapid and precise decision-making. Technologies like artificial intelligence, data analytics, and Enterprise Resource Planning (ERP) systems facilitate the automation of financial information processing, hence enhancing operational efficiency and business transparency. Moreover, the application of big data in strategic management accounting yields enhanced insights into market trends, consumer behavior, and business growth potential. The incorporation of advanced technology has rendered strategic management accounting essential for organizations to adapt, develop, and sustain a competitive edge in the digital age. Digitalization has facilitated automation in numerous accounting activities, including transaction recording, cost analysis, and budget planning. Numerous firms have used technologies such as artificial intelligence (AI), big data analytics, and cloud computing to enhance accounting processes (Bose, et.al., 2023). These advancements enable organizations to obtain financial information instantaneously, mitigate the danger of human mistake, and enhance precision in financial analysis and market forecasts. Beyond enhancing efficiency, digital revolution in strategic management accounting also fosters company creativity. Technology enables organizations to more effectively uncover innovation prospects through thorough financial data analysis. Timely and precise data enables organizations to create innovative products and services that align more closely with client demands and formulate more competitive pricing strategies. Despite extensive attention from researchers and practitioners on the digitalization of strategic management accounting, a research gap persists that requires addressing. Most prior research has predominantly concentrated on the technical facets of deploying accounting technology, neglecting a thorough exploration of how strategic management accounting might function as a strategic instrument to foster innovation and enhance competitive advantage. Numerous studies emphasize the influence of digitalization on operational efficiency, neglecting the role of strategic management accounting in enhancing effective and adaptive managerial decision-making in response to global market dynamics. This study aims to address the gap in research that explicitly correlates the evolution of strategic management accounting with the generation of strategic value for the organization. Numerous firms encounter challenges in incorporating digital technology into strategic management accounting, including investment prices, the intricacy of integrating new systems with old ones, and the preparedness of human resources to operate the technology. Many organizations, particularly in developing nations, lack the necessary infrastructure and expertise to effectively execute digital-based strategic management accounting. This research will analyze the critical aspects that facilitate the successful transformation of strategic management accounting and the obstacles that must be addressed to ensure effective and sustainable implementation. This research is innovative due to its comprehensive strategy that combines strategic management accounting with digital technology within the framework of business innovation and competitiveness. This study diverges from prior research that solely emphasizes the efficiency of accounting; it will investigate how technologies like big data analytics, artificial intelligence, and ERP systems can convert strategic management accounting into a strategic instrument that facilitates real-time, data-driven decision-making. This study will examine how the evolution of strategic management accounting can enhance operational efficiency, identify innovative opportunities, optimize business strategies, and expedite company growth in a disruptive business environment. This study aims to address highlighted difficulties and research gaps, so contributing academically and practically to the advancement of more flexible and innovative strategic management accounting. This study will enhance the literature regarding the role of strategic management accounting in the

digital age and offer a novel perspective on the correlation between the transformation of strategic management accounting and a company's competitive advantage. The findings of this study can provide guidance for financial managers, accountants, and decision-makers in developing more efficient digital accounting systems. By comprehensively understanding the determinants of successful strategic management accounting transformation, organizations can more effectively confront the challenges of the digital age and leverage technology to generate lasting business value (Drzewiecki & Olek, 2024).

Advanced technologies, including Big Data Analytics, Artificial Intelligence, and Enterprise Resource Planning, can yield optimal benefits only when underpinned by a robust, secure, and well-integrated system. Organizations seeking to use digital strategic management accounting must ensure the presence of a robust IT infrastructure, encompassing dependable networks, suitable software, and stringent data security protocols to safeguard sensitive financial data. Alongside infrastructural preparedness, the human resource element is a crucial determinant in the effective transformation of strategic management accounting (Gadzali, 2023). Organizations that invest in workforce training generally achieve greater success in executing digital-based strategic management accounting than those that solely prioritize technology acquisition without a definitive implementation strategy. Continuous training not only aids personnel in mastering new technologies but also enhances their analytical skills, hence facilitating the optimization of data utilization in strategic decision-making (Usman, et.al., 2025). Enhanced digital literacy among the workforce enables firms to diminish obstacles in technology adoption and augment the efficiency and efficacy of the adopted accounting system. This indicates that digital transformation necessitates investment in both technical and organizational change management components. Organizations must guarantee that personnel have adequate skills and are prepared to adapt to alterations in the work system. This method encompasses clear communication regarding the objectives and advantages of digitization, offering assistance to employees in navigating adaptation problems, and fostering a workplace culture conducive to creativity. A holistic approach to the transition of strategic management accounting can facilitate a smoother process and substantially enhance overall company performance. The implementation of Blockchain technology in accounting processes significantly enhances transparency and data security. Blockchain facilitates the documentation of transactions that are decentralized, immutable, and verifiable by all authorized entities, thereby mitigating fraud risk and enhancing confidence among investors and stakeholders. This enhanced data security not only fortifies financial reporting systems but also facilitates adherence to progressively rigorous requirements. Certain companies have indicated that Blockchain adoption enhances the efficiency of the audit process, diminishes dependence on manual verification methods, and elevates the accuracy and integrity of financial reports (Bose, et.al., 2023).

Methodology. This study seeks to investigate the evolving characteristics of strategic management accounting in the context of digital transformation. This study employs qualitative methodologies to achieve its objective. The initial phase involved a methodical examination of the current literature. We looked at scientific papers, reports from international organizations, and sources that show how modern digital accounting works. These sources allowed us to examine how strategic management accounting has altered with digital technologies. The second step involved gathering information regarding the challenges faced by organizations during the digital transformation process. To accomplish this, the results of studies examining the performance of organizations across various sectors were analyzed and compared.

## Conclusion

According to the analysis, in the digital age, strategic management accounting is increasingly being used as a crucial tool in business decision-making. Information quality and accessibility are improved by digital technologies, which boosts the efficacy of strategic planning. Big data, ERP systems, and artificial intelligence all assist management in promptly identifying changes in the market and evaluating risks.

## References

1. Annapoorna, M. S., Sundharesalingam, P., Rani, M. R., Prabha, R., & Kumar, B. R. (2025). Collaborative Sustainability for Building Resilient Business Models Through Strategic Partnerships for Startup Growth. In *Navigating Strategic Partnerships for Sustainable Startup Growth* (pp. 53–84). IGI Global Scientific Publishing.
2. Bose, S., Dey, S. K., & Bhattacharjee, S. (2023). Big Data, Data Analytics and Artificial Intelligence in Accounting: An Overview. *Handbook of Big Data Research Methods*, 32–51.
3. Christodoulou, I. P., Rizomyliotis, I., Konstantoulaki, K., Alfiero, S., Hasanago, S., & Paolone, F. (2025). Investigating the key success factors within business models that facilitate long-term value creation for sustainability-focused start-ups. *Business Ethics, the Environment & Responsibility*, *34*(3), 936–950.
4. Davila, A., & Foster, G. (2005). Management Accounting Systems Adoption Decisions: Evidence and Performance Implications from early-stage/startup companies. *The Accounting Review*, *80*(4), 1039–1068.
5. Drzewiecki, J. (2023). Strategic management in Polish startups: strategy vs business model approach–research results. *Procedia Computer Science*, *225*, 3163–3172.
6. Drzewiecki, J., & Olek, K. (2024). Impact of management toolbox on startups' strategy and business models–research results. *Procedia Computer Science*, *246*, 5565–5574.
7. Elia, G., Lerro, A., & Schiuma, G. (2022). Leveraging knowledge management systems for business modelling in technology start-ups: An exploratory study. *Knowledge Management Research & Practice*, *20*(6), 913–924.
8. Moro-Visconti, R. (2025). Digital Networking and Artificial Intelligence-driven startups. In *Startup Valuation: From strategic business planning to digital networking* (pp. 241–291). Cham: Springer Nature Switzerland.
9. Pasaribu, H., Ghozali, Z., Susilawati, M., & Masnoni, M. (2025). Transformation of Strategic Management Accounting to Support Innovation and Competitive Advantage in the Digitalization Era. *Jurnal Nawala*, *2*(1), 213–225.
10. Ruggieri, R., Savastano, M., Scalingi, A., Dorina, B., & D'Ascenzo, F. (2018). The impact of Digital Platforms on Business Models: an empirical investigation on innovative start-ups. *Management & Marketing*, 1210–1225.
11. Usman, A., Abbas, S., Thalita, A., & Fadila, N. (2025). The Role of Integrating Strategic Management Accounting with Big Data and Artificial Intelligence in Enhancing Financial Analysis and Decision-Making. *Journal of Comprehensive Science (JCS)*, *4*(7).
12. Yüzbaşıoğlu, N. (2004). İşletmelerde Stratejik Yönetim Ve Planlama Açısından Stratejik Maliyet Yönetimive Enstrümanları. *Selçuk Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi*, (12), 387–410.

Received: 07.08.2025
Approved: 14.11.2025

DOI: https://doi.org/10.36719/2789-6919/52/89-93

**Elnarə Babayeva**
Odlar Yurdu Universiteti
magistrant
https://orcid.org/0009-0009-0056-8513
elnarababayeva2000@gmail.com

# Təşkilati səmərəliliyin formalaşmasında motivasiya və məqsədlər arasındakı qarşılıqlı təsir

## Xülasə

Müasir təşkilatların effektivliyi birbaşa şəkildə kadrların potensialından səmərəli istifadədən asılıdır. Bu baxımdan motivasiya təşkilati nəticələrin yaxşılaşdırılmasında əsas təsir amili kimi qiymətləndirilir. Təşkilatın strateji prioritetləri ilə kadrların şəxsi hədəfləri arasında uyğunluğun təmin edilməsi həm fərdi, həm də kollektiv səviyyədə müsbət nəticələr yaradır. Motivasiya mexanizmi əsasən üç təməl komponent ətrafında qurulur: təşkilat tərəfindən müəyyən edilən strateji hədəflər, kadrların fərdi təlabatları və onların peşəkar fəaliyyətdə göstərdikləri səylər. Bu komponentlər arasında optimal balansın yaradılması təşkilatın uğuruna töhfə verən əsas amildir. İş mühitində peşəkar inkişaf fürsətləri və işdən əldə olunan məmnunluq səviyyəsi motivasiya prosesinə birbaşa təsir göstərir. Səmərəli motivasiya sistemi yalnız kadrların məhsuldarlığının artırılması ilə məhdudlaşmır, həm də təşkilatın davamlı inkişafına şərait yaradır. Müasir biznes şəraitində uğur qazanmaq üçün təşkilati məqsədlərlə fərdi hədəflərin uyğunlaşdırılması prioritet şərt kimi qəbul edilir. Bu uyğunluğun təmin edilməsi strateji planlaşdırma, sistemli yanaşma və davamlı monitorinq tələb edən kompleks proses kimi qiymətləndirilir. Təşkilatların uzunmüddətli uğuru üçün motivasiya mexanizmlərinin daim yenilənməsi və kadrların dəyişən tələblərinə uyğunlaşdırılması zəruri hesab olunur.

***Açar sözlər:*** *motivasiya, təşkilati məqsədlər, iş məmnuniyyəti, performans, rəqabət qabiliyyəti, işçi sədaqəti, təşkilati inkişaf*

**Elnara Babayeva**
Odlar Yurdu University
Master’s student
https://orcid.org/0009-0009-0056-8513
elnarababayeva2000@gmail.com

# The Interrelationship Between Motivation and Goals in Shaping Organizational Efficiency

## Abstract

The effectiveness of contemporary organizations is directly dependent on the efficient utilization of human capital. In this regard, motivation is evaluated as a fundamental factor influencing the enhancement of organizational outcomes. Establishing alignment between the strategic priorities of the organization and employees' personal objectives yields positive results at both individual and collective levels. The motivation mechanism is fundamentally structured around three core components: the strategic goals defined by the organization, the individual requirements of employees, and their demonstrated professional efforts. Achieving an optimal balance among these elements constitutes a primary factor contributing to organizational success. Within the work environment, opportunities for professional development and the degree of job satisfaction directly impact motivational processes. An effective motivation system extends beyond merely increasing employee productivity; it also fosters stronger organizational commitment and creates conditions for

sustainable development. In modern business conditions, aligning corporate objectives with individual goals is acknowledged as a prerequisite for achieving success. This alignment process requires strategic planning, systematic approaches, and continuous monitoring, representing a complex organizational challenge. For long-term organizational success, it is imperative to consistently update motivation mechanisms and adapt them to employees' evolving needs.

***Keywords:*** *motivation, organizational objectives, job satisfaction, performance, competitive capability, employee loyalty, organizational development*

## Giriş

Müasir təşkilatların fəaliyyəti müəyyən strateji məqsədlər əsasında formalaşır. Bu məqsədlər, əsas etibarilə, fərdi hədəflərin təşkilati səviyyədə strukturlaşdırılmış forması kimi xarakterizə olunur (Sabuncuoğlu & Tüz, 2001). Təşkilatın əsas komponenti olan insan resursunun da öz şəxsi məqsəd və tələbatları mövcuddur. Bu baxımdan, təşkilati və fərdi prioritetlərin harmoniyası təşkilatın effektivliyi üçün həlledici əhəmiyyət kəsb edir. Təşkilati motivasiya mexanizmi aşağıdakı üç əsas komponent ətrafında formalaşır:

1. Təşkilatın strateji istiqamətləri və hədəfləri;
2. Kadrların peşəkar fəaliyyətdə göstərdikləri səylər;
3. Fərdi tələbatların və tələblərin ödənilməsi.

Bu komponentlər arasında optimal balansın yaradılması təşkilatın ümumi performansının yaxşılaşdırılmasında əsas amil hesab olunur. Kadrların göstərdiyi səylər təşkilatın strateji istiqamətləri ilə paralel olmalı və həmin səylərin keyfiyyət səviyyəsi daim nəzarət altında saxlanılmalıdır. Müasir təşkilatların davamlılığı birbaşa olaraq kadrların müəyyən edilmiş məqsədlərə uyğun fəaliyyət göstərməsindən asılıdır (Unutkan, 1995). Məhsuldarlıq anlayışı ümumi şəkildə istehsal prosesinə daxil olan resurslarla əldə edilən nəticələr arasındakı əlaqəni ifadə edir. Dinçer və Fidanın (Dinçer & Fidan, 1997) tədqiqatları göstərir ki, məhsuldarlıq müəyyən keyfiyyət standartlarında məhsulun əldə edilməsi üçün istehsal amillərinin nə dərəcədə səmərəli şəkildə istifadə olunduğunu əks etdirən əsas göstəricidir. Müasir idarəetmə sistemlərində əsas hədəf resursların təşkilatın strateji prioritetlərinə uyğun şəkildə ən optimal formada istifadəsinin təşkilidir. Təşkilati məqsədlərə çatmaq və resurs itkisinin qarşısını almaq üçün iqtisadi fəaliyyətin iki fundamental prinsipi nəzərə alınmalıdır: səmərəlilik və effektivlik. Təşkilati məhsuldarlığın artırılması prosesində motivasiya ən kritik amillərdən biri kimi qiymətləndirilir (Sabuncuoğlu & Tüz, 2001). Qloballaşma şəraitində rəqabət mühitinin intensivləşməsi müəssisələri daha yüksək keyfiyyətli məhsul və xidməti daha qısa müddətdə və sərfəli qiymətə təklif etməyə məcbur edir. Bu dinamika motivasiyaya olan tələbatın daha da artmasına səbəb olur. Motivasiya olunmuş işçi heyəti ilə müəssisənin daha məhsuldar, innovativ və yaradıcı xarakter daşıması əhəmiyyətli dərəcədə asanlaşır (Unutkan, 1995).

Motivasiya və iş məmnuniyyəti anlayışlarının hər ikisi emosional, fərdi və subyektiv xüsusiyyətlər daşıyır. İş məmnuniyyəti kadrların daxili tarazlıq və psixoloji rahatlıq hissi kimi təsvir olunur. Bu konsepsiya kadrların iş mühitindən – iş yeri şəraiti, rəhbərlik quruluşu, komanda münasibətləri və təşkilati strukturdan əldə etdiyi psixoloji rifah hissi kimi şərh edilir (Dinçer & Fidan, 1997). Müasir peşəkar mühitin tələbləri nəzərə alınaraq, hər bir kadr üçün bütün istək və tələbatlarını tam formada qane edəcək iş yeri tapmaq kompleks məsələdir. Məhz bu kontekstdə motivasiya mexanizmlərinin əhəmiyyəti daha da artır. Motivasiya və məmnunluq arasında qarşılıqlı təsir dövrü müşahidə olunur: işindən məmnun olan işçi daha yüksək motivasiya səviyyəsi nümayiş etdirir, yüksək motivasiyaya malik işçi isə şəxsi ehtiyacları ödəndikcə daha çox məmnunluq hissi yaşayır (Sabuncuoğlu & Tüz, 2001). İş məmnuniyyətini təmin edən amillər motivasiya vasitələri ilə oxşar xarakter daşısa da, bu iki anlayışın eyniləşdirilməsi elmi cəhətdən düzgün deyildir. İşçilər iş yerlərindən və müəssisədən olan gözləntiləri reallaşdıqca məmnunluq dərəcəsi artır. Bu məmnunluğun məhsuldarlıq göstəricilərinə təsiri müxtəlif formalarda özünü büruzə verir. İş məmnuniyyəti ilə məhsuldarlıq arasındakı korrelyasiya sadə deyil – yüksək məmnuniyyət səviyyəsinin həmişə yüksək məhsuldarlıqla nəticələnəcəyi qətiyyətlə iddia edilə bilməz (Unutkan, 1995).

Motivasiya sahəsində ilk tədqiqatlar amerikalı mühəndis Frederik Teylor və fransız iş adamı Anri Fayol tərəfindən həyata keçirilmişdir. Bu tədqiqatlar zamanı insan ancaq istehsal amili kimi qiymətləndirilmiş, ondan maşın kimi davranması gözlənilmişdir. İnsan tələbatlarına kifayət qədər diqqət ayrılmamışdır. Teylordan Mayoya qədər və müasir dövrə qədər bir çox tədqiqatçı maraqsız və işdən bezmiş insanları yenidən işə maraq göstərən fəal işçilərə çevirməyin yollarını axtarmışlar. Tədqiqatçılar əsasən aşağıdakı suallara cavab axtarırdılar: "Niyə müəssisələrdə işçilərin bir qismi işlərini böyük həvəslə yerinə yetrir, digər qismi isə aşağı məhsuldarlıqla işləyir?" Bu sual motivasiya məsələsinin əsasını təşkil edir, lakin cavabı asanlıqla tapıla bilməz. Teylor və Fayoldan sonra Harvard Universitetinin professoru Elton Mayo və həmkarları tərəfindən aparılan tədqiqatlar göstərdi ki, iş şəraitində edilən dəyişikliklər işçilərin işə olan münasibətini yaxşılaşdırır (Telimen, 1978). İş vaxtının psixoloji və fiziki yükü azaldacaq şəkildə təşkili, nizamlı istirahət fasilələri, işçilərin müntəzəm səhiyyə yoxlamaları, qida təminatı kimi tədbirlər işçilərin özlərinə və idarəetməyə olan inamını artırır. Ənənəvi motivasiya nəzəriyyəsində insan işdən qaçan, tənbəl, yalnız pul marağı olan və işini itirməkdən qorxan bir varlıq kimi təqdim olunur. Bu yanaşmaya görə, yaxşı idarəetmə işçiyə həddən artıq olmayan, lakin onu motivasiya edəcək qədər maddi güzəşt və iş təhlükəsizliyi təmin etməkdir.

Təşkilati motivasiya probleminin həllində müxtəlif nəzəri yanaşmalar təklif edilmişdir. Müasir idarəetmə üçün ən effektiv yanaşma MakQregorun Y nəzəriyyəsi və Maslounun özünügerçəkləşdirmə prinsipinin birləşməsidir. İşçilərə inam, məsuliyyət və inkişaf imkanı vermək, onların müxtəlif tələbat səviyyələrini nəzərə alan motivasiya sistemi qurmaq müəssisənin uğurunun əsas şərtidir. Bu yanaşma nəinki işçilərin məhsuldarlığını artırır, həm də onların təşkilata sədaqətini gücləndirir.

MakQregorun "X və Y Nəzəriyyəsi" iki ziddiyyətli nəzəriyyə çərçivəsində sistemləşdirilir. X nəzəriyyəsinə görə, insanlar təbiətcə tənbəl olur və yalnız məcburiyyət qarşısında işləyir. Bu baxımdan işçilər daim nəzarət altında saxlanılmalı və cəza sistemindən istifadə olunmalıdır (Demirci, 1982). X Nəzəriyyəsi aşağıdakı fərziyyələrə əsaslanır:

1. İnsan iş görməyi sevmir və fürsət düşdükdə ondan yayınır;
2. İnsan təbiətcə məsuliyyətdən qaçan, təhlükəsizliyə can atan və idarə edilməyi gözləyən bir varlıqdır;
3. Belə insanları işə yönləndirmək üçün onlara ciddi şəkildə nəzarət etmək, hətta onları məcbur etmək və təhdid etmək lazımdır.

Bu nəzəriyyəyə inanan rəhbər, avtoritar, sərt və tam nəzarətə əsaslanan idarəetmə üslubunu seçəcəkdir. Bu yanaşma, qısa müddətli nəticələr verə bilər, lakin uzunmüddətdə işçilərdə gərginlik, gizli müqavimət və yaradıcılığın məhv edilməsi kimi problemlər yaradır.

Y Nəzəriyyəsi isə insan təbiətinə daha optimist baxır və aşağıdakı prinsipləri əhatə edir:

1. İnsan iş görməyi oyun və istirahət kimi təbii qəbul edir;
2. İnsan özünü idarə etməyə və məsuliyyət qəbul etməyə hazırdır;
3. Ümumilikdə insanlarda problemləri həll etmək üçün yaradıcılıq və ixtiraçılıq qabiliyyəti vardır;
4. Rəhbərliyin əsas vəzifəsi, iş şəraitini elə təşkil etməkdir ki, işçilər öz şəxsi məqsədlərinə çatmaqla təşkilat məqsədlərinə də xidmət edə bilsinlər.

Y Nəzəriyyəsini mənimsəyən rəhbər, dəstəkləyici və inkişaf etdirici idarəetmə üslubuna üstünlük verəcəkdir. Bu yanaşma işçilərin özünəməxsus potensialını açıb ortaya çıxarmağa, onlara etimad göstərməyə və qərarlarda iştirak etməyə fürsət verməyə əsaslanır. MakQregorun özü də qeyd edirdi ki, effektiv və müvəffəqiyyətli idarəetmə ancaq Y Nəzəriyyəsinin prinsipləri əsasında mümkündür.

Maslou motivasiyanı insanın dinamik bir sistemi kimi qiymətləndirir və onun nəzəriyyəsi bir sıra əsas fərziyyələrə əsaslanır (Maslou, 1943):

1. İnsanların daim təmin etməyə çalışdıqları tələbatları var;
2. Bu tələbatlar sonsuzdur. Biri təmin olunduqca digəri meydana çıxır.
3. Tələbatlar insanı müəyyən davranışlara sövq edir;
4. Tələbatlar müəyyən bir prioritet qaydasında, yəni iyerarxiya şəklində təşkil olunmuşdur;
5. İnsan yalnız aşağı səviyyəli tələbatları əsaslı şəkildə təmin etdikdən sonra daha yuxarı səviyyəli tələbatlara yönəlir.

Bu prinsiplər əsasında Maslou tələbatları aşağıdan yuxarıya doğru aşağıdakı kimi beş əsas kateqoriyaya bölür:

1. Fizioloji tələbat: Yemək, su və yuxu kimi əsas funksiyalar;
2. Təhlükəsizlik tələbatı: Fiziki və iqtisadi təhlükəsizlik, nizam, qayda və sabitlik ehtiyacı;
3. Sosial tələbatlar (Sevgi və Mənsubluq): Sevilmək, sevmək, bir qrupa mənsub olmaq və sosial münasibətlər qurmaq ehtiyacı. Təşkilatda bu, rəsmi və qeyri-rəsmi komandalara daxil olmaq, dostluq münasibətləri qurmaqla ödənilir;
4. Hörmət tələbatı: Həm özünə hörmət, həm də başqaları tərəfindən hörmət və tanınma ehtiyacı. Bu, status, tanınma, mükafatlandırılma və uğur qazanma kimi anlayışlarla bağlıdır;
5. Özünüreallaşdırma tələbatı: Şəxsin öz potensialını tam çatdırması.

Bu nəzəriyyənin rəhbərlər üçün praktiki əhəmiyyəti böyükdür. Rəhbərlik, işçilərin hazırda hansı tələbat səviyyəsində fəaliyyət göstərdiyini anlamaqla, onları həmin səviyyədə effektiv şəkildə motivasiya edə biləcək təşviqedici vasitələri tətbiq edə bilər. Məsələn, fizioloji və təhlükəsizlik tələbatları üstünlük təşkil edən bir əməkdaşı yalnız sosial fəaliyyətlərlə motivasiya etməyə çalışmaq səmərəsiz ola bilər. Bu nəzəriyyə, eyni zamanda, motivasiya sistemlərinin fərdiləşdirilməsinin zəruriliyini də nümayiş etdirir.

Motivasiya müasir təşkilatların uğuru üçün təsadüfi və ya ikinci dərəcəli deyil, strateji bir amildir. Təşkilati məqsədlərlə fərdi məqsəd və tələbatların effektiv şəkildə uyğunlaşdırılması, motivasiya vasitəsilə həm məhsuldarlıq və iş uğurunun artmasına, həm də iş məmnuniyyətinin yaranmasına səbəb olur. Bu uyğunlaşma təmin edilmədikdə isə təşkilat aşağı performans və rəqabət qabiliyyətinin itirilməsi kimi ciddi risklərlə üzləşir. MakQregorun Y Nəzəriyyəsi və Maslounun Özünüreallaşdırma tələbatı müasir humanist idarəetmə anlayışının əsasını təşkil edir. Bu baxımdan kadrlara güvənmək, onlara məsuliyyət vermək və onların qərarlarda iştirak etmək imkanını yaratmaq və şəxsi və peşəkar inkişafı təşviq etmək, uzunmüddətli motivasiya, sədaqət və yüksək performans yaratmaq üçün ən effektiv yoldur. Maslounun tələbatlar piramidası müxtəlif ölkə və mədəniyyətlərdə tətbiq edilsə də, ən yüksək pillə "Özünüreallaşdırma tələbatı" bütün insanlarda ortaqdır. Xüsusilə rəhbər və peşəkar kadrlar üçün bu, çox vacib motivasiya amili sayılır. Əməkdaşlara öz potensialını həyata keçirmək imkanı verildikdə, həm motivasiya artır, həm də iş məhsuldarlığı yüksəlir.

## Nəticə

Nəticə etibarilə, aşağıdakı tövsiyələri vermək olar:

1. Şəffaflıq və kommunikasiya: Təşkilati məqsədlər bütün işçilərə aydın, anlaşılan və davamlı şəkildə çatdırılmalı, onların bu məqsədləri mənimsəməsi üçün zəmin yaradılmalıdır;
2. Fərdiləşdirilmiş motivasiya sistemi: Kadrların fərqli ehtiyac və məqsədlərə sahib olduğu nəzərə alınaraq, motivasiya vasitələri (maddi və mənəvi) fərdiləşdirilməli və müxtəlif tələbat səviyyələrinə cavab verəcək şəkildə müxtəlif olmalıdır;
3. Güclü təşkilat mədəniyyətinin qurulması: Ortaq dəyərlər, normalar və inanclar ətrafında birləşən bir təşkilat mədəniyyəti yaratmaq, motivasiyanı daxili və davamlı hala gətirir;
4. İştirakçı rəhbərlik üslubunun tətbiqi: Rəhbərlər MakQregorun Y Nəzəriyyəsini rəhbər tutaraq, işçiləri qərarlara cəlb etməli, onlara inkişaf imkanları yaratmalı və öz-özünü idarə etməyə təşviq etməlidirlər;
5. Daimi təlim və inkişaf: İşçilərin yalnız cari vəzifələrini deyil, həm də onların uzunmüddətli karyera və özünü gerçəkləşdirmə məqsədlərini dəstəkləyəcək təlim və inkişaf proqramları təşkil edilməlidir.

## Ədəbiyyat

1. Davis, K. (1987). *Human behavior at work: Organizational behavior*. Grolier Business Library.
2. Dinçer, Ö., & Fidan, Y. (1997). *İşletme yönetimine giriş*. Beta Yayınları.
3. Demirci, Z. (1982). *Güdüleme fonksiyonunun teorik açıdan incelenmesi (Yayınlanmamış yüksek lisans tezi).* Marmara Üniversitesi Sosyal Bilimler Enstitüsü.
4. Maslow, A. H. (1943). A Theory of Human Motivation. *Psychological Review*, 50(4), 370–396.
5. Munn, N. L. (1951). *Psychology: The Fundamentals of Human Adjustment (2nd ed.).* Houghton Mifflin.
6. Newstrom, J. W., & Davis, K. (1989). *Organizational Behavior: Human Behavior at Work (8th ed.).* McGraw-Hill.
7. Northcraft, G. B., & Neale, M. A. (1990). *Organizational Behavior: A Management Challenge*. The Dryden Press.
8. Onal, G. (1995). *İşletme yönetimi ve organizasyonu*. Marmara Üniversitesi Sosyal Bilimler Enstitüsü Yayınları.
9. Sabuncuoğlu, Z. (1984). *Çalışma psikolojisi (2. baskı)*. Bursa Üniversitesi Yayınları.
10. Sabuncuoğlu, Z., & Tuz, M. (1996). *Örgütsel psikoloji (2. baskı).* Ezgi Kitabevi.
11. Schermerhorn, J. R., Hunt, J. G., & Osborn, R. N. (1994). *Managing Organizational Behavior.* John Wiley & Sons.
12. Şencan, H. (2002). *Bilimsel yazım (5. baskı).* İstanbul Üniversitesi İşletme Fakültesi Yayınları / Çantay Kitabevi.
13. Stoner, J. A. F. (1978). *Management*. Prentice Hall.
14. Telimen, O. (1978). *Personel yönetimi ve beşeri ilişkiler*. Nihad Sayar Yayın ve Yardım Vakfı Yayınları.
15. Unutkan, G. A. (1995). *İşletmelerin yönetimi ve örgüt kültürü*. Türkmen Kitabevi.

Daxil oldu: 02.08.2025
Qəbul edildi: 10.11.2025

DOI: https://doi.org/10.36719/2789-6919/52/94-99

**Zərifə Cəfərova**
Azərbaycan Turizm və Menecment Universiteti
magistrant
https://orcid.org/0009-0001-3400-5227
jafarovazrf@gmail.com

# Mehmanxana və restoran biznesində keyfiyyətin idarə edilməsi strategiyalarının araşdırılması

**Xülasə**

Bu məqalə müasir bazar şəraitində fəaliyyət göstərən qonaqpərvərlik biznesində fərdiləşdirilmiş xidmət sisteminin keyfiyyət baxımından rəqabət üstünlüyü və onun rolunu araşdırır. Tədqiqatda bu sahədə rəqabətin xüsusiyyətləri və istehlakçı tələbatının dəyişən forması təhlil edilir, fərdiləşdirilmiş xidmət modelinin biznesin səmərəliliyinə göstərdiyi müsbət təsir vurğulanır. Müəyyən edilir ki, ən yüksək nəticələr, rəqiblərdən fərqli müştəri məlumatlarının fərdiləşdirilməsi modelinin formalaşdırılması və onun strateji şəkildə tətbiqi sayəsində əldə olunur. Bununla yanaşı, effektiv fərdiləşdirilmiş xidmət sistemi, məlumat bazasının qorunması və təkmilləşdirilməsi üçün davamlı investisiyaların, eləcə də süni intellekt (AI) və maşın öyrənməsi (ML) texnologiyalarının istifadəsini tələb edir.

***Açar sözlər***: *qonaqpərvərlik sənayesi, keyfiyyətin idarə edilməsi, fərdiləşdirmə, xidmət keyfiyyəti, rəqəmsal transformasiya*

**Zarifa Jafharova**
Azerbaijan Tourism and Management University
Master's student
https://orcid.org/0009-0001-3400-5227
jafarovazrf@gmail.com

# Investigation of Quality Management Strategies in the Hotel and Restaurant Business

**Abstract**

This study explores the role of personalized service systems as a source of competitive advantage in the hospitality industry, emphasizing their contribution to service quality within contemporary market conditions. The research investigates the dynamics of competition and the shifting patterns of consumer demand, underscoring the positive influence of tailored service approaches on organizational performance. Findings suggest that optimal outcomes are achieved through the implementation of a customer data personalization framework that differentiates an enterprise from its competitors and is strategically aligned with business objectives. Moreover, sustaining an effective personalized service system necessitates continuous investment in data management and the incorporation of advanced technologies, including artificial intelligence (AI) and machine learning (ML), to enhance service precision and responsiveness.

***Keywords***: *hospitality sector, service quality management, personalization strategies, digital transformation, artificial intelligence, machine learning*


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

## Giriş

Müasir qlobal turizm və qonaqpərvərlik sektoru hər bir müştəri uğrunda güclü rəqabət şəraitində fəaliyyət göstərməklə biznes mühitində baş verən xarici dəyişikliklərə sürətlə uyğunlaşmaq məcburiyyətindədir. Hal-hazırda dünya üzrə mehmanxana və turizm sahəsi davamlı şəkildə inkişaf edir və bu artım tempi təqdim olunan mehmanxana və restoran xidmətlərinin çeşidinin genişlənməsinə səbəb olur. Xidmət bazarının daha açıq və şəffaf olması, həmçinin qonaqpərvərlik müəssisələri arasında rəqabətin intensivləşməsi, bu müəssisələri xidmət keyfiyyətini davamlı artırmaq və müştəri cəlbediciliyini yüksəltmək üçün strateji tədbirlər görməyə təşviq edir. İstehlakçı davranışlarının dəyişməsi və onların gözləntilərinin mürəkkəbləşməsi xidmət keyfiyyətinin daim təkmilləşdirilməsini sektor üçün prioritet məsələ kimi önə çıxarır. Bunun əsas səbəbi qonaqpərvərlik sektorunun müxtəlif texnoloji yeniliklərlə zənginləşməsi və təklif olunan spesifik xidmətlərin sayının artmasıdır. Belə şəraitdə xidmətlərin yüksək keyfiyyəti müasir qonaqpərvərlik şirkətləri üçün ən güclü rəqabət üstünlüklərindən birinə çevrilir.

**Tədqiqat**

Məlum olduğu kimi, müasir dövr texnika və texnologiya erası hesab olunur. Belə bir mühitdə xidmət sənayesinin inkişafı da istisna hesab olunmur. Bunun bariz nümunəsi kimi, son dövrlərdə qonaqpərvərlik müəssisələrinin inkişafında bir sıra əsas tendensiyalar müşahidə olunur: mehmanxana təkliflərinin ixtisaslaşmasının dərinləşməsi, beynəlxalq mehmanxana zəncirlərinin genişlənməsi, kiçik müəssisələr şəbəkəsinin formalaşması və qabaqcıl rəqəmsal texnologiyaların tətbiqi və s. aid edilir. Mehmanxana sənayesində fəaliyyət göstərən müəssisələr üçün məhdud xidmət çeşidinə malik ixtisaslaşmış obyektlərin mövcudluğu xarakterik hal hesab olunur. Bu ixtisaslaşma müəyyən müştəri seqmentlərinə yönəlmiş xidmətlərin təkmilləşdirilməsinə imkan verir, çünki səyahət məqsədləri və turistlərin gözləntiləri zamanla dəyişir və mürəkkəbləşir.

Qonaqpərvərlik sektorunda xidmətlərin əsas göstəriciləri xidmətlərin qiymət siyasəti, müəssisənin yerləşdiyi ərazi, konseptual yanaşması, otaqların komfort səviyyəsi və avadanlıqlarıdır. Xüsusilə işgüzar və ya sahibkarlıq məqsədilə səfərdə olan turistlər üçün xidmət səviyyəsinin yüksəldilməsi vacibdir, bu isə müəssisələr üçün strateji planlaşdırma və xidmət keyfiyyətinin davamlı təkmilləşdirilməsi zərurətini yaradır. Turizm sahəsi qlobal rəqəmsallaşmanın təsirini ən əvvəl hiss edən sahələrdən biri olmuşdur, çünki bu sektor informasiya baxımından zəngin olub, baş verən dəyişikliklərə sürətlə reaksiya verir. Rəqəmsallaşmanın və xüsusilə rəqəmsal transformasiyanın turizm sənayesinə təsiri yalnız müəssisələrin biznes proseslərinə rəqəmsal texnologiyaların inteqrasiyası ilə deyil, həm də səyahətçi profilinin dəyişməsi ilə müşahidə olunur. Hazırkı vəziyyətdə isə qonaqların tələbləri artmaqdadır və qonaqpərvərlik sahəsində fəaliyyət göstərən şirkətlər üçün potensial müştərilərin diqqətini cəlb etmək getdikcə çətinləşir. Sadəcə əlverişli yerləşmə və müxtəlif əlavə xidmətlər artıq heç kimi təəccübləndirmir və müəyyən bir mehmanxana və ya restorana üstünlük verməyə məcbur etmir. Buna görə isə daha fərqli yanaşma tələb olunur. Məsələn, hansı yanaşmalar?

Xidmətlərin fərdiləşdirilməsi indi rəqəmsal texnologiyalar olmadan əldə edilə bilməyən ən vacib rəqabət üstünlüklərindən birinə çevrilmişdir. Müştərinin ehtiyac və arzularını anlamaq üçün onun əvvəlki səyahət təcrübəsi, mehmanxanada gecələmə təcrübəsi və digər əlaqəli məlumatları əhatə edən böyük bir verilənlər bazasının toplanması və işlənməsi vacibdir (Buhalis, 2018, p. 47). Bu, səyahətçinin virtual bir portretinin formalaşdırılmasına və süni intellekt sistemləri vasitəsilə onun ehtiyaclarının modelləşdirilməsinə imkan yaradır. Artırılmış və virtual reallıq texnologiyaları dünyanın yüzlərlə mehmanxanasında aktiv şəkildə tətbiq olunur və müştərilərin cəlb olunmasında, qonaq loyallığının artırılmasında, mehmanxana ziyarəti və səyahət zamanı tələb olunan "wow" effektinin təmin edilməsində böyük nəticələr göstərir. Bütün bu sürətlə inkişaf edən tendensiyalar xidmət keyfiyyətinin təmin edilməsi və ölçülməsi sistemində, həmçinin xidmət keyfiyyətinin rəqabət faktorlarında əhəmiyyətli dəyişiklikləri müəyyən edir.

Eyni zamanda, mehmanxana sənayesi üçün ən mühüm məsələlərdən biri xidmət keyfiyyətinin nəzarətidir. Mehmanxanalarda təqdim olunan xidmətlər qeyri-maddi xarakter daşıdığı üçün "təklif olunan qiymət"in qiymətləndirilməsi və müəyyən edilməsi müasir biznes inkişaf reallıqlarında,

deməк olar ki, mümkün deyil. Xidmətlərin keyfiyyətinə nəzarət, adətən, personalın davranışının müşahidəsi vasitəsilə həyata keçirilir. Bu xüsusda, mehmanxana və restoranlar Ümumi Keyfiyyət İdarəetmə sistemini tətbiq etməyə, ISO sertifikasiyası keçməyə, personalı təlimləndirməyə çalışırlar. Lakin sürətlə dəyişən BANI mühitində, "karaoke kapitalizmi" dövründə, istehlakçıların üstünlük verdiyi meyillər dəyişir və hətta "lüks" anlayışı transformasiya olunur. Belə şəraitdə, xidmət keyfiyyətinin idarə olunması üçün yeni strategiyalar və yanaşmalar tələb olunur ki, bunlar ən yaxşı təcrübələrin (hətta əlaqəli sahələrdə, məsələn pərakəndə satış sektorunda) təhlili, qısa, orta və uzunmüddətli proqnozlaşdırma və modelləşdirməyə əsaslanmalıdır.

Müasir qonaqpərvərlik biznesi müştərilərə yalnız əsas yaşayış və yemək xidmətləri təqdim etmir, eyni zamanda, transferlər, ekskursiyalar, əyləncə, idman, tibbi və digər əlavə xidmətlər kimi geniş çeşiddə imkanlar da təqdim edir. Bazar ekspertləri qeyd edirlər ki, son dövrlərdə mehmanxana xidmətləri bazarındakı təkliflərin sayı artır, lakin eyni zamanda, mehmanxana xidmətlərinə olan tələb azalır, bu isə rəqabətin güclənməsinə səbəb olur. Əsas məqsəd isə, hədəf müştərilərin gözləntilərini ödəyən və hətta onları aşan mehmanxana xidmətləri təqdim etməkdir. Müştəri gözləntiləri, əsasən, əvvəlki təcrübə və marketinq kommunikasiyası kanalları vasitəsilə əldə olunan informasiya əsasında formalaşır. Bununla belə, müştərilər müəyyən bir mehmanxana şirkətini seçir və öz təcrübələrini əvvəlcədən formalaşmış gözləntilərlə müqayisə edirlər. Müştəri həmişə mehmanxana xidmətlərinin qiyməti ilə xidmət keyfiyyəti arasında özünün müəyyən etdiyi uyğunluğu gözləyir. Mehmanxana xidmətləri yüksək səviyyədə qeyri-müəyyənliyə malikdir, bu isə müştərini çətin vəziyyətə salır və müəssisənin xidmətlərini bazarda tanıtmasını çətinləşdirir. Bazarın və mehmanxana xidmətlərinin bu cür xüsusiyyətləri müştəri xidmətinin spesifikliyini müəyyən edir. Beləliklə, müasir mehmanxana sənayesində rəqabət qabiliyyətinin artırılmasında ən vacib amil, müəyyən müəssisəni rəqiblərindən fərqləndirən xüsusi və bəzən unikal xidmət növlərinin tətbiqidir.

Xidmət keyfiyyətinə dair aparılan araşdırmaların böyük hissəsi göstərir ki, fərdiləşdirilmiş yanaşma bu gün yüksək keyfiyyətin təmin olunmasının əsas təməlidir və bu yalnız lüks seqmentlə məhdudlaşmır. Yüksək səviyyəli xidmətin əsas amili peşəkar və keyfiyyətli işdir. Bununla yanaşı, məhsul (bütün peşəkar bacarıqlar) və xidmət (peşəkar bacarıqlara əlavə edilən bütün elementlər) anlayışlarını ayırd etmək vacibdir. Çox zaman yüksək xidmətin bahalı olması və yalnız prestijli müəssisələr tərəfindən təqdim edilməsi kimi fikirlər mövcuddur. Lakin müasir dövrdə, məsələn, bir çox aşağı büdcəli aviaşirkətlər müştəriləri proaktiv xidmət və yüksək müştəri loyallığı ilə cəlb edirlər.

Xidmət çoxqatlı bir sistemdir və öz strukturuna malikdir. Mövzunun araşdırması göstərir ki, mehmanxana biznesində xidmətin əsas struktur komponentləri aşağıdakılardır:

1. Xidmət vizionu – hər bir əməkdaşa mehmanxananın məqsədlərinin mənasını izah edən və onları fəaliyyətə ruhlandıran aydın ifadə;
2. Xidmət mədəniyyəti – şirkət komandasına xüsusi atmosfer yaratmaq və əməkdaşları hər müştəriyə keyfiyyətli xidmət göstərməyə motivasiya etmək (bəzi beynəlxalq şirkətlər maddi təşviq prinsiplərindən istifadə edir);
3. Müştəri təcrübəsinin fərdiləşdirilməsi sistemi – müştəri ilə xüsusi əlaqə qurmağa imkan verən daxili alt sistemlər;
4. Təhsil prosesi – xidmət mədəniyyətinin yaradılması məqsədilə əməkdaşların effektiv təliminin inkişaf etdirilməsi;
5. İcra və həyata keçirmə – müsbət müştəri təcrübəsinin təqdim olunmasının tətbiqi və nəzarəti;
6. Xidmət anlayışının başa düşülməsi və mehmanxana idarəetmə standartlarına riayət olunmasının monitorinqi.

